RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 241 (9986) 13 noyabr 2025-ci il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# İlk növbədə XALQA XİDMƏT...



## Prezident İlham Əliyev Naxçıvanda Prezidentin yeni səlahiyyətli nümayəndəsini və bir sıra rayonların icra hakimiyyətlərinə təyin olunan başçıları qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Ceyhun Cəlilovu Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi, Elxan İbrahimovu Bakı şəhəri Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı, Natiq Ağayevi Balakən Rayon İcra Hakimiyyətinin başçısı, Orxan Mürsəlovu Göyçay Rayon İcra Hakimiyyətinin başçısı, Elvin Paşayevi Qax Rayon İcra Hakimiyyətinin başçısı, Vüqar Novruzovu Göygöl Rayon İcra Hakimiyyətinin başçısı, Elşən Həsənlini Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən **Prezident İlham ƏLİYEV** dedi:

- Siz ölkəmizin müxtəlif bölgələrinə rəhbər vəzifələrə təyin edilirsiniz. Sizə böyük etimad göstərilir, əminəm ki, bu etimadı doğruldacaqsınız. Siz öz işinizlə, əməyinizlə qarşıda duran vəzifələrin icrası üçün səylərinizi əsirgəməyəcəksiniz.

Əlbəttə ki, böyük məsuliyyət böyük işlər tələb edir. İlk növbədə mənim bütün tapşırıqlarımı yerinə yetirməlisiniz. Mən hər dəfə bölgələrə rəhbər vəzifələrə şəxsləri təyin edəndə verdiyim tapşırıqlar onlar üçün əsas iş prinsipləri olmalıdır - ilk növbədə xalqa xidmət etmək, xalqla bir yerdə olmaq. Rəhbər vəzifədə çalışan hər bir şəxs, hər bir məmur təvazökar olmalıdır. Həyatda, məişətdə özü, onun yaxın qohumları özlərini elə aparmalıdırlar ki, bizim ümumi işimizə heç bir irad tutulmasın. Əfsuslar olsun ki, bəzi hallarda məmurlar özlərini cəmiyyətdə düzgün apara bilmirlər, ifrat dərəcədə təkəbbürlülük göstərirlər, özlərini hamıdan üstün tutmağa çalışırlar və beləliklə, həm öz nüfuzlarını itirirlər, eyni zamanda dövlətimizə, dövlətin siyasətinə də ləkə vurmuş olurlar. Bununla bərabər, bəzi hallarda korrupsiyaya, rüşvətxorluğa düçar olurlar.

Azərbaycan ictimaiyyəti yaxşı bilir ki, əyri yola gedən hər bir dövlət məmuru nəticədə məhkəmə, qanun qarşısında cavab verməli olur və belə hallar əfsuslar olsun ki, bu gün də var. Ancaq o da cəmiyyət üçün tam aydındır ki, heç bir qanunsuz hərəkət nəticəsiz qalmayacaq. Ona görə sizdən tələbim, eyni zamanda xoşagəlməz hallara qarşı ciddi mübarizə aparmaq, kadr siyasətində etibarlı, peşəkar və mənəvi cəhətdən təmiz kadrları seçmək, rəhbərlik edəcəyiniz bölgələrdə öz işinizlə mənim seçimimin düzgün olduğunu sübut etməkdir. Əks təqdirdə, əlbəttə ki, lazımi ölçülər götürüləcəkdir.

2

## İlham Əliyev Rəcəb Tayyib Ərdoğana başsağlığı verib



Noyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib.

Dövlətimizin başçısı Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus hərbi yük təyyarəsinin Gürcüstan ərazisində qəzaya uğraması ilə əlaqədar Türkiyə Respublikasının Prezidentinə, həlak olmuş hərbçilərin ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına dərin hüznlə başsağlığı verib.

Türkiyə Respublikasının Prezidenti telefon zənginə və ifadə edilmiş başsağlığına görə Azərbaycan Respublikasının Prezidentinə təşəkkürünü bildirib.

Telefon danışığı zamanı Azərbaycanın və Türkiyənin aidiyyəti dövlət qurumlarının qəza ilə əlaqədar təmasda olduqları qeyd edilib.

***Prezidentin Mətbuat Xidməti***

## Türkiyə Respublikasının Prezidenti zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

Hörmətli cənab Prezident!

Əziz Qardaşım!

Gəncədən qalxan və Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus hərbi yük təyyarəsinin Gürcüstan ərazisində qəzaya uğraması nəticəsində hərbçilərin həlak olması barədə xəbər bizi son dərəcə sarsıtdı.

Bu ağır anlarda kədərinizi bölüşür, baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

*Allah rəhmət eləsin!*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 noyabr 2025-ci il*

## Vizasız gediş-gəliş rejiminin tətbiqindən sonra Çindən ölkəmizə gələn turistlərin sayı artıb

### Prezident İlham Əliyev Çinin "China Datang Corporation Ltd." şirkətinin nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Çinin "China Datang Corporation Ltd." şirkətinin Direktorlar Şurasının sədri Lü Cünün başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

2

## Prezident İlham Əliyev Dövlət Bayrağı Günü ilə bağlı paylaşım edib




## Prezident İlham Əliyev 12 Noyabr - Konstitusiya Günü ilə bağlı paylaşım edib




Prezident İlham Əliyev 12 Noyabr - Konstitusiya Günü ilə bağlı sosial şəbəkə hesablarında paylaşım edib. AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

"12 Noyabr - Azərbaycan Respublikasının Konstitusiya Günü".

## Birinci vitse-prezident Mehriban Əliyeva Dövlət Bayrağı Günü münasibətilə paylaşım edib




## Birinci vitse-prezident Mehriban Əliyeva Konstitusiya Günü münasibətilə paylaşım edib




## *Prezident İlham ƏLİYEV:* "Bu gün Azərbaycanın hər bir yerində Dövlət bayrağı dalğalanır"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 9 Noyabr - Dövlət Bayrağı Günü münasibətilə rəsmi sosial şəbəkə hesablarında yeni paylaşım edib. AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

"Bu gün Azərbaycanın hər bir yerində Dövlət bayrağı dalğalanır. Eşq olsun, Azərbaycan bayrağına!"



# İlk növbədə XALQA XİDMƏT...

## Prezident İlham Əliyev Naxçıvanda Prezidentin yeni səlahiyyətli nümayəndəsini və bir sıra rayonların icra hakimiyyətlərinə təyin olunan başçıları qəbul edib





*Əvvəli 1-ci səh.*

Bizim bölgələrimizdə əsas infrastruktur layihələri demək olar ki, başa çatıb. Dövlət xətti ilə, dövlət investisiya proqramları xətti ilə son illər ərzində müsbətə doğru böyük dönüş təmin edilib. Bir neçə regional inkişaf proqramının icrası uğurla nəticələnib. Demək olar ki, əsas infrastruktur istiqaməti olan elektrik enerjisi ilə bütün bölgələrdə vəziyyət tam normallaşıb. Təbii ki, köhnəlmiş infrastrukturun təzələnməsi, təmiri məsələləri var. Ancaq bu problem artıq ciddi problem kimi mövcud deyil. Bizim bütün bölgələrimizdə, o cümlədən işğaldan azad edilmiş ərazilərdə elektrik infrastrukturunun yaradılması güclü potensial yaratmışdır.

Magistral yollar tamamilə müasir standartlara cavab verir. Şəhərlərarası yollar təmirlidir. Kənd yollarının tikintisi üçün hər il lazımi vəsait ayrılır. Deyə bilmərəm, hələ ki, biz istənilən 100 faiz nəticəyə çatmışıq, ancaq bir çox bölgələrdə kənd yollarının təqribən 70-80 faizi təmirlidir və keyfiyyətlidir.

Bütün şəhərlərdə içməli su layihələri icra edilir. Kəndlərdə də içməli su ilə bağlı lazımi tədbirlər görülür, suvarma layihələri icra edilir, yeni su anbarlarının, su kanallarının tikintisi və suvarma ilə bağlı vəziyyət, ümumiyyətlə, müsbətə doğru dəyişir. Bütün digər infrastruktur layihələri, o cümlədən sosial infrastruktur layihələri, məktəb tikintisi, xəstəxanalar, idman obyektləri. Yəni bu gün Azərbaycanın bölgələrində bütün bu məsələlər öz həllini tapır. Hər bir şəhərdə müasir xəstəxana fəaliyyət göstərir və bütün bunlar, əlbəttə ki, həm böyük vəsait, həm də gündəlik diqqət tələb edir. Yenə də deyirəm, biz bu məsələləri dövlət xətti ilə, dövlət büdcəsi hesabına regionların sosial-iqtisadi inkişafı proqramlarının icrası nəticəsində həll etmişik.

Qaldı ki, yerlərdə bu gün hələ də mövcud olan, insanları narahat edən məsələlər öz həllini tapsın, burada da əsas prinsip sosial ədalət prinsipidir. Hər bir bölgədə, hər bir kənddə insanlar görməlidir və bilməlidir ki, ədalət hər zaman üstünlük təşkil edir. Vaxtilə bizim bölgələrimizdə proseslərin mənfi istiqamətdə getməsinin səbəbi də məhz mərkəzi icra orqanlarındakı bəzi məmurların xoşagəlməz hərəkətləri və tapşırıqları idi. Artıq o məmurlardan, necə deyərlər, əsər-əlamət qalmayıb. Azərbaycanda məmur korpusunda, xüsusilə mərkəzi icra orqanlarında aparılan kadr islahatları nəticəsində vəziyyət böyük dərəcədə sağlamlaşdırılıb. Ona görə mən tam əminəm ki, bundan sonra mərkəzdən sizə hansısa bir qanunsuz tapşırıq verilməyəcək. Vaxtilə belə hallar olub və bu qanunsuz tapşırıqları verən, qanunsuz varlanmanı özləri üçün əsas məqsəd hesab edən məmurlar bu gün məhkəmə qarşısında cavab verirlər. Bir çox hallarda torpaqlardan səmərəsiz istifadə edilməsi halları olub, torpaqlar zəbt edilib, torpaqların kateqoriyaları dəyişdirilib. Əkinbiçin üçün yararlı olan torpaqlarda bəzi məmurlar özləri üçün imarətlər inşa ediblər və əlbəttə ki, bütün bunlar qanunsuz hərəkətlərdir.

Ancaq mən onu da bilirəm ki, yerlərdəki bəzi məmurlar məcbur olub o qanunsuz hərəkətləri icra ediblər. Onların, əlbəttə ki, üzərinə düşən məsuliyyət tamamilə başqa yanaşmanı tələb edirdi. Ancaq eyni zamanda o da həqiqətdir ki, bəzi hallarda bax, bu qanunsuz əməllərin təməlində harınlamış, acgöz, gözü doymayan mərkəzdə oturan məmurların göstərişləri olub. Amma yenə də deyirəm, sağlamlaşdırma və təmizləmə siyasəti nəticəsində artıq əminəm ki, sizə heç kim qanunsuz tapşırıq verməyəcək. Əgər kimsə bu tapşırığı verərsə, onda dərhal mənə məlumat verin və o adamlar haqqında ciddi ölçülər götürüləcək.

Bölgələrdə, əlbəttə ki, məşğulluqla bağlı məsələlər əsas prioritetlərdən, biridir. Azərbaycanda, bütövlükdə məşğulluqla bağlı son illər ərzində çox böyük islahatlar aparılıb, işsizliyin səviyyəsi aşağı düşüb. Ancaq o da həqiqətdir ki, bu gün hələ də bölgələrdən Bakıya, böyük şəhərlərə miqrasiya meyilləri mövcuddur. Bunun müxtəlif səbəbləri var. Miqrasiyanın, kəndlərdən şəhərlərə axının mövcud olması təkcə bizim ölkə üçün xas deyil, inkişaf etmiş ölkələrdə də bu var. Təbii ki, böyük şəhərlərdə imkanlar da genişdir, yaşayış səviyyəsi də daha yüksəkdir. Bütün bunlar başadüşüləndir. Ancaq, eyni zamanda bölgələrdən şəhərlərə miqrasiyanın səbəblərindən biri də işsizlikdir. Bölgələrdə insanları işlə təmin etmək üçün indi dövlət müxtəlif addımlar atır, müəssisələr yaradılır, sahibkarlara güzəştli kreditlər verilir, özünüməşğulluq proqramı uğurla icra edilir. Artıq on minlərlə insan bu proqramla əhatə olunub. Ona görə yerlərdəki rəhbərlərdən də tələbim odur ki, iş yerlərinin yaradılmasına çalışsınlar, iş adamlarına şərait yaratsınlar. Təbii ki, onlara dəstək vermək lazımdır. Çünki yerli istehsalın inkişafı həm məşğulluq məsələlərini təmin edir, eyni zamanda yerli istehsalı da gücləndirir. Kənd təsərrüfatı və turizmlə bağlı son müddət ərzində dövlət xətti ilə bir çox önəmli addımlar atılmışdır. Bunu daha da genişləndirmək lazımdır. Xüsusilə turizm üçün cəlbedici olan bölgələrdə bu, iqtisadiyyatın, bölgə iqtisadiyyatının kənd təsərrüfatı ilə birlikdə əsas amilini təşkil etməlidir.

Bölgələrdəki ekoloji tarazlıq mütləq qorunmalıdır, ətraf mühitə böyük diqqət göstərilməlidir. Bizim bölgələrimizdə prinsip etibarilə ekologiya ilə bağlı ciddi problemlər yoxdur. Əsas problemlər Bakı şəhərində idi ki, biz bunu uğurla həll edirik. Bakının yeni mənzərəsi bunun əyani sübutudur. Vaxtilə burada ekoloji fəlakət hökm sürürdü. Həm Bakı, həm Sumqayıt ekoloji cəhətdən ən çirklənmiş şəhərlər hesab olunurdu. Bu gün isə bu, belə deyil. Bu gün Bakı, Sumqayıt parklar şəhərləridir. Biz köhnəlmiş müəssisələri köçürdük, neftlə çirklənmiş yerləri abadlaşdırdıq, rekultivasiya etdik, parklar saldıq. Qara Şəhəri Ağ Şəhərə çevirdik. Bölgələrdə isə əlbəttə ki, ekoloji tarazlığın təmin edilməsi üçün, necə deyərlər, başqa üsullar var. Ona görə burada qanunsuz fəaliyyət daha çox ekoloji ziyan vurur, nəinki neft-qaz sənayesi. Ona görə qanunsuz fəaliyyəti məhdudlaşdırmaq, aradan qaldırmaq üçün mənim tərəfimdən müvafiq göstərişlər verildi, Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə ki, burada çayların məcralarının dəyişdirilməsi, tikinti üçün lazım olan qanunsuz malların işlənməsi, istehsalı - bütün bunlar tənzimlənməlidir və qanunsuz fəaliyyətə qətiyyən yol verilməməlidir.

Bir sözlə, Azərbaycanın bölgələri bu gün ən yüksək standartlara cavab verməlidir. Yenə də deyirəm, son illər ərzində aparılmış işlər nəticəsində bölgələrin canlanmasını hər bir Azərbaycan vətəndaşı əyani şəkildə görür. Doqquz beynəlxalq hava limanı, yenilənmiş, təmir edilmiş və yeni çəkilmiş dəmir yolları, magistral avtomobil yolları, elektrik infrastrukturu, suvarma ilə bağlı, içməli su ilə bağlı olan layihələr, qazlaşdırma. Yəni bütün bu işləri biz son illər ərzində görmüşük ki, insanlar daha yaxşı yaşasınlar. İnsanlara diqqət göstərmək, onların qayğıları ilə yaşamaq, daim onların arasında olmaq lazımdır. Bütün kəndləri bir-bir gəzib orada - kəndlərdə insanlarla təmasda olmaq. Yəni mənim tələblərim bundan ibarətdir. Hər təyinatda icra başçısı olsun, digər rəhbər şəxs olsun, mənim təlimatlarım bundan ibarətdir. Amma əfsuslar olsun ki, yenə də deyirəm, göstərdiyim etimada rəğmən bəzi məmurlar bu göstərişləri yerinə yetirmək əvəzinə, ancaq öz ciblərini güdərək qanunsuz varlanmaya üstünlük verirlər. Əminəm ki, bu yüksək etimadı siz öz işinizlə doğruldacaqsınız. Sizin üzərinizə böyük vəzifə düşür, bəziləriniz artıq rəhbər vəzifələrdə çalışmısınız, təcrübəniz də var. Bəziləriniz yeni təyin olunursunuz. Ona görə əminəm ki, öz işinizlə bu etimadı doğruldacaqsınız və xalqın rəğbətini qazanacaqsınız. Sizə uğurlar arzulayıram. Sağ olun.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi **Ceyhun CƏLİLOV:** Möhtərəm cənab Prezident, ilk öncə bizə göstərdiyiniz yüksək etimada görə Sizə dərin minnətdarlığımızı bildiririk. Azərbaycan Respublikasının son illərdə bütün regionlarının, eyni zamanda Naxçıvan Muxtar Respublikasının inkişafında xüsusi mərhələ var. Bu, Sizin xüsusi diqqət və qayğınızın nəticəsidir. Sizi əmin etmək istəyirik və söz veririk ki, bundan sonrakı fəaliyyətimizdə Sizin etimadı doğrultmaq məqsədilə verdiyiniz bütün tapşırıq və göstərişlərinizi vaxtında layiqincə yerinə yetirib bu tapşırıqların icrasını tam təmin edəcəyik.

**Prezident İlham ƏLİYEV:** Sağ ol.

Göyçay Rayon İcra Hakimiyyətinin başçısı **Orxan MÜRSƏLOV:** Möhtərəm cənab Prezident, yenidən etimad göstərərək bizi vəzifəyə təyin etdiyinizə görə Sizə dərin minnətdarlığımızı bildiririk. Tam suveren Azərbaycanımızın banisi olaraq zati-alinizin bütün tapşırıqlarını təyin olunduğumuz vəzifələrimizdə vicdanla, tam məsuliyyətimizlə və ləyaqətlə qeyd-şərtsiz icra edəcəyik. Təşəkkür edirik.

**Prezident İlham ƏLİYEV:** Sağ ol.

Göygöl Rayon İcra Hakimiyyətinin başçısı **Vüqar NOVRUZOV:** Möhtərəm cənab Prezident, göstərdiyiniz böyük etimadı doğruldacağıq, müasir Azərbaycan Respublikasının banisi Ulu Öndərimiz Heydər Əliyevin ideyalarını yaşadacağıq, Sizə və Azərbaycan Respublikasına şərəflə xidmət edəcəyik.

**Prezident İlham ƏLİYEV:** Sağ ol.

Balakən Rayon İcra Hakimiyyətinin başçısı **Natiq AĞAYEV:** Möhtərəm cənab Prezident, əmin etmək istəyirəm ki, göstərdiyiniz böyük etimadı səylə, gücümüz, biliyimiz çərçivəsində tam şəkildə icra edəcəyik və işimizi ləyaqətlə, şərəflə davam etdirəcəyik. Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Sağ ol.

Bakı şəhəri Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı **Elxan İBRAHİMOV:** Möhtərəm cənab Prezident, bizə belə yüksək etimad göstərdiyiniz üçün Sizə dərin minnətdarlığımı bildirirəm və söz verirəm ki, bu etimadı doğrultmaq üçün əlimdən gələni edəcəyəm. Təşəkkür edirəm.

**Prezident İlham ƏLİYEV:** Sağ ol.

Qax Rayon İcra Hakimiyyətinin başçısı **Elvin PAŞAYEV:** Cənab Prezident, bizə göstərdiyiniz yüksək etimada görə bir daha təşəkkür edirik. Qarşımıza qoyduğunuz bütün vəzifələri bilik və bacarıqlarımızla yerinə yetirəcəyimizə söz veririk.

Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı **Elşən HƏSƏNLİ:** Möhtərəm cənab Prezident, bizə göstərdiyiniz böyük etimada görə Sizə minnətdarlığımı bildirirəm. Verdiyiniz bu tapşırıqları və göstərdiyiniz böyük etimadı doğruldacağıma bütün varlığımla söz verirəm. Təşəkkür edirəm.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Sizə uğurlar.

# Vizasız gediş-gəliş rejiminin tətbiqindən sonra Çindən ölkəmizə gələn turistlərin sayı artıb

## Prezident İlham Əliyev Çinin "China Datang Corporation Ltd." şirkətinin nümayəndə heyətini qəbul edib





*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı "China Datang Corporation Ltd." şirkətinin böyük nümayəndə heyətinin Azərbaycana səfərinin əhəmiyyətinə toxunaraq bunun əməkdaşlığın perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını vurğuladı. Ölkəmizdə çox sayda Çin şirkətinin fəaliyyət göstərdiyini deyən Prezident İlham Əliyev Azərbaycanla Çin arasında vizasız gediş-gəliş rejiminin tətbiqindən sonra Çindən ölkəmizə gələn turistlərin sayının artdığını qeyd etdi.

Dövlətimizin başçısı bu il Çinə dövlət və işgüzar səfərlərini xatırladı, həmin səfərlərdən sonra strateji tərəfdaşlıq əlaqələrimizin daha da genişləndiyini vurğuladı.

Qəbula görə minnətdarlığını bildirən Lü Cün Bakının inkişafının onlarda xoş təəssürat hissi yaratdığını dedi. Qonaq ölkəmizdə özlərinə qarşı dost münasibəti qeyd etdi.

Söhbət zamanı Azərbaycan ilə "China Datang Corporation Ltd." şirkəti arasında enerji keçidi, "yaşıl enerji" və "yaşıl sənaye" parkı layihələri ilə bağlı fikir mübadiləsi aparıldı.

# Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı kollektivə təqdim olunub



Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı təyin olunan Elxan Oqtay oğlu İbrahimov bu gün Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev tərəfindən rayon ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə kollektivə təqdim olunub.

AZƏRTAC xəbər verir ki, təqdimatda Zeynal Nağdəliyev çıxış edərək dövlətimizin başçısının tapşırıq və tövsiyələrini çatdırıb.

E.İbrahimov ona göstərilən etimada görə minnətdarlıq edib.

# Ölkənin ərazi bütövlüyünün və dövlətin suverenliyinin bərpası Azərbaycanın inkişafında yeni bir tarixi mərhələnin əsasını qoymuşdur

## "Konstitusiya və qanunun aliliyi müasir hüquqi sistemlərdə" mövzusunda təşkil olunan beynəlxalq konfransın iştirakçılarına

Hörmətli konfrans iştirakçıları!

Sizi Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30-cu ildönümünə həsr olunmuş "Konstitusiya və qanunun aliliyi müasir hüquqi sistemlərdə" mövzusunda beynəlxalq konfransda səmimi-qəlbdən salamlayıram.

Düz 30 il əvvəl bu gün - 1995-ci il noyabrın 12-də Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrinin davamı olaraq ümumxalq səsverməsi - referendum yolu ilə suveren Azərbaycan Respublikasının ilk Konstitusiyasını qəbul etmişdir. Müstəqilliyinin yeni qazanıldığı, ərazilərinin hərbi təcavüzə məruz qaldığı, daxili gərginliyin hökm sürdüyü bir şəraitdə bu ali hüquqi sənədin qəbulu ölkə tarixi üçün çox mühüm ictimai-siyasi hadisə olmaqla, Azərbaycanın dövlət quruculuğunda yeni bir səhifənin başlanğıcını qoymuşdur.

Layihəsi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin birbaşa rəhbərlik etdiyi komissiya tərəfindən hazırlanmış, ümumbəşəri dəyərlərə, dünyanın qabaqcıl demokratik dövlətlərinin konstitusion təcrübəsinə əsaslanan Konstitusiya müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun, vətəndaş cəmiyyətinin bərqərar olmasının və demokratik ənənələrin təşəkkülünün qarantı rolunu oynamışdır.

Əsas Qanunda Azərbaycan xalqı dövlət hakimiyyətinin yeganə mənbəyi olaraq bəyan edilmiş, hakimiyyətlərin bölgüsü prinsipinə uyğun qaydada, qanunvericilik, icra və məhkəmə hakimiyyətləri arasında qarşılıqlı balans və səlahiyyət çərçivəsi müəyyən edilmiş, insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi kimi təsbit edilmişdir. Məhkəmə hakimiyyətinin müstəqilliyinin təmini, siyasi plüralizmin dəstəklənməsi, yerli özünüidarəetmənin fundamental əsaslarının formalaşdırılması da Konstitusiyada yer tutan əsas məsələlərdəndir.

Qəbulundan keçən dövr ərzində Konstitusiya ölkə daxilində aparılan çoxşaxəli islahatlar və qloballaşan dünyaya inteqrasiya üçün özül qismində çıxış etmiş, cəmiyyətdə qanunun aliliyinin təmini, azad sahibkarlığın və bazar iqtisadiyyatının inkişafı, xalqın tarixi, milli-mədəni irsinin qorunması istiqamətində əvəzsiz rola malik olduğunu və sağlam təməllər üzərində qurulduğunu sübut etmişdir.

Azərbaycanın sürətli sosial-iqtisadi inkişafı, regionun qabaqcıl dövləti kimi layiqli yer tutması və cəmiyyətdə baş verən ictimai-siyasi proseslər Konstitusiyanın da dövrün çağırışlarına uyğunlaşdırılmasını zəruri etmişdir. Bu məqsədlə müxtəlif illərdə Konstitusiyaya edilən əlavə və dəyişikliklər insan hüquq və azadlıqlarının təminatı mexanizmlərinin gücləndirilməsi, vətəndaş cəmiyyətinin əsaslarının dərinləşdirilməsi və dövlət idarəetməsinin təkmilləşdirilməsi yönündə bir çox əhəmiyyətli məsələləri ehtiva etmişdir.

Bu il biz həm də işğala məruz qalmış torpaqlarımızın azad edilməsi uğrunda apardığımız 44 günlük Vətən müharibəsində qazandığımız tarixi Zəfərin beşinci ildönümünü böyük qürur hissi ilə qeyd edirik. Ölkənin ərazi bütövlüyünün və dövlətin suverenliyinin bərpası Azərbaycanın inkişafında yeni bir tarixi mərhələnin əsasını qoymuş, həmçinin iqtisadi, sosial və mədəni sahələrlə yanaşı, hüquqi sahədə də islahatlar aparılmasını zəruri etmişdir. Bu baxımdan, əminəm ki, konfransda konstitusiya quruculuğu sahəsində tanınmış mütəxəssislərin iştirakı ilə müxtəlif aktual mövzularda aparılacaq müzakirələr, əldə olunacaq nəticələr Konstitusiyanın aliliyinin təmini, insan və vətəndaş hüquq və azadlıqlarının daha səmərəli müdafiəsi istiqamətində öz töhfəsini vermiş olacaqdır.

Bir daha Sizi Bakıda ürəkdən salamlayır və konfransın işinə uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 noyabr 2025-ci il*

## C.R.Cəlilovun Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Ceyhun Ramiz oğlu Cəlilov Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 noyabr 2025-ci il*

## F.V.Nəcəflinin Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Fuad Vahid oğlu Nəcəfli Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 noyabr 2025-ci il*

## E.N.Paşayevin Qax Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Elvin Nazim oğlu Paşayev Qax Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 noyabr 2025-ci il*

## E.N.Paşayevin Göygöl Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Elvin Nazim oğlu Paşayev Göygöl Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 noyabr 2025-ci il*

## E.O.İbrahimovun Bakı şəhəri Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Elxan Oqtay oğlu İbrahimov Bakı şəhəri Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 noyabr 2025-ci il*

## E.O.İbrahimovun Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Elxan Oqtay oğlu İbrahimov Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 noyabr 2025-ci il*

## O.Ç.Mürsəlovun Göyçay Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Orxan Çingiz oğlu Mürsəlov Göyçay Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 noyabr 2025-ci il*

## O.Ç.Mürsəlovun Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Orxan Çingiz oğlu Mürsəlov Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 noyabr 2025-ci il*

## "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 461 (Cild I);2024, № 5 (I kitab), maddə 493; 2025, № 4 (I kitab), maddə 315, № 5, maddə 440, № 8, maddə 744) aşağıdakı dəyişikliklər edilsin:

1. 9-cu maddə üzrə:

1.1. 9.4-cü maddəyə "üstünlüyü" sözündən sonra ", bu Qanunun 9.5-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş hal istisna olmaqla" sözləri əlavə edilsin;

1.2. 9.5-ci maddə üzrə:

1.2.1. birinci cümləyə "arasında" sözündən sonra "notariat qaydasında təsdiq edilmiş" sözləri əlavə edilsin;

1.2.2. aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"İpotekaya dair tələblərin ödənilməsində üstünlük hüququnun dəyişdirilməsi bu Qanunun 14-cü maddəsinə uyğun olaraq əlavə dövlət qeydiyyatına alınmalıdır.".

2. 14-cü maddə üzrə:

2.1. 14.1.4-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 14.1.5-ci maddə əlavə edilsin:

"14.1.5. ipotekaya dair tələblərin ödənilməsində üstünlük hüququ ipoteka saxlayanlar arasında dəyişdirildikdə.";

2.2. 14.2-ci maddədə "və" sözü vergül işarəsi ilə əvəz edilsin və həmin maddəyə"özgəninkiləşdirilməsi" sözündən sonra "və ipotekaya dair tələblərin ödənilməsində üstünlük hüququnun dəyişdirilməsi" sözləri əlavə edilsin.

3. 16.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"16.3. Bu Qanunun 14.1.2-ci və 14.1.5-ci maddələrində nəzərdə tutulmuş hallar istisna olmaqla, ipotekanın əlavə dövlət qeydiyyatına görə rüsumu ipoteka qoyan ödəyir, bu şərtlə ki, ipoteka müqaviləsində ayrı qayda nəzərdə tutulmasın. Bu Qanunun 14.1.5-ci maddəsində nəzərdə tutulmuş halda dövlət rüsumu üstünlük hüququnun keçdiyi ipoteka saxlayan tərəfindən ödənilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 oktyabr 2025-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 dekabr tarixli 1750 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Enerji effektivliyi fondunun yaradılması və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 mart tarixli 13 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 dekabr tarixli 1750 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2318 (Cild I); 2024, № 5 (I kitab), maddə 515) ilə təsdiq edilmiş "Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 2-ci hissə üzrə:

1.1. adından "məqsədi və fəaliyyət" sözləri çıxarılsın;

1.2. 2.1-ci bənd ləğv edilsin;

1.3.2.2.8-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.2.9-cu və 2.2.10-cu yarımbəndlər əlavə edilsin:

"2.2.9.enerji effektivliyi fondunun vəsaitini idarə edir;

2.2.10. bu Nizamnamə ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.".

2. 3-cü hissə üzrə:

2.1. aşağıdakı məzmunda 3.1.34-1-ci yarımbənd əlavə edilsin:

"3.1.34-1.enerji effektivliyi fondunun vəsaiti hesabına "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında"Azərbaycan Respublikası Qanununun 15.1-ci maddəsində nəzərdə tutulmuş stimullaşdırıcı tədbirləri həyata keçirir;

2.2. 3.1.39-cu yarımbəndə "vəsaitlərindən" sözündən sonra ", habelə enerji effektivliyi fondunun vəsaitindən" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 noyabr 2025-ci il*

## V.V.Novruzovun Göygöl Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Vüqar Vahid oğlu Novruzov Göygöl Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 noyabr 2025-ci il*

## V.V.Novruzovun Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Vüqar Vahid oğlu Novruzov Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 noyabr 2025-ci il*

## N.N.Ağayevin Balakən Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Natiq Nuşravan oğlu Ağayev Balakən Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 noyabr 2025-ci il*

## N.N.Ağayevin Göyçay Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Natiq Nuşravan oğlu Ağayev Göyçay Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 noyabr 2025-ci il*

## E.N.Həsənlinin Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Elşən Nazim oğlu Həsənli Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 noyabr 2025-ci il*

## "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 21 dekabr tarixli 556 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 327** **Bakı şəhəri, 3 noyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 21 dekabr tarixli 556 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (II kitab), maddə 2751 (Cild I); 2024, № 3, maddə 341) aşağıdakı dəyişikliklər edilsin:

1. 2-ci hissə ləğv edilsin.

2. 3-cü hissədən "aprelin 20-dən gec olmayaraq," sözləri çıxarılsın və həmin hissədə "Dövlət Statistika Komitəsinə" sözləri "İqtisadiyyat Nazirliyinə" sözləri ilə əvəz edilsin.

3. 4-cü hissə aşağıdakı redaksiyada verilsin:

"4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə tapşırılsın ki, il ərzində fəaliyyəti olmuş, habelə yeni yaradılan və ləğv olunmuş sahibkarlıq subyektlərinin ölçüsünə görə mikro, kiçik, orta və iri sahibkar kateqoriyaları üzrə bölgüsünün bu meyarlara uyğun təşkilini və hesabat ili başa çatdıqdan sonra növbəti il mayın 10-dan gec olmayaraq real vaxt rejimində işçilərin orta siyahı sayı və illik gəlir göstəriciləri göstərilməklə müvafiq məlumatların Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə və "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestri"nə ötürülməsini təmin etsin".

4. Həmin Qərarla təsdiq edilmiş "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları"nın "Qeydlər"inin 4-cü hissəsi aşağıdakı redaksiyada verilsin və aşağıdakı məzmunda 5-ci hissə əlavə edilsin:

"4. Sahibkarların mikro, kiçik, orta və ya iri sahibkar kateqoriyalarına aid edilməsi Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən bu Qərara uyğun olaraq Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim olunan və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən həmin sahibkarlıq subyektləri haqqında reyestrə daxil edilən məlumatlar əsasında başa çatmış hesabat ili üzrə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən müəyyən edilir, meyar göstəriciləri üzrə məlumatlar dəyişdikdə real vaxt rejimində yenilənir və sahibkarlıq subyektlərinə təqdim edilir. Vergitutma məqsədləri üçün vergi qanunvericiliyində nəzərdə tutulan güzəşt və azadolmalar sahibkarlıq subyektlərinin bölgüsü meyarlarının müəyyən edilməsinə əsas verən göstəricilərin aid olduğu başa çatmış hesabat ili ərzində tətbiq edilir.

5. Sahibkarlıq subyektlərinin (yeni yaradılan və ləğv olunmuş sahibkarlıq subyektləri istisna olmaqla) hesabat ilində meyar göstəriciləri dəyişmədikdə, həmin sahibkarlıq subyektlərinin əvvəlki il üzrə müəyyən edilmiş meyarlar üzrə bölgüsü qüvvədə qalır.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## “Gömrük orqanlarında xidmət haqqında” Əsasnamənin təsdiq edilməsi barədə”, “Prokurorluq orqanlarında qulluq keçmə haqqında”, “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə”, “Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında” Əsasnamənin təsdiq edilməsi barədə”, “Ədliyyə orqanlarında qulluq keçmə haqqında”, “Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə” və “Fövqəladə hallar orqanlarında xidmət keçmə haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 80-VIIQD nömrəli Qanununun qəbul edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 329** **Bakı şəhəri, 3 noyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Fövqəladə hallar orqanlarında xidmət keçmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 80-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 dekabr tarixli 252 nömrəli Fərmanının 7-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 31 oktyabr tarixli 168 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 651 (Cild I); 2025, № 5, maddə 507) ilə təsdiq edilmiş 12 nömrəli əlavə - "Prokurorluq işçilərinə iş stajına görə əlavə haqqın verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.2.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.2.3. hakim vəzifəsində işlədikləri müddət;";

1.2. aşağıdakı məzmunda 2.2.3-1-ci və 2.2.3-2-ci yarımbəndlər əlavə edilsin:

"2.2.3-1. digər dövlət orqanlarında dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) müddəti;

2.2.3-2. dövlət qulluqçusunun dövlət qulluğu vəzifəsində qulluq stajı;";

1.3. 2.2.7-ci yarımbənd ləğv edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 22 iyul tarixli 98 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 589 (Cild I); 2024, № 3, maddə 326) ilə təsdiq edilmiş "Daxili işlər orqanlarının əməkdaşlarına fasiləsiz xidmət illərinə görə haqqın ödənilməsi üçün xidmət illərinin hesablanması Qaydası"nın 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. altıncı abzas aşağıdakı redaksiyada verilsin:

"hakim vəzifəsində işlədikləri müddət;";

2.2. yeddinci, on üçüncü abzaslar müvafiq olaraq səkkizinci, on dördüncü abzaslar hesab edilsin və aşağıdakı məzmunda yeddinci abzas əlavə edilsin:

"digər dövlət orqanlarında dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) müddəti;";

2.3. on ikinci abzasa "əlaqədar" sözündən sonra "və ya attestasiyanın nəticələrinə görə" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 9 yanvar tarixli 4 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 1, maddə 37 (Cild I) ilə təsdiq edilmiş "Gömrük orqanlarının vəzifəli şəxslərinin fasiləsiz xidmət illərinin və bununla əlaqədar onlara verilən əlavələrin hesablanması Qaydası"nın 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. altıncı abzas aşağıdakı redaksiyada verilsin:

"hakim vəzifəsində işlədikləri müddət;";

3.2. yeddinci, on üçüncü abzaslar müvafiq olaraq səkkizinci, on dördüncü abzaslar hesab edilsin və aşağıdakı məzmunda yeddinci abzas əlavə edilsin:

"digər dövlət orqanlarında dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) müddəti;".

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 29 may tarixli 123 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 5, maddə 446 (Cild I); 2025, № 5, maddə 507) ilə təsdiq edilmiş "Ədliyyə orqanları işçilərinin qulluq illərinin hesablanması və bununla əlaqədar onlara əlavə haqqın verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1.10-cu yarımbənddə "işlədiyi müddət" sözləri "qulluq stajı" sözləri ilə əvəz edilsin;

4.2. 2.2.2-ci yarımbənd ləğv edilsin;

4.3. 2.2.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.2.3. digər dövlət orqanlarında dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) müddəti;";

4.4. 2.2.3-1-ci yarımbənddə "işlədikləri müddət" sözləri "qulluq stajı" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 4 may tarixli 67 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 5, maddə 441 (Cild I); 2024, № 5 (II kitab), maddə 612; 2025, № 5, maddə 507) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Fövqəladə hallar orqanları əməkdaşlarının xidmət illərinin və bununla əlaqədar onlara verilən fasiləsiz xidmət illərinə görə haqqın hesablanması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.1.10-cu yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.1.10. hakim vəzifəsində işlədikləri müddət;";

5.2. aşağıdakı məzmunda 2.1.10-1-ci yarımbənd əlavə edilsin:

"2.1.10-1. digər dövlət orqanlarında dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) müddəti;".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Naxçıvan şəhərinin inzibati ərazisində dövlət mülkiyyətində olan torpaq sahəsinin bərpaolunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 330** **Bakı şəhəri, 4 noyabr 2025-ci il**

"Elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 339-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyul tarixli 1387 nömrəli Fərmanının 2.4-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Qoyuluş gücü ilkin mərhələdə 50 MVt olan, sonrakı mərhələdə isə ixrac imkanlarından asılı olaraq genişləndiriləcək günəş-elektrik stansiyasının tikintisi məqsədilə Naxçıvan şəhərinin inzibati ərazisində dövlət mülkiyyətində olan 688,0 hektar torpaq sahəsi bərpaolunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilsin (torpaq sahəsinin yerləşdiyi yeri, ölçüsünü və sərhədlərini göstərən yerquruluşu xəritəsi əlavə olunur).

2. Azərbaycan Respublikasının Energetika Nazirliyi bu Qərarın 1-ci hissəsi ilə müəyyən edilmiş bərpaolunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi ilə bağlı tədbirləri Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 2 avqust tarixli 2285 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Bərpaolunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi Qaydası"nın tələblərinə uyğun olaraq həyata keçirsin.

3. Bu Qərar qüvvəyə mindiyi tarixdən elektrik enerjisinin istehsalı məqsədilə bərpaolunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilmiş 688,0 hektar torpaq sahəsində günəş-elektrik stansiyasının tikintisinə icazə "Elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikası Qanununun 6.7-ci maddəsində nəzərdə tutulmuş müddətdə Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq alınır.

4. Naxçıvan Şəhər İcra Hakimiyyəti bu Qərarın 3-cü hissəsinə uyğun olaraq, tikintiyə icazə verildikdə həmin gündən, müəyyən edilmiş müddətdə tikintiyə icazə verilmədikdə isə müddət başa çatdığı gündən üç gün müddətində bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

5. Bu Qərarın icrasına nəzarət Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Aqrar və ekologiya şöbəsinə həvalə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 oktyabr tarixli 386 nömrəli Qərarı ilə təsdiq edilmiş “Aviasiya təhlükəsizliyinin təmini sahəsində yoxlamaların həyata keçirilməsi Qaydası”nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 331** **Bakı şəhəri, 5 noyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Mülki aviasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 21 fevral tarixli 341 nömrəli Fərmanının 5.5-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 oktyabr tarixli 386 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 10, maddə 1466 (Cild I) ilə təsdiq edilmiş "Aviasiya təhlükəsizliyinin təmini sahəsində yoxlamaların həyata keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.2-ci bənddə "Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında" sözləri "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin.

2. 5.46-cı bəndin birinci cümləsi çıxarılsın və həmin bəndin ikinci cümləsinə "orqanlarını" sözündən sonra "(qurumlarını)" sözü əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## “Ezamiyyə xərclərinin normaları haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 25 yanvar tarixli 14 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 332** **Bakı şəhəri, 5 noyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 25 yanvar tarixli 14 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 1, maddə 44 (Cild I); 2024, № 4, maddə 453, № 9, maddə 1085; 2025, № 8, maddə 806) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Ezamiyyə xərclərinin 1 günlük normasına əlavələr və həmin əlavələrin tətbiq olunduğu rəhbər işçilərin kateqoriyası"nda "Qeydlər"in 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. Üçüncü cümləyə "tədbirləri" sözündən əvvəl "və COP30" sözləri, "Rio-de-Janeyro," sözündən sonra "Belem," sözü əlavə edilsin.

2. Aşağıdakı məzmunda dördüncü cümlə əlavə edilsin:

"COP29 və COP30 tədbirləri çərçivəsində 2025-ci ildə Belem şəhərinə ezam olunan heyət üzvlərinin təqdim edilmiş sənədlərə əsasən faktiki mehmanxana xərclərinin 1 günlük məbləği ezamiyyə xərclərinin 1 günlük normasının (qeyd olunan əlavə nəzərə alınmaqla) 60 faizindən çox olduğu halda həmin fərq mehmanxana günləri üçün ezamiyyə xərclərinə əlavə xərc olaraq ödənilir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## “Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 25 aprel tarixli 138 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 334** **Bakı şəhəri, 7 noyabr 2025-ci il**

"Azərbaycan Respublikasının Müdafiə Nazirliyi haqqında Əsasnamənin, Nazirliyin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin ümumi say tərkibinin və Nazirlikdə ali hərbi rütbəli vəzifələrin siyahısının təsdiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 18 dekabr tarixli 54 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 iyun tarixli 417 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 25 aprel tarixli 138 nömrəli Qərarı(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 4 (II kitab), maddə 425) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri"ndə dəyişikliklər təsdiq edilsin *(əlavə olunur)*.

2. Bu Qərarın əlavəsinin 20-ci və 43-cü hissələri,1.1-ci, 1.2-ci, 1.5-ci, 13.3-cü, 15.1-ci, 15.2-ci, 15.3-cü, 15.6-cı, 15.8-ci, 15.9-cu, 15.10-cu, 42.1-ci, 47.1-ci, 48.2-ci, 49.2-ci, 54.1-ci, 65.2-ci və 65.4-cü bəndləri 2025-ci il avqustun 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Paris Sazişi çərçivəsində istilik effekti yaradan qazların emissiyalarının azaldılması üzrə milli hədəfin və bu hədəfi ehtiva edən “Yenilənmiş, 3-cü Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr” sənədinin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 335** **Bakı şəhəri, 12 noyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası ilə bağlı Tərəflərin 21-ci Konfransında qəbul olunmuş Paris Sazişinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 28 oktyabr tarixli 362-VQ nömrəli Qanununa uyğun olaraq, İqlim Dəyişmələri üzrə Dövlət Komissiyasının vəsatətlərini nəzərə alaraq, Paris Sazişindən irəli gələn öhdəliklərin yerinə yetirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. 1990-cı baza ili ilə müqayisədə 2035-ci ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 40 faiz azaldılmasını nəzərdə tutan milli hədəf və bu hədəfi ehtiva edən "Yenilənmiş, 3-cü Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr" (NDC 3.0) sənədi təsdiq edilsin *(əlavə olunur)*.

2. Bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş milli hədəfə nail olunmasının maliyyə resurslarının artırılması - əlavə beynəlxalq maliyyə dəstəyi (güzəştli kreditlər, özəl sektor investisiyası və s.), texnologiyanın mövcudluğu, texnologiyanın ötürülməsi, texnologiyanın inkişaf səviyyəsi, potensialın artırılması dəstəyinin əldə olunması, meşələrin və digər ekosistemlərin absorbsiyası şərtilə mümkünlüyü nəzərə alınsın.

3. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi NDC 3.0 sənədini BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyinə təqdim etsin.

4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş milli hədəfə nail olunması məqsədilə energetika, neft-qaz, nəqliyyat, tullantıların idarə olunması, kənd təsərrüfatı, sənaye sektorları, həmçinin yaşayış və qeyri-yaşayış sahələri üzrə dekarbonizasiya tədbirlərinin dövlət proqramları, strategiyalar, milli fəaliyyət planları, konsepsiyalar və digər sənədlərdə inteqrasiyasını aidiyyəti qurumlarla əlaqələndirməklə təmin etsin.

5. Azərbaycan Respublikasının Energetika Nazirliyi enerji sektorunda, o cümlədən neft və qaz sənayesində istixana qazları emissiyalarının azaldılması istiqamətində tədbirlərin həyata keçirilməsini təmin etsin, bu sahədə bərpa olunan enerji mənbələrinin payının artırılması, enerji səmərəliliyinin yüksəldilməsi və karbon tutumlu texnologiyaların mərhələli şəkildə azaldılması ilə bağlı tədbirləri həyata keçirsin.

6. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi NDC 3.0 sənədi ilə müəyyən edilmiş milli hədəfə nail olunması məqsədilə nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsi üçün müvafiq tədbirlər görsün.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan və Banqladeş arasında əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub

**Noyabrın 12-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Banqladeş Xalq Respublikasının ölkəmizdəki qeyri-rezident səfiri Amanul Haqqla görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı Azərbaycan ilə Banqladeş arasında ikitərəfli və çoxtərəfli münasibətlərin mövcud vəziyyəti və inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Tərəflər ölkələrimiz arasında dostluq və qarşılıqlı hörmətə əsaslanan münasibətlərin inkişaf etdiyini, beynəlxalq təşkilatlar, xüsusilə də BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, D-8 çərçivəsində qarşılıqlı dəstəyin məmnunluq doğurduğunu vurğulayıblar. Xüsusilə iqtisadi, ticarət, energetika, təhsil və mədəniyyət sahələrində əməkdaşlığın inkişafı üçün geniş potensialın mövcud olduğu bildirilib.

Liderlər səviyyəsində təmasların, Banqladeşin keçid hökumətinin rəhbəri, baş müşavir Məhəmməd Yunusun COP29-da iştirakı məmnunluqla xatırlanıb. Növbəti ildə ölkəmizdə keçiriləcək İslam Əməkdaşlıq Təşkilatının və Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Zirvə görüşləri, eləcə də BMT-nin Ümumdünya Şəhərsalma Forumu çərçivəsində geniş əməkdaşlıq perspektivlərinin olduğu vurğulanıb.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər, o cümlədən yüksəksəviyyəli təmasların artırılması, beynəlxalq platformalarda əməkdaşlığın dərinləşdirilməsi barədə fikir mübadiləsi aparıblar.

# Azərbaycan ilə Bosniya və Herseqovina arasında hərbi əməkdaşlıq məsələlərinə dair müzakirə aparılıb

**Bosniya və Herseqovinada rəsmi səfərdə olan müdafiə naziri general-polkovnik Zakir Həsənov bu ölkənin müdafiə naziri Zukan Helez ilə görüşüb.**



Müdafiə Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı hər iki ölkə arasında hərbi əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib. Qarşılıqlı səfərlərin və bu cür görüşlərin hərbi əlaqələrin genişlənməsinə, səmərəli təcrübə mübadiləsinin aparılmasına töhfə verdiyi vurğulanıb. Tərəflər həmçinin hərbi sahədə maraq doğuran bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparıblar.

Görüşün yekununda iki ölkənin Müdafiə nazirlikləri arasında hərbi əməkdaşlıq planı imzalanıb, nazirlərin iştirakı ilə mətbuat konfransı keçirilib. Rəsmi səfər proqramına uyğun olaraq general-polkovnik Z.Həsənov hərbi sənaye zavoduna və digər hərbi təyinatlı obyektə baş çəkib, orada yaradılan şərait və istehsalat avadanlıqları ilə tanış olub.

# XTQ mənsublarının xüsusi tibb hazırlığı kursu açılıb

**Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) şəxsi heyətilə xüsusi tibb hazırlığı üzrə keçirilən kursun açılış mərasimi olub.**

Müdafiə Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, beynəlxalq mütəxəssislərin iştirakı ilə keçirilən tədbirin açılış mərasimində Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canından keçən şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilib.

XTQ-nin komandanı general-mayor Ələkbər Cahangirov Müdafiə Nazirliyinin rəhbərliyi adından tədbir iştirakçılarını 12 Noyabr - Konstitusiya Günü münasibətilə təbrik edib, onlara tədrisdə uğurlar arzulayıb.

Çıxış edənlər qeyd ediblər ki, kursun keçirilməsində əsas məqsəd döyüş meydanında yaralılara ilkin tibbi yardımın göstərilməsi, eləcə də tibbi təxliyə və döyüş şəraitində tibb xidmətinin təşkili üzrə XTQ mənsublarının bacarıqlarının təkmilləşdirilməsindən ibarətdir. Açılış mərasimindən sonra şəxsi heyətin məişət şəraitinə, tədris yerlərinə, eləcə də tədris prosesində istifadə olunacaq müasir tibbi avadanlıqlara baxış keçirilib.

# Milli Məclis komitələrinin birgə iclasında 2026-cı ilin dövlət büdcəsinin layihəsinə baxılıb



**Noyabrın 12-də Milli Məclisin Gənclər və idman, İctimai birliklər və dini qurumlar, Mədəniyyət komitələrinin birgə iclasında "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda müzakirəyə çıxarılıb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan Milli Məclis Sədrinin müavini Rafael Hüseynov ölkəmizin növbəti il üçün dövlət büdcəsində əvvəlki illərlə müqayisədə hər bir sahədə artımın olduğunu diqqətə çatdırıb. O, mədəniyyət, bədən tərbiyəsi, gənclər siyasəti, ictimai birliklər, dini qurumlar və digər əlaqədar sahələr üzrə növbəti ilin dövlət büdcəsində müvafiq maliyyə təminatının nəzərdə tutulduğunu və bu sahələrin daim dövlətin diqqət mərkəzində olduğunu bildirib, 2026-cı ilin dövlət büdcəsinin ölkənin yüksək templərlə inkişafını təmin edəcəyini, dövlətin, xalqın mənafeyinə uyğun olduğunu vurğulayıb.

Sonra maliyyə nazirinin müavini Himalay Məmişov "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsi barədə məlumatı təqdim edib. Qeyd olunub ki, 2026-cı ilin dövlət büdcəsinin xərcləri 41,7 milyard manat həcmində proqnozlaşdırılır. Bu, cari illə müqayisədə 296 milyon manat və ya 0,7 faiz, ötən illə müqayisədə isə 4 milyard manat və ya 10,6 faiz çoxdur.

Nazir müavini ölkəmizdə mədəniyyət və incəsənətin inkişafının, mədəni irsin təbliğinin və milli-mənəvi dəyərlərin qorunmasının, habelə yaradıcı gəncliyin formalaşdırılmasının Azərbaycan Prezidentinin məqsədyönlü siyasətinin əsas istiqamətlərindən olduğunu bildirib. Diqqətə çatdırılıb ki, 2026-cı ildə mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər tədbirlər üçün 632 milyon manat vəsait nəzərdə tutulur. Bu, keçən illə müqayisədə 135 milyon manat və 27 faiz, cari illə müqayisədə isə 10 milyon manat və ya 1,6 faiz çoxdur. Son 5 ildə bu istiqamətə ayrılan vəsait 227 milyon manat və ya 56 faiz artıb. Qeyd olunub ki, növbəti il üçün ayrılan vəsaitin 241 milyon manatı mədəniyyət və incəsənət sahəsində fəaliyyətin, 78,7 milyon manatı televiziya, radio və nəşriyyat tədbirlərinin, 50 milyon manatı bədən tərbiyəsi və gənclər siyasəti tədbirlərinin, 22,8 milyon manatı yaradıcı ittifaq, cəmiyyət və dini tədbirlərin maliyyələşdirilməsinə sərf olunacaq.

Sonra Himalay Məmişov dövlət büdcəsi xərclərinin maliyyə təminatı ilə bağlı göstəricilər barədə məlumat verib. O bildirib ki, növbəti il üçün dövlət büdcəsi xərclərinin 92,6 faizi və ya 38,6 milyard manatı büdcənin gəlirləri, 7,4 faizi və ya 3,1 milyard manatı isə onun kəsirinin maliyyələşdirilməsi üçün cəlb ediləcək vəsaitlər hesabına təmin olunacaq. Dövlət büdcəsinin gəlirləri cari illə müqayisədə 253 milyon manat və ya 0,7 faiz, ötən ilin icra göstəricisi ilə müqayisədə isə 1,4 milyard manat və ya 3,9 faiz çox olacaq. Gəlirlərin 22,2 milyard manatı və ya 57,5 faizi qeyri-neft sektoru üzrə daxilolmalar hesabına reallaşacaq. Növbəti il neft-qaz sektorundan məcmu gəlirlər 16,4 milyard manat proqnozlaşdırılır. 2026-cı il üçün dövlət büdcəsi kəsirinin yuxarı həddi 3,1 milyard olmaqla, ümumi daxili məhsulun 2,3 faizinə bərabərdir.

Nazir müavini 2026-cı il üçün dövlət və icmal büdcələri layihələrinin dövlət başçısı tərəfindən müəyyən edilmiş prioritetlərin maliyyələşdirilməsi, dövlətimizin hərtərəfli inkişafı üçün maliyyə təminatının formalaşdırdığını söyləyib.

Sonra iclasda Hesablama Palatasının sədr müavini Nəsir Sadıqov çıxış edərək Palatanın rəyini təqdim edib. O bildirib ki, rəy 2026-cı il üçün dövlət büdcəsinə dair qanun layihəsinin mövcud qanunvericilik aktlarına uyğunluğu, nəzərdə tutulmuş dövlət büdcəsinin gəlirləri və xərcləri, büdcə kəsirinin proqnoz göstəricilərinin düzgünlüyü və tamlığı, həmçinin bu göstəricilərin əsas makroiqtisadi parametrlərə və ölkənin strateji sənədlərinə uyğunluğu barədə ölkənin ali audit orqanının mövqeyini ifadə edir. Qeyd olunub ki, dövlət maliyyəsinin idarə edilməsinin təkmilləşdirilməsi, beynəlxalq təcrübəyə uyğunluğunun təmin olunması dövlət büdcəsinin gəlir və xərclərinin uçotunun düzgün aparılması istiqamətində Hesablama Palatasının əvvəlki rəylərində göstərilmiş əksər məsələlər büdcə zərfində nəzərə alınıb. Bildirilib ki, 2026-cı ilin dövlət büdcəsinin layihəsi "Büdcə sismemi haqqında" qanunun müəyyən etdiyi tələblərə uyğun hazırlanıb. Hesablama Palatası tərəfindən qanun layihəsinə daxil edilmiş göstəricilər maddələr üzrə təhlil edilib, bəzi maddələr üzrə təkmilləşdirmələrin aparılması məqsədəmüvafiq hesab olunub. Qeyd edilib ki, növbəti ilin baza ssenarisində olan proqnozlarda ölkə iqtisadiyyatında əlverişli makroiqtisadi mühitin müşahidə ediləcəyi, o cümlədən iqtisadiyyatda real artımın, məqbul inflyasiyanın, cari əməliyyatlar balansında profisitin və sabit məzənnənin müşahidə olunacağı gözlənilir.

Nəsir Sadıqov deyib ki, dövlət büdcəsinin layihəsi ilə birlikdə təqim olunmuş izahata əsasən, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın icrası 2026-cı ilin dövlət büdcəsi layihəsində diqqət mərkəzində saxlanılıb. Büdcə zərfində "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in və "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın icrası üçün maliyyə təminatının yaradılması və ortamüddətli büdcə dövrü üçün öz aktuallığını qoruduğu qeyd olunur. Büdcə sənədləşməsində strategiya üzrə nəzərdə tutulmuş tədbirlərin maliyyə təminatının 620 milyon manat olacağı, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" üzrə isə 3,5 milyard manat proqnozlaşdırıldığı göstərilir. Növbəti ildə strategiyanın tədbirlərinə cəmi 4,1 milyard manat nəzərdə tutulub.

Daha sonra iqtisadiyyat nazirinin müavini Səməd Bəşirli çıxış edərək büdcə layihəsinin formalaşdığı iqtisadi şərait barədə məlumat verib. O vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü iqtisadi islahatlar milli iqtisadiyyatın davamlı inkişafını təmin edib, rəqabət qabiliyyətini artırıb və qeyri-neft sektorunun payını genişləndirib. Ölkəmiz tərəfindən uğurla icra olunan qlobal enerji və nəqliyyat layihələri Azərbaycanın regionda strateji mövqeyə malik aparıcı ölkə statusunu daha da möhkəmləndirib.

Səməd Bəşirli bildirib ki, müzakirəyə təqdim olunan 2026-cı ilin dövlət büdcəsi layihəsi qarşıya qoyulan strateji vəzifələri əks etdirir və ölkənin sosial-iqtisadi imkanlarının reallaşdırılmasına xidmət edir. Büdcə zərfi vətəndaşların rifahının yüksəldilməsini, mədəniyyət, idman və ictimai institutların fəaliyyətinin dəstəklənməsini, həmçinin iqtisadi artımın davamlılığını təmin edən tədbirlərin maliyyələşdirilməsini nəzərdə tutur.

İclasda parlamentin komitə sədrləri çıxış edərək 2026-cı ilin dövlət büdcəsinin əsas göstəricilərini müsbət qiymətləndiriblər, bir sıra məsələlərlə bağlı fikirlərini bölüşüblər, qeyd və təkliflərini irəli sürüblər.

Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlu çıxışında mədəniyyət sahəsi üzrə büdcə göstəricilərini və artımları müsbət qiymətləndirib. O, mədəni-tarixi abidələrin qorunması və bərpası istiqamətində görülən işlərin vacibliyini, həmçinin milli kinematoqrafiyaya dövlət dəstəyinin əhəmiyyətini vurğulayıb.

İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa bildirib ki, 2026-cı ilin dövlət büdcəsində mədəniyyət, informasiya, ictimai birliklər, dini qurumlar və siyasi partiyalarla bağlı nəzərdə tutulan vəsaitlərdə önəmli artımlar nəzərdə tutulub. O bu vəsaitlərin məqsədyönlü şəkildə, şəffaf formada istifadəsi ilə bağlı fikirlərini bölüşüb.

Komitə sədri qeyd edib ki, bu il dövlət büdcəsindən siyasi partiyalara 6 milyon manat, dini icmaların fəaliyyəti və dini tədbirlərlə bağlı xərclərə, ümumilikdə, 239,3 milyon manat, diasporla iş və xaricdə təşkilatlanma məsələlərinə 7,1 milyon manat, qeyri-hökumət təşkilatlarına və vətəndaş cəmiyyəti məsələlərinə isə 10,4 milyon manat vəsait ayrılması nəzərdə tutulur. O bildirib ki, 2026-cı ilin büdcəsi təkcə mədəniyyət və informasiya sektorunun deyil, həm də vətəndaş cəmiyyətinin, siyasi plüralizmin və dini-mənəvi sabitliyin möhkəmlənməsinə xidmət edir.

Milli Məclisin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov bildirib ki, gənclər və idman sahəsi üzrə növbəti ildə 50 milyon manat vəsait nəzərdə tutulub. O qeyd edib ki, növbəti ilin büdcə zərfində ilk dəfə olaraq Gənclər və İdman Nazirliyi tabeliyində Milli İdman Tibb və Reabilitasiya İnstitutu publik hüquqi şəxs kimi maliyyə dəstəyi alacaq. Komitə sədri, ümumilikdə, gənclər və idman sahəsinin funksional fəaliyyətinin təmin olunması üçün kifayət qədər maliyyə resursu nəzərdə tutulduğunu vurğulayıb.

Müzakirələrdə Mədəniyyət komitəsi sədrinin müavini Günay Əfəndiyeva, İctimai birliklər və dini qurumlar komitəsi sədrinin müavini Sahib Alıyev, deputatlar Elnarə Akimova, Ceyhun Məmmədov və Vüqar İskəndərov çıxış ediblər, öz fikirlərini və bəzi qeydlərini bildiriblər.

Mədəniyyət nazirinin müavini Fərid Cəfərov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov, gənclər və idman nazirinin müavini İndira Hacıyeva və maliyyə nazirinin müavini Himalay Məmişov çıxışlarda qaldırılan məsələlərə aydınlıq gətiriblər, sualları cavablandırıblar.

Bildirilib ki, 2026-cı ilin dövlət büdcəsi layihəsində mədəniyyət, gənclər və idman sahələrinin inkişafına, yaradıcılıq kollektivlərinin, teatrların, muzeylərin və digər mədəniyyət müəssisələrinin fəaliyyətinin dəstəklənməsinə, o cümlədən milli kino sənayesinin maliyyələşməsinə xüsusi diqqət yetirilib. Bu məqsədlə ayrılacaq vəsaitlər həm mövcud layihələrin davamına, həm də yeni təşəbbüslərin reallaşdırılmasına yönəldiləcək.

Müzakirələrin sonunda "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*

# Müasir dövlətçiliyimizin hüquqi əsaslarını təşkil edən fundamental sənəd

## Dövlət Statistika Komitəsində Azərbaycan Konstitusiyasının qəbul olunmasının 30 illiyinə həsr edilən təntənəli tədbir keçirilib





**Dövlət Statistika Komitəsində Azərbaycan Respublikasının Konstitusiyasının qəbul olunmasının 30 illiyinə həsr edilən təntənəli tədbir keçirilib.**

Tədbirdən öncə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin komitənin foyesində ucaldılan büstü ziyarət olunub, önünə gül dəstələri düzülüb.

Tədbirin açılışında müasir Azərbaycan dövlətinin qurucusu və memarı Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin, həmçinin bir gün öncə Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus hərbi yük təyyarəsinin qəzaya uğraması nəticəsində şəhid olmuş hərbçilərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Əvvəlcə, Azərbaycan Respublikası Konstitusiyasının qəbul olunmasının 30 illiyinə həsr olunmuş sənədli film nümayiş etdirilib.

Çıxış edən iştirakçılar bildiriblər ki, müstəqil Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinə hüquqi baza yaratmış və onun inkişafına güclü təkan vermişdir. Azərbaycanın müasir tarixində dövlətçilik ənənələrinin bərpası və möhkəmləndirilməsi məhz Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Onun cəsarətlə həyata keçirdiyi əsaslı islahatlar respublikamızı inkişaf yoluna çıxarmaqla yanaşı, qanunun aliliyini təmin edən, hüquqi, dünyəvi dövlət quruculuğuna yol açan yeni milli Konstitusiyanın hazırlanmasına və qəbuluna şərait yaratmışdır. 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası müasir dövlətçiliyimizin hüquqi əsaslarını təşkil edən, ölkənin müstəqilliyini hüquqi cəhətdən təsdiqləyən fundamental sənəd kimi tarixə düşmüşdür. Ulu Öndər Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanmış bu ali sənədin hər bir maddəsi onun Azərbaycanın gələcəyi ilə bağlı strateji baxışlarının təcəssümüdür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində Konstitusiyada təsbit olunan bütün müddəaların təmin olunduğu diqqətə çatdırılıb. Vurğulanıb ki, İlham Əliyevin 2003-cü ildə ali vəzifəyə seçildiyi dövrdən başlayaraq qarşısına qoyduğu strateji hədəf Ali Qanunumuzun müddəalarının bütün ölkə ərazisində təmininə yönəlmiş, Vətən müharibəsi və ardınca antiterror əməliyyatı ilə Azərbaycan bütün ərazisində suverenliyini tam bərpa etmişdir.

Sonda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 20 oktyabr 2025-ci il tarixli sərəncamı ilə statistika işinin təşkilində səmərəli fəaliyyətlərinə görə təltif edilmiş komitə əməkdaşlarına orden və medallar təqdim olunmuşdur. Təltif olunan əməkdaşlar dövlət başçısına öz minnətdarlıqlarını bildirmişlər.

*"Azərbaycan"*

# Fövqəladə Hallar Nazirliyində "Konstitusiya və Suverenlik İli" çərçivəsində tədbir təşkil edilib





**Noyabrın 12-də Fövqəladə Hallar Nazirliyində "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda tədbir təşkil olunub.**

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, əvvəlcə Dövlət himni səsləndirilib, noyabrın 11-də Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus hərbi yük təyyarəsinin Gürcüstan ərazisində qəzaya uğraması nəticəsində həlak olmuş hərbçilərin xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən fövqəladə hallar naziri Kəmaləddin Heydərov Prezident İlham Əliyevin 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması ilə bağlı sərəncamının hüquqi dövlətçilik və suverenlik dəyərlərinin möhkəmləndirilməsi baxımından əhəmiyyətindən danışıb, ərazi bütövlüyümüzün, dövlət suverenliyinin və ölkənin bütün ərazilərində Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsinin bərpasını tarixdə qazanılan ən parlaq Zəfər kimi səciyyələndirib.

Qeyd olunub ki, Konstitusiyada ali hakimiyyətin yeganə mənbəyinin məhz xalqa məxsusluğunun bəyan edilməsi, dolğun şərh olunan insan hüquq və azadlıqlarının təminatlı müdafiəsinin icra, qanunvericilik və məhkəmə orqanlarının ümdə vəzifəsi olaraq müəyyən edilməsi bu gün artıq dünya birliyində özünəlayiq yeri olan müstəqil respublikamızın ümumbəşəri demokratik imicini daha da yüksəldib.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsində əldə olunmuş parlaq Zəfəri, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpa olunmasını, nəticədə Dövlət bayrağının ölkəmizin bütün ərazisində dalğalanmasını Azərbaycan tarixinin təkrarsız hadisəsi hesab etdiyini bildirən nazir Qarabağda və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa və quruculuq işlərinin həyata keçirilməsi, müasir infrastrukturun yaradılması və keçmiş məcburi köçkünlərin ata-baba torpaqlarına qayıtmasından danışıb.

Hər bir hüquqi dövlətdə dövlətin siyasi, hüquqi və ictimai həyatının təməl sütununun Konstitusiya olduğunu qeyd edən Konstitusiya Məhkəməsinin Aparatının İnsan hüquqları və analitik şöbəsinin müdiri Anar Cəfərov çıxışında demokratik dəyərlərə və prinsiplərə uyğun hazırlanan və qəbul edilən Konstitusiyamızın tarixi əhəmiyyətindən bəhs edərək bildirib ki, Vətən müharibəsində düşmən üzərində qazanılan böyük Qələbə sayəsində ərazi bütövlüyümüz və suverenliyiniz tam bərpa edilərək Konstitusiyanın hüquqi qüvvəsi bütün torpaqlarımızda bərqərar olub.

Sonra "Konstitusiya və Suverenlik İli"nə həsr olunan videoçarx nümayiş etdirilib.

# Azərbaycan və Botsvana arasında diplomatik münasibətlərin qurulması ilə bağlı Birgə Kommünike imzalanıb

**Nyu Yorkda Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatı yanında daimi nümayəndəsi Tofiq Musayev və Botsvana Respublikasının BMT yanında daimi nümayəndəsi Çarlz Masole tərəfindən iki dövlət arasında diplomatik münasibətlərin qurulması ilə bağlı Birgə Kommünike imzalanıb.**



AZƏRTAC-ın məlumatına görə, Birgə Kommünikedə Azərbaycan ilə Botsvana ölkələri və xalqları arasında qarşılıqlı anlaşmanı və əməkdaşlığı təşviq etmək niyyəti ifadə olunur.

Sənəddə həmçinin vurğulanır ki, hər iki dövlətin hökumətləri diplomatik əlaqələrin qurulmasında BMT Nizamnaməsini və beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsiplərini, xüsusən də dövlətlərin suverenliyini, ərazi bütövlüyünü və onların daxili işlərinə qarışmamaq prinsipini əsas tuturlar.

Daimi nümayəndələr həmçinin Birgə Kommünikenin BMT sənədi kimi yayılması üçün qurumun baş katibinə məktub ünvanlayıblar.



# Konstitusiya və Suverenlik İli 2025



## Bakıda "Konstitusiya və qanunun aliliyi müasir hüquq sistemlərində" mövzusunda beynəlxalq konfrans keçirilib

**Noyabrın 12-də "Gülüstan" sarayında Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının dəstəyi və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin təşkilatçılığı ilə Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30-cu ildönümünə həsr olunan "Konstitusiya və qanunun aliliyi müasir hüquq sistemlərində" mövzusunda beynəlxalq konfrans keçirilib.**

Konfransdan öncə iştirakçılar Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət ediblər. Daha sonra iştirakçılar Zəfər parkında olub, buradakı abidə önünə gül dəstələri qoyublar.

AZƏRTAC xəbər verir ki, konfransın açılışında Konstitusiyanın 30 illik yubileyinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Daha sonra Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına müraciətini səsləndirib.

Fərhad Abdullayev açılış nitqi ilə çıxış edərək konfrans iştirakçılarının adından dövlətimizin başçısı İlham Əliyevə dərin məzmunlu müraciətinə görə minnətdarlığını bildirib. Sədr xarici ölkələrdən Bakıya gələn qonaqları, eləcə də dövlət orqanlarının, ictimai təşkilatların rəsmilərini salamlayaraq tədbir iştirakçılarını 12 Noyabr - Azərbaycan Respublikasının Konstitusiyası Günü, xüsusilə dövlətimizin Əsas Qanununun 30 illik yubileyi münasibətilə təbrik edib.

Fərhad Abdullayev bildirib ki, Prezident İlham Əliyevin 2024-cü il 28 dekabr tarixli sərəncamı ilə 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunması müstəqil dövlətçiliyimizin əsas sütunu olan Konstitusiyamızın ali dəyərini bir daha vurğulayır. Diqqətə çatdırılıb ki, dövlətin qanunvericilik sisteminin bünövrəsini təşkil edən, ən yüksək və birbaşa hüquqi qüvvəyə malik olan Konstitusiya ölkədə ictimai-siyasi sabitliyin, milli birliyin təminatçısı kimi çıxış edir.

Konstitusiya Məhkəməsinin sədri qeyd edib ki, Azərbaycanın dövlətçilik tarixində müstəsna yeri olan Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısında ən mühüm xidmətlərindən biri ölkənin Əsas Qanununun qəbulu ilə bağlıdır. Məhz Ulu Öndərin rəhbərliyi ilə 1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitusiyasının layihəsi hazırlanaraq noyabrın 12-də keçirilən ümumxalq səsverməsi - referendum yolu ilə qəbul olunub. Bu tarixi hadisə ilə respublikamızın demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun mühüm mərhələsi başlayıb.

Vurğulanıb ki, geridə qalan üç onillik ərzində Azərbaycan Respublikasının Konstitusiyası dövlət hakimiyyəti sistemini müəyyənləşdirən, siyasi strategiyaları və normativ əsasları tənzimləyən, həmçinin vətəndaşların hüquq və azadlıqlarını təsbit edən əsas hüquqi sənədə çevrilib. Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş prinsiplər keçmişlə gələcəyin harmonik ifadəsidir. "Yubileyini qeyd etdiyimiz Konstitusiya hər birimizin sərvətidir. Zaman ötür, nəsillər dəyişir, Konstitusiya isə alidir, dayanıqlıdır. Zamanla Əsas Qanunda müəyyən dəyişikliklər edilir, amma Konstitusiya ilə təsbit edilmiş əsas dəyərlər, prinsiplər, Konstitusiyanın fəlsəfəsi dəyişmir. Bizim vəzifəmiz bu dəyərlərdən ruhlanaraq qanunvericiliyi yeni çağırışlara cavab verə biləcək şəkildə inkişaf etdirməkdir", - deyə Fərhad Abdullayev bildirib.

Məlumat verilib ki, 1995-ci il Konstitusiyası müstəqilliyimizin hüquqi əsasını qoyubsa, 2020-ci ildə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun qazandığı Qələbə nəticəsində Konstitusiyamızın ali qüvvəsi bütün ərazimizdə bərqərar edilib. Bu tarixi Zəfərlə Konstitusiyanın 11-ci maddəsində təsbit olunmuş "Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir" prinsipi reallığa çevrilib, beynəlxalq hüquq normaları və təməl prinsiplərin aliliyi təmin edilib. Eyni zamanda Konstitusiyanın 30 illiyi və böyük Qələbəmizin 5 illiyi təkcə bir tarix deyil, həm də məsuliyyət çağırışıdır. Qarşımızda duran vəzifə Əsas Qanunun dəyərlərini qorumaq, həmin dəyərləri gələcək nəsillərə ötürməkdir.

Sədr qeyd edib ki, bu il "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995-2025)" Azərbaycan Respublikasının yubiley medalı təsis edilib. Bu medal dövlətimizin konstitusiya dəyərlərinə sadiqliyinin və müstəqil Azərbaycanın inkişaf yolunda qazandığı nailiyyətlərin rəmzi ifadəsidir. "Konstitusiya Məhkəməsi də bu istiqamətdə üzərinə düşən öhdəlikləri layiqincə yerinə yetirəcək, qanunvericiliyin müasir sosial-siyasi reallıq baxımından Konstitusiyanın hərfi mənasına və ruhuna uyğun şəkildə inkişafına töhfəsini verəcək. Əminəm ki, tədbir zamanı bizi olduqca maraqlı, faydalı çıxış və müzakirələr gözləyir", - deyə Konstitusiya Məhkəməsinin sədri diqqətə çatdırıb.





Azərbaycanın dövlət müstəqilliyinin bərpasının, demokratik dövlət kimi formalaşmasının və inkişafının görkəmli ictimai-siyasi və dövlət xadimi, Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti və tarixi xidmətləri ilə bağlı olduğunu deyən Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva bildirib: "Məhz Ulu Öndərin rəhbərliyi ilə hazırlanmış və ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyasında bəyan edilən niyyətlərdən biri də qanunun aliliyini təmin edən hüquqi və dünyəvi dövlətin qurulmasıdır. Qanunun aliliyi təkcə cəmiyyətin ədalətli və dayanıqlı inkişafının təməl daşı deyil, həm də insan hüquq və azadlıqlarının ən mühüm təminatçısıdır. Bu baxımdan Konstitusiyamızda insan hüquq və azadlıqlarının təmin edilməsinin dövlətin ali məqsədi kimi təsbit olunması insan hüquqlarına verilən ən yüksək dəyərin təzahürüdür. Təsadüfi deyil ki, ölkəmizin Ali Qanununun ən böyük fəsli məhz insan hüquq və azadlıqlarına həsr olunub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasət, habelə həyata keçirilən ardıcıl islahatlar və qəbul edilən mühüm qərarlar müstəqil dövlətçilik tariximizin yeni mərhələsinin əsasını qoydu. Konstitusion dəyişikliklər və normativ hüquqi bazanın təkmilləşdirilməsi qanunun aliliyinin təmin olunmasına, demokratik idarəetmə və hüquqi dövlət prinsiplərinin inkişafına əlverişli şərait yaratdı. Xüsusən də insan hüquqları sahəsində davam etdirilən islahatlar bu sahəyə verilən yüksək dəyəri, beynəlxalq öhdəliklərə sadiqliyi nümayiş etdirməklə yanaşı, beynəlxalq tərəfdaşlıq üçün etibarlı və dayanıqlı mühit formalaşdırdı. Təsadüfi deyil ki, ölkəmiz son illər insan hüquqları sahəsində irimiqyaslı və nüfuzlu beynəlxalq tədbirlərə evsahibliyi etməkdədir. Dövlət başçısının təşəbbüsü ilə həyata keçirilən həmin hüquqi islahatlar nəticəsində insan hüquq və azadlıqlarının təmin edilməsi üzrə dövlətin ali məqsədinin həyata keçirilməsində xüsusi rolu olan ombudsmanın mandatının beynəlxalq hüquq normalarına tam uyğunlaşdırılması ilə bağlı qanunvericiliyə əhəmiyyətli dəyişikliklər edildi, yeni fəaliyyət istiqamətləri müəyyən olundu".

Asiya Ombudsman Assosiasiyasının sədri, Pakistan federal ombudsmanı Ejaz Ahmad Qureşi Pakistanın Azərbaycanın müstəqilliyini 1991-ci ildə tanıyan ilk dövlətlərdən biri olduğunu xatırladıb: "1992-ci ildə isə iki ölkə arasında diplomatik münasibətlər qurulub. Bu gün Azərbaycan və Pakistan arasındakı əlaqələr qardaşlıq və qarşılıqlı hörmət prinsiplərinə əsaslanır. Bu münasibətlərin inkişafında Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın göstərdiyi humanitar dəstək, diqqət və qayğı xüsusi qeyd olunmalıdır".

Pakistan federal ombudsmanı qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış Azərbaycan Respublikasının Konstitusiyası ölkənin suverenliyini, bərabərliyini və hüquqi dövlət prinsiplərini özündə ehtiva edir. Bu ali sənəd insan hüquq və azadlıqlarını təmin edir, qanunun aliliyini əsas tutaraq cəmiyyətin demokratik inkişafına istiqamət verir: "İnsan hüquqlarının müdafiəsi baxımından insan hüquqları müvəkkili (ombudsman) institutlarının yaradılması da böyük əhəmiyyət kəsb edir. Bu institutlar vətəndaşların hüquq və azadlıqlarının qorunmasında mühüm rol oynayır".

Ejaz Ahmad Qureşi çıxışının sonunda Vətən müharibəsində qazanılmış Zəfərin beşinci ildönümü və Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30-cu ildönümü münasibətilə Azərbaycan xalqını təbrik edib.

Avropa Hüquq İnstitutunun sədri Teresa Rodriguez de las Heras Ballell gələcək üçün hüquqi bazanın hazırlanması zamanı hibrid cəmiyyətlərin gələcəyinin də nəzərə alınmasının vacibliyini vurğulayıb. Onun sözlərinə görə, insan-süni intellekt-hibrid cəmiyyətləri hazırlanmalıdır: "Biz öz hüquqi bazamızı bu çağırışlara necə hazır edə bilərik? Burada cəmiyyətlərin və iqtisadiyyatların hibridləşməsi prosesindən söhbət gedir. Konstitusiya təbəqəsində həm dövlət qulluqçuları, həm də özəl sektor tərəfindən süni intellektin daha geniş istifadəsinə yol açmalıyıq. Birincisi, biz tamamilə insan hüquqları, vətəndaş azadlıqlarının təmin edilməsini davam etdirməliyik. Lakin süni intellekt bunlara əməl etsə də, bu kifayət etmir. Ola bilər ki, müəyyən qadağa və məhdudiyyətlər olsun və həm dövlət, həm də özəl sektor tərəfindən süni intellektin istifadəsində tətbiq olunsun. Onlar süni intellektdən istifadə etdikdə müəyyən qadağa və məhdudlaşmalara yol açmalıdırlar. Bunu biz Avropa İttifaqında süni intellekt haqqında aktın qəbul olunması zamanı etdik. Süni intellektlə bağlı qanuna yenidən baxmalı, hansı model hüquqları yaratmalı olduğumuz barədə fikirləşməliyik. Süni intellekt yeni risklər yaradır. Ona görə də bu sahəyə öhdəliklərlə bağlı olan qaydaların da tətbiqi vacibdir. Birlikdə işləməli, yeni çağırışları nəzərə alaraq qanunvericilik bazasının yenilənməsi haqqında düşünməli və gələcəyin hibrid cəmiyyətlərinə hazır olmalıyıq. Gələcək cəmiyyətlərdə həm süni intellekt, həm də insanlar birlikdə yaşayacaqlar. Ona görə də elə etməliyik ki, hibrid cəmiyyətlər demokratiya, qanunun aliliyi və insan hüquqlarına əsaslansın. Əminəm ki, birlikdə buna nail olacağıq".

Prezident Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri Gündüz Kərimov isə çıxışında Konstitusiyanın hüquqi dövlətdə və müasir cəmiyyətdəki mühüm rolunu vurğulayıb: "Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan Azərbaycan Respublikasının Konstitusiyası olduqca çətin və məsuliyyətli bir dövrdə qəbul edilib. Həmin illərdə dövlətimiz öz müstəqilliyi və suverenliyi uğrunda mübarizə aparırdı. Bütün bunlara baxmayaraq, Konstitusiyamız milli dəyərləri, prinsipləri və dövlətçiliyin əsas standartlarını özündə ehtiva edir. Bu ali sənəd həmçinin ümumbəşəri dəyərlərə sadiqliyi ifadə edir və dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq istəyini əks etdirir. Faktiki olaraq, Qarabağ torpaqları işğal altında olarkən Konstitusiyanın bəzi müddəalarının tam şəkildə həyata keçirilməsi müəyyən məhdudiyyətlərlə üzləşmişdi. Lakin Prezident İlham Əliyevin rəhbərliyi və Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində bu müddəalar tam bərpa olunub. Azərbaycan bayrağı işğaldan azad edilmiş torpaqlarımızda ucaldılıb, dövlət sərhədlərimiz bərpa olunub. Bu, Konstitusiyanın müddəalarının real şəkildə həyata keçirilməsi və ona yeni nəfəs verilməsi deməkdir", - deyə G.Kərimov diqqətə çatdırıb.

O əlavə edib ki, doğma yurdlarını tərk etməyə məcbur olmuş həmvətənlərimiz artıq öz torpaqlarına qayıdırlar. "Bu həm Azərbaycan xalqının ləyaqətinin qorunması, həm də Konstitusiyanın əsas prinsiplərinin gerçək həyatda təsdiqi deməkdir. Məhz şanlı Zəfər nəticəsində Konstitusiyamızın bütün müddəaları tam şəkildə bərpa olunub".

Tədbir Türkiyənin ədliyyə nazirinin müşaviri Muharrem Kılıçın moderatorluğu ilə "Konstitusion dəyərlər və insan hüquqları: Qlobal trendlər və çağırışlar" mövzusunda panel iclası ilə davam edib.

İclasda Gürcüstan Konstitusiya Məhkəməsinin sədri Revaz Nadaraia, Ankara Universitetinin professoru Cavid Abdullazadə, Türkiyənin Konstitusiya Məhkəməsinin hakimi Yıldız Seferinoğlu, Özbəkistanın Ali Məclisinin İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Feruza Eşmatova, Qazaxıstanın İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Artur Lastayev çıxış ediblər.

Daha sonra tədbir müzakirələrlə davam edib.

Prezident Administrasiyasının Qanunvericiliyin inkişafı sektorunun müdiri Araz Poladovun moderatorluğu ilə keçən "Konstitusion prinsiplər: Qanunun aliliyinə aparan yol" mövzusunda ikinci panel iclasda Qırğızıstan Konstitusiya Məhkəməsinin sədri Emil Oskonbayev, Avropa Uşaq Ombudsmanları Şəbəkəsinin (ENOC) sədri, Moldovanın Uşaq hüquqları üzrə xalq vəkili Vasile Koroy, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin icraçı direktoru Samir Mahmudov, Bəhreyn Krallığının müstəqil ombudsmanı Ghada Hameed Habib, Gürcüstan xalq müdafiəçisi (ombudsman) Levan İoseliani məruzə ilə çıxış ediblər.

İslam Əməkdaşlıq Təşkilatı Ombudsman Assosiasiyasının baş katibi, Pakistan Vergi Ombudsmanının hüquq müşaviri Almas Ali Jovindahın moderatorluğu ilə keçən "Qlobal hüquqi transformasiyalar dövründə konstitusionalizm və dövlət suverenliyi" mövzusunda üçüncü panel iclasda Azərbaycan Konstitusiya Məhkəməsinin hakimi Fərhad Tutayuk, Türkiyə Prezident Administrasiyasının Hüquq Siyasəti Şurasının üzvü Vedat Ali Tektaş, Qırğızıstanın ombudsmanı Jamilia Jamanbaeva, Taylandın Konstitusiya Məhkəməsinin hakimi Noppadon Teppitak, Milli Məclis Aparatının rəhbəri, HEQT Mərkəzinin Müşahidə Şurasının üzvü Fərid Hacıyev məruzələrlə çıxış ediblər.

Çıxışçılar, o cümlədən qonaqlar tədbir iştirakçılarına Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30-cu yubileyi münasibətilə təbriklərini çatdırıblar.

Konfransın sonunda Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev yekun nitq ilə çıxış edib.

## *Qazaxıstan ombudsmanı:* "Konstruktiv dialoq və təcrübə mübadiləsi bizə praktiki həllər tapmağa kömək edəcək"

*"Müasir dünyada Konstitusiya dövlətin siyasi sabitliyinin və yetkinliyinin təməli, qanunun aliliyi və institusional inkişaf lehinə şüurlu bir seçimdir. Tarix bir çox idarəetmə modeli ilə tanışdır, lakin Konstitusiyanın yalnız hüquq və prinsipləri bəyan etmədiyi, həm də onların real qorunmasını təmin edən canlı mexanizm kimi fəaliyyət göstərdiyi məlumdur. Bugünkü dünyada Konstitusiya dəyərlərinin güclü, çevik və yeni çağırışlara cavabdeh qalması xüsusilə vacibdir".*

AZƏRTAC xəbər verir ki, bu fikri "Konstitusiya və qanunun aliliyi müasir hüquq sistemlərində" mövzusunda keçirilən beynəlxalq konfrans çərçivəsində təşkil olunan "Konstitusion dəyərlər və insan hüquqları: Qlobal trendlər və çağırışlar" adlı paneldə Qazaxıstan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Artur Lastayev deyib.

"Biz ortaq problemləri və kollektiv vəzifəni bölüşürük. Məqsədimiz dünya nə qədər dəyişsə də, qanunun və insanlığın fundamental dəyərlərini qorumaqdır. Əminəm ki, bu cür formalarda konstruktiv




dialoq və təcrübə mübadiləsi bizə etimad yaratmağa, hüquq institutlarını gücləndirməyə və praktiki həllər tapmağa kömək edəcək", - deyə A.Lastayev bildirib.

Qazaxıstan Konstitusiyasının 1995-ci il avqustun 30-da ümumxalq referendumu yolu ilə qəbul olunduğunu diqqətə çatdıran A.Lastayev o vaxtdan indiyədək qanuna bir neçə dəfə dəyişiklik edildiyini diqqətə çatdırıb. Onun sözlərinə görə, ən əhəmiyyətli islahatlar üç il əvvəl ümumxalq referendumu ilə Konstitusiyaya edilən dəyişikliklərdir.

O, hazırda Qazaxıstanda hüquqi islahatların davam etdiyini və təkpalatalı parlamentə keçid haqqında müzakirələrin aparıldığını bildirib.

## *Emil OSKONBAYEV:* "Əminəm ki, Azərbaycan Konstitusiyası dövlətlə vətəndaşlar arasında canlı etimad müqaviləsi olaraq qalacaq"

*"Bu gün 1995-ci ildə qəbul olunan, dövlətin strateji istiqamətini təyin edən, gələcək inkişafının fundamental prinsiplərini təsbit edən, dövlət hakimiyyəti arxitekturasını müəyyənləşdirən Əsas Qanun - Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyini qeyd edirik. Bu tarix sadəcə təqvim mərhələsi deyil, zamanın, saatların və tarixi çətinliklərin sınağından keçmiş hüquqi quruluşun yetkinliyinin kulminasiya nöqtəsidir. 30 il ərzində konstitusiya normaları idarəetmə və hüquq-mühafizə orqanlarının gündəlik təcrübəsinə çevrilib və dövlət qərarlarının proqnozlaşdırılmasını, legitimliyini təmin edib. Yubiley tədbirinin Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin himayəsi altında keçirilməsi simvolikdir. Konstitusiyanın mətninin və ruhunun qoruyucusu olaraq məhkəmə konstitusiya quruluşunun bütövlüyünü təmin edir, güc balansını qoruyur və fərdin özbaşına hərəkətlərdən qorunmasını ən yüksək səviyyədə təmin edir. Lakin bu gün Konstitusiyanın, onun dəyərlərinin və birləşdirici qüvvəsinin günüdür. Əminəm ki, Azərbaycan Konstitusiyası onun suverenliyinin simvolu, dövlətlə vətəndaşları arasında canlı etimad müqaviləsi olaraq qalacaq, ölkəni davamlı və bərabər inkişafa doğru istiqamətləndirəcək".*

AZƏRTAC xəbər verir ki, bu barədə "Konstitusiya və qanunun aliliyi müasir hüquq sistemlərində" mövzusunda keçirilən beynəlxalq konfrans çərçivəsində təşkil olunan "Konstitusion prinsiplər: Qanunun aliliyinə aparan yol" adlı paneldə Qırğız Respublikası Konstitusiya Məhkəməsinin sədri Emil Oskonbayev deyib.

O bildirib ki, Konstitusiya vətəndaşların çağırışının səsinə çevrilməlidir: "Təbii ki, Konstitusiyanın aliliyi yalnız onun mətninə hərfi mənada riayət etməyi tələb etməklə təmin oluna bilməz. Biz hər bir qərarımızın tam hüquqi müəyyənliyə və sabitliyə nail olmasını təmin etməyə, hüquqi anlaşma və icra standartları müəyyənləşdirməklə yeni Konstitusiya mədəniyyətini inkişaf etdirməyə çalışırıq. Hüquqi şüurun dəyişdirilməsi, əlbəttə ki, zaman və birgə səy məsələsidir. Konstitusiya Məhkəməsinin qərarlarının icrası seçim məsələsi deyil, Konstitusiyaya sadiqlik məsələsidir. Konstitusiya Məhkəməsi qərarlarının tətbiqi digər orqanlar tərəfindən müzakirə və nəzərdən keçirilməyə məruz qalmır, siyasi məqsədlərə uyğunluqdan asılı deyil. O, hamı üçün eyni dərəcədə məcburidir".

## *ENOC-un sədri:* "Uşaq hüquqları ilə bağlı qanunlar əlçatan, başadüşülən və proqnozlaşdırılan olmalıdır"

*"Avropa Uşaq Ombudsmanları Şəbəkəsi (ENOC) 1997-ci ildə yaradılıb. 34 dövlətdən 44 ENOC üzvüdür ki, onlardan 20-dən çoxu Avropa İttifaqı dövlətlərinin təşkilatlarıdır. Ümumilikdə isə şəbəkənin üzvləri uşaq ombudsmanları, ombudsmanlar, insan hüquqlarını müdafiə edən qurumların nümayəndələridir. ENOC öz fəaliyyətini BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasına əsasən qurur. Azərbaycan Ombudsman təsisatının ENOC-un tam üzvü seçilməsi Azərbaycanda uşaq hüquqlarının müdafiəsinə də öz töhfəsini verəcək".*

AZƏRTAC xəbər verir ki, bu barədə "Konstitusiya və qanunun aliliyi müasir hüquq sistemlərində" keçirilən beynəlxalq konfransı çərçivəsində təşkil olunan "Konstitusion prinsiplər: Qanunun aliliyinə aparan yol" adlı paneldə ENOC-un sədri, Moldovanın Uşaq hüquqları üzrə xalq vəkili Vasile Koroy deyib.

O bildirib ki, uşaq hüquqları ilə bağlı qanunlar əlçatan, başadüşülən və proqnozlaşdırılan olmalıdır ki, həmin qanunlardan uşaqlar bəhrələnə bilsinlər. "Qanunun aliliyi gənc vətəndaşlar olmadan mövcud ola bilməz. Uşaqlar da qərar qəbul etməyə təsir göstərə bilməli, onların yaşı, yetkinliyi nəzərə alınmalıdır. Bir çox ölkədə uşaq hüquqları iştirakçılıqda da nəzərə alınıb. Biz uşaq hüquqlarının müdafiəsi üçün öz işimizi davam etdirir, bu sahədə islahatların yerinə yetirilməsinə nəzarət edirik", - deyə V.Koroy bildirib.




# Konstitusiya və Suverenlik İli 2025



# Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi bütün ərazilərimizdə bərqərar edilib

**Azərbaycanın dövlətçilik tarixində olduqca mühüm əhəmiyyətə malik iki əsas hadisənin - İkinci Qarabağ müharibəsində tarixi Zəfərin beşinci və müstəqil dövlətimizin ilk Konstitusiyasının qəbul edilməsinin 30-cu ildönümü tamam oldu. Bunu nəzərə alan Azərbaycan Prezidenti İlham Əliyev 28 dekabr 2024-cü il tarixli sərəncamı ilə 2025-ci ili Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan etmişdir.**

Sərəncam müasir dövlətçilik tariximizdə əldə edilən parlaq Zəfərin hüquqi-siyasi təsdiqidir. Bu sənədin imzalanması dövlətçilik ənənələrinin gücləndirilməsi, hüquqi dövlət quruculuğunun daha da təkmilləşdirilməsi, həmçinin konstitusiya dəyərlərinin qorunması, inkişaf etdirilməsi və təbliği istiqamətində atılan vacib addımlardandır. Eyni zamanda sərəncam tarixi yaddaşla gələcəyə baxışın vəhdətini əks etdirməklə milli birliyin möhkəmləndirilməsi və gələcək prioritetlərin müəyyən edilməsi üçün əlverişli şərait yaradır.

1991-ci ildə Azərbaycan öz müstəqilliyini bərpa etsə də, həmin illərdə ölkəmiz ciddi siyasi böhran, iqtisadi tənəzzül və çətinliklərlə üzləşdi. O dövrdə ölkəmizdə cərəyan edən mürəkkəb və ziddiyyətli proseslər, həmçinin ölkəmizin müstəqilliyi üçün təhdidlərin meydana çıxması, vətəndaş qarşıdurmasının güclənməsi onu göstərdi ki, ölkəni yaranmış ağır vəziyyətdən yalnız Ümummilli Lider Heydər Əliyev kimi prinsipial, güclü və iradəli lider xilas edə bilər.

Məhz Ulu Öndər Heydər Əliyevin o böhranlı günlərdə xalqın təkidli tələbi ilə hakimiyyət rəhbərliyinə qayıdışından sonra bu mürəkkəb vəziyyətin qarşısını almaq mümkün oldu. Azərbaycanı bir dövlət kimi məhv olmaq təhlükəsindən xilas edən dahi şəxsiyyət Heydər Əliyev tərəfindən müstəqilliyin qorunması istiqamətində həlledici addımlar atıldı, ölkədə mövcud olan xaosun, özbaşınalığın qarşısı alındı, cəmiyyətdə ictimai-siyasi sabitlik təmin edildi, müasir dövlət quruculuğu üçün etibarlı zəmin formalaşdırıldı.

Məlumdur ki, 1991-ci il oktyabrın 18-də qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında ölkənin yeni Konstitusiyasının hazırlanması nəzərdə tutulsa da, ölkədə mövcud olan ictimai-siyasi qeyri-sabitlik, hakimiyyət uğrunda mübarizə, həmçinin vahid siyasi iradənin olmaması Əsas Qanunun hazırlanaraq qəbul edilməsini mümkünsüz etmişdi. Bu baxımdan xüsusilə vurğulanmalıdır ki, Əsas Qanunun qəbulu ideyasının irəli sürülməsində, eyni zamanda onun layihəsinin hazırlanmasında Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Görkəmli dövlət xadimi Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra yeni Konstitusiyanın hazırlanaraq qəbul edilməsi məsələsi ön plana çəkilmişdir. 1995-ci il mayın 2-də Milli Məclisin qərarı, Ümummilli Lider Heydər Əliyevin sədrliyi ilə yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın tərkibi təsdiq edildi.

Ümummilli Lider Heydər Əliyev yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın fəaliyyəti zamanı Əsas Qanunun layihəsinə dair öz dəyərli tövsiyələrini vermiş, Konstitusiyanın hər bir müddəasını şəxsən nəzərdən keçirmiş, layihənin açıq müzakirələrini təşkil etməklə onun ən təkmil şəkildə qəbul edilməsini təmin etmək üçün böyük əmək sərf etmişdir. Yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın 1995-ci il oktyabrın 3-də keçirilən iclasında komissiyanın sədri Heydər Əliyev qeyd etmişdir: "Bizim yeni Konstitusiyamız, şübhəsiz ki, birinci növbədə Azərbaycan Respublikasının dövlət müstəqilliyini, bu müstəqilliyin əbədi olduğunu və dövlət müstəqilliyini qoruyub saxlamaq, yaşatmaq üçün bütün prinsipləri əks etdirməlidir. Yeni Konstitusiyamız demokratik prinsipləri özündə əks etdirməlidir. Yəni dünya demokratiyasının əldə etdiyi bütün nailiyyətlərdən, demokratiya sahəsində inkişaf etmiş dövlətlərin konstitusiya təcrübəsindən istifadə etməli və Azərbaycan Respublikasının özünəməxsus tarixi, milli ənənələrini əks etdirən prinsipləri özündə cəmləşdirməlidir. Bir sözlə, biz elan etmişik və mən bir daha bəyan edirəm ki, Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı, dünyəvi dövlət qururuq".

Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası preambula, 5 bölmə, 12 fəsil, 158 maddə və keçid müddəalarından ibarət olmaqla 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi - referendum yolu ilə qəbul edilmiş, 1995-ci il noyabrın 27-də isə qüvvəyə minmişdir. Bu tarixi hadisə ölkəmizdə yeni konstitusionalizm nəzəriyyəsi və təcrübəsinin formalaşmasının əsasını qoydu.

O da qeyd edilməlidir ki, hər il noyabrın 12-də qeyd edilən Konstitusiya Günü hüquqi dövlətçilik ənənələrinin təbliği, hüquq mədəniyyətinin gücləndirilməsi və milli müstəqillik ideyalarının möhkəmləndirilməsi baxımından vacib əhəmiyyət kəsb edir. Çünki Əsas Qanunun qəbulu müasir Azərbaycanın müstəqillik tarixində ən mühüm hadisələrdən biri olmaqla yanaşı, dövlətçiliyin möhkəmləndirilməsi baxımından çox vacib ictimai-siyasi hadisə oldu. Konstitusiya dövlətin və xalqın milli maraqlarını, həmçinin ölkəmizin özünəməxsus xüsusiyyətlərini özündə əks etdirməklə, dövrün çağırışlarına və tələblərinə tam cavab verən mükəmməl sənəd olaraq qəbul edildi. Gərgin əməyin məhsulu olan Konstitusiya dolğunluğu ilə seçilərək, ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi və müstəqil dövlətçiliyimizin inkişafı üçün hərtərəfli zəmin yaratdı.

Konstitusiya ən mühüm, ali hüquqi sənəddir və ölkənin siyasi, iqtisadi və hüquqi inkişafını istiqamətləndirən əsas qaydaları müəyyən edir. Konstitusiyanın qəbul edilməsi ölkəmizin inkişafının prinsipcə yeni mərhələyə qədəm qoymasının göstəricisi olmaqla, gələcək nailiyyətlərin hüquqi bazası qismində çıxış etdi. Bu mühüm məqam ilə bağlı dövlət başçısı İlham Əliyev tərəfindən imzalanan 2024-cü il 28 dekabr tarixli sərəncamda qeyd edilmişdir: "Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır".

Konstitusiya, suverenlik və dövlətçilik bir-birini tamamlayan anlayışlar olmaqla dövlət quruculuğunun ayrılmaz dəyərləridir. Konstitusiya dövlətin hüquqi təməlini formalaşdırır, suverenlik və dövlətçilik amili isə dövlətin siyasi-hüquqi və siyasi-ideoloji əsaslarını, həmçinin milli kimliyini və birliyini ifadə edir. Suverenlik və dövlətçilik müstəqil dövlətin mövcudluğunu və tərəqqisini təmin edən mühüm prinsiplərdir. Konstitusiyada öz əksini tapan prinsiplər, müddəalar dövlət və xalq birliyinin iradəsinin təcəssümüdür. Dövlətin qanunvericilik sisteminin bünövrəsini, əsasını təşkil edən, Azərbaycanda ən yüksək və birbaşa hüquqi qüvvəyə malik olan Konstitusiya eyni zamanda ölkədə ictimai-siyasi sabitliyin, milli birliyin təminatçısıdır. Bu Ali Qanun xalq hakimiyyəti, dövlətin əsasları, əsas insan və vətəndaş hüquqları və azadlıqları, vətəndaşların əsas vəzifələri, hakimiyyətlərin bölünməsi, hakimiyyət orqanlarının təşkili, səlahiyyətləri və fəaliyyət qaydalarını və digər bir sıra mühüm müddəaları ehtiva edir.

Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq, hamının layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq olaraq, bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək Konstitusiyamızın preambulasında bəyan olunan ülvi niyyətlərdir. Burada əksini tapan müddəalar ümumilikdə Konstitusiyanın mütərəqqi dəyərlərini, gələcəklə bağlı niyyət və hədəflərini göstərir.

Konstitusiyada insan və vətəndaş hüquqlarının və azadlıqlarının, ölkə vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin olunmasının Azərbaycan dövlətinin ali məqsədi kimi müəyyənləşdirilməsi, dövlətin hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verməsi ilə bağlı müddəalar xüsusi əhəmiyyət kəsb edir.

Konstitusiyada dövlət və cəmiyyətin əsas inkişaf istiqamətlərini müəyyən edən prinsiplər geniş şəkildə təsbit olunur. Əsas Qanun xalq hakimiyyətini bəyan və respublikamızda dövlət hakimiyyətinin yeganə mənbəyi kimi Azərbaycan xalqını elan edir, sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etməyi Azərbaycan xalqının suveren hüququ kimi təsbit edir. Həmçinin Konstitusiya Azərbaycan dövlətini demokratik, hüquqi, dünyəvi, unitar respublika elan edir. Əsas Qanunda həmçinin Azərbaycanda iqtisadiyyatın inkişafının müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət etdiyi, dövlətin bazar münasibətləri əsasında sosialyönümlü iqtisadiyyatın inkişafına şərait yaratması, azad sahibkarlığa təminat verilməsi və digər bir sıra mühüm müddəalar öz əksini tapmışdır.

Məlum olduğu kimi, konstitusiyaların əsas hüquqi əlamətlərindən biri onların stabilliyidir. Konstitusiyanın stabilliyi ölkədə qanunçuluq rejiminin sabitliyinin, dövlət hakimiyyətinin təşkili və həyata keçirilməsi sahəsində şəxs, dövlət və cəmiyyət arasındakı münasibətlərin əsas şərtlərindəndir. Bununla belə konstitusiyaların qəbulu zamanı onların tənzimetmə predmetini təşkil edən münasibətlər və hüquqi, siyasi, sosial və iqtisadi vəziyyət dəyişir, cəmiyyət elmin və texnologiyaların inkişafı baxımından keyfiyyətcə yeni dövrə qədəm qoyur. Bu baxımdan konstitusiyaların zərurət yarandığı təqdirdə təkmilləşdirilməsi, onlara müəyyən əlavə və dəyişikliklərin edilməsi labüd olur.

Ötən illər ərzində dəyişilən sosial-siyasi reallıq səbəbindən 2002-ci il avqustun 24-də, 2009-cu il martın 18-də və 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumlar nəticəsində Əsas Qanunun mətninə müvafiq əlavələr və dəyişikliklər edilmişdir. Konstitusiyaya edilmiş bu mühüm əlavə və dəyişikliklər hüquqi dövlət prinsip və dəyərlərinin bərqərar olunmasının, insan hüquq və azadlıqlarının müdafiəsi və təminatına ən yüksək səviyyədə göstərilən diqqətin təzahürü olmaqla, ölkədə insan hüquq və azadlıqlarının müdafiəsinin gücləndirilməsi, bütövlükdə dövlət idarəetmə sisteminin daha da təkmilləşdirilməsi və müasirləşdirilməsi məqsədlərinə xidmət etmişdir.

1995-ci ildə qəbul edilmiş Konstitusiyanın mütərəqqi xüsusiyyətlərindən biri ali konstitusiya ədalət mühakiməsi orqanı - Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin yaradılması olmuşdur. Ulu Öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü ilə yaradılan və artıq 27 ildir fəaliyyət göstərən Konstitusiya Məhkəməsinin əsas məqsədləri Azərbaycan Respublikası Konstitusiyasının aliliyini təmin etmək, hər kəsin əsas hüquq və azadlıqlarını müdafiə etməkdir.

Fəaliyyət göstərdiyi müddət ərzində Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən ümumilikdə 604 qərar və 182 qərardad qəbul edilib. Bu qərar və qərardadlarda formalaşdırılan hüquqi mövqelər dövlətin Əsas Qanununun aliliyinin təmin olunmasına, həmçinin insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinə xidmət edir.

Konstitusiya ədalət mühakiməsi orqanları qarşısında da duran mühüm vəzifələrdən biri bu sahədəki mütərəqqi milli təcrübə ilə yanaşı, müasir inkişaf meyillərinin davamlı olaraq izlənilməsi, təhlili və fəaliyyətdə tətbiq edilməsidir. Öz növbəsində Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi yarandığı gündən xarici ölkələrin Konstitusiya məhkəmələri və bu sahədə fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələrinin qurulmasına və bu əlaqələrin inkişaf etdirilməsinə xüsusi diqqət yetirir. Vurğulanmalıdır ki, həyata keçirilən beynəlxalq əməkdaşlıq informasiya mübadiləsinin genişləndirilməsi, hüquqi bilik və təcrübənin paylaşılması baxımından əhəmiyyətli rol oynayır.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı hərbi-siyasi Zəfər müasir tariximizin ən mühüm hadisəsidir. 44 gün davam edən və 30 ilə yaxın işğal altında olan torpaqlarımızın azad edilməsi ilə nəticələnən İkinci Qarabağ müharibəsində Azərbaycan Silahlı Qüvvələri dövlətimizin ərazi bütövlüyü uğrunda cəsarət və şərəflə mübarizə apararaq tarixi Qələbə qazandı, xalqımızı Zəfərə qovuşduran Vətən müharibəsi tariximizə qızıl hərflərlə yazıldı. 44 günlük Vətən müharibəsində qazanılan Zəfərin davamı olaraq, 2023-cü ilin sentyabrında 24 saatdan az müddətdə davam edən lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edildi. Bununla da Azərbaycan Respublikası Konstitusiyasının hüquqi qüvvəsi işğaldan azad olunan bütün ərazilərimizdə bərqərar olundu. 2023-cü il sentyabrın 20-də ölkəmizin bütün ərazisində qanunun aliliyinin təmin olunduğu və dövlət suverenliyinin bərpa edildiyi nəzərə alınaraq, Azərbaycan Prezidenti cənab İlham Əliyevin 19 sentyabr 2024-cü il tarixli sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edildi.

2023-cü il oktyabrın 15-də dövlət başçısı İlham Əliyevin Xankəndi şəhərində Azərbaycanın Dövlət Bayrağını ucaltması müasir dövlətçilik tariximizin dönüş nöqtəsi oldu. Bu addım yalnız siyasi-ideoloji mahiyyət kəsb etməməklə, eyni zamanda suverenliyin bütün ölkə ərazisində bərpa olunduğunu hüquqi-siyasi müstəvidə təsdiq etdi. Uzun illər ərzində işğal altında olan ərazilərimizdə Konstitusiyada təsbit edilən hüquqların tətbiqi mümkün deyildi. 2023-cü ildə ərazi bütövlüyünün və suverenliyin tam bərpa edilməsi nəticəsində respublikamızın ərazisi ilə bağlı bir sıra mühüm Konstitusiya müddəalarının yerinə yetirilməsi tam təmin olundu.

Hazırda Cənubi Qafqaz regionu yeni tarixi dövr mərhələsindədir. Cənubi Qafqaz sülh və əməkdaşlıq regionuna çevrilir. Cari ilin avqustunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ABŞ-yə rəsmi səfəri ölkə diplomatiyası tarixində mühüm hadisə oldu. Vaşinqtonda keçirilən yüksəksəviyyəli görüşlər, imzalanan əhəmiyyətli sənədlər və əldə olunan razılaşmalar sadəcə region üçün deyil, eyni zamanda qlobal geosiyasi müstəvidə dövlətimiz üçün mühüm üstünlüklər yaratdı. Vaşinqtonda əldə edilən razılaşmalar cənab İlham Əliyevin rəhbərliyi ilə qazanılan mühüm tarixi nailiyyətlərdən biridir və onun məhz "Konstitusiya və Suverenlik İli"nə təsadüf etməsi dərin rəmzi xarakter daşıyır.

Bu gün dövlətimiz bir çox sahədə yeni inkişaf tarixinə qədəm qoyub. Azərbaycanın dövlət suverenliyi tam, ərazisi bütöv, sərhədləri isə toxunulmazdır. Qarşıda duran ən önəmli məsələlərdən biri isə işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işlərinin həyata keçirilməsidir. Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa və quruculuq işləri bütövlükdə regionun iqtisadi və sosial inkişafında yeni mərhələnin əsasını qoyub. Bu ərazilər bütün əsas infrastruktur, yollar, elektrik, su, rabitə və digər zəruri xidmətlərlə təmin edilir. Qarabağın zəngin təbiəti, əlverişli iqlimi, kənd təsərrüfatı üçün geniş imkanları, turizm və sənaye sahələrində böyük potensialı bu əraziləri investisiya baxımından cəlbedici məkana çevirir.

Mühüm məqamlardan biri də işğaldan azad edilmiş ərazilərdə tarixi, dini və mədəni abidələrimizin bərpa edilməsidir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bilavasitə təşəbbüsü və dəstəyi ilə görülən işlər bu ərazilərin dirçəlişinə, inkişafına, eyni zamanda milli yaddaşımızın bərpasına mühüm töhfədir.

İşğaldan azad edilmiş ərazilərdə sürətli bərpa və quruculuq işlərinin aparılması ilə bərabər, bu torpaqlara yerli əhalinin qayıdaraq dayanıqlı məskunlaşması dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Dövlət proqramı çərçivəsində keçmiş məcburi köçkünlər uzun illər boyu həsrətini çəkdikləri doğma yurd-yuvalarına qayıdırlar. Artıq minlərlə insan doğma torpaqlarına qayıdıb, yaşayış üçün zəruri olan sosial xidmət və kommunikasiya infrastrukturu ilə təmin olunub.

Bu gün Azərbaycan gələcəyə doğru inamla addımlayır. Regionun lideri olan ölkəmiz beynəlxalq müstəvidə də söz sahibidir. Vətən müharibəsindən sonra yaranmış yeni tarixi-siyasi reallıq Azərbaycanın regional, eyni zamanda beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi mövqeyinin möhkəmləndirilməsini şərtləndirdi. Cənab İlham Əliyevin qeyd etdiyi kimi: "Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə



və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir".

Ölkəmiz regiondakı iqtisadi-siyasi proseslərin əsas iştirakçısıdır. Məhz Azərbaycanın təşəbbüsü və iştirakı ilə uğurla həyata keçirilən bütün irimiqyaslı layihələr ümumilikdə regionun təhlükəsizliyinə, iqtisadi inkişafına öz mühüm töhfəsini verir. Dövlət başçısının həyata keçirdiyi ardıcıl və uzaqgörən siyasət nəticəsində beynəlxalq aləmdə nüfuzu daha da artan Azərbaycanla əlaqələr yaratmaq və bu əlaqələri inkişaf etdirmək istəyində olan ölkələrin sayı da getdikcə artır.

Azərbaycan bir sıra mötəbər beynəlxalq tədbirlərin, qlobal forumların, konfransların keçirildiyi unikal məkana çevrilib. Ölkəmizin mühüm tədbirlərə evsahibliyi etməsi baxımından bir nümunə olduğunu deyə bilərik. Bu cür beynəlxalq əhəmiyyətli tədbirlərdən biri bu il sentyabrın 28-dən oktyabrın 8-dək Azərbaycanda keçirilən III MDB Oyunları oldu. Azərbaycan Prezidenti Düşənbədə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə keçirilən iclasındakı çıxışında qeyd etmişdir ki, bu qəbildən tədbirlər MDB məkanında və onun hüdudlarından kənarda dostluğu, əməkdaşlığı möhkəmləndirir, bərabərhüquqlu, qarşılıqlı maraqlara və qarşılıqlı hörmətə əsaslanan münasibətlərin güclənməsinə kömək edir.

Dünya nizamının özünün çətin dövrünü yaşadığı, beynəlxalq müstəvidə mürəkkəb proseslərin baş verdiyi zamanda Azərbaycan əlaqələrini davamlı şəkildə şaxələndirir, dünya ölkələri sırasında tərəfdaşlarının sayını artırır. Ölkəmiz beynəlxalq miqyasda siyasi dialoqun, əməkdaşlığın və strateji tərəfdaşlığın fəal iştirakçısı və eyni zamanda təşəbbüskarıdır. 2025-ci ilin bir sıra mühüm siyasi hadisələri bir daha göstərdi ki, Azərbaycan Prezidenti İlham Əliyevin dövlətçilik prinsiplərinə sadiq lider olmaqla, milli maraqlara əsaslanaraq həyata keçirdiyi xarici siyasət, diplomatiya və strateji baxışları sayəsində Azərbaycan beynəlxalq aləmdə etibarlı tərəfdaşa çevrilib.

Vətən müharibəsinin regionda yaratdığı yeni geosiyasi reallıqlar dövründə ölkəmizin çoxvektorlu xarici siyasət kursunda türk dünyası ilə əməkdaşlıq, həmçinin Türk Dövlətləri Təşkilatı çərçivəsində fəaliyyət prioritet istiqamətlərdən biri kimi müəyyən edilib. Böyük coğrafiyanı əhatə edən türk dövlətləri və xalqları ümumi tarixi köklər, ortaq zəngin mədəni irs, ədəbiyyat, adət-ənənə, milli-mənəvi dəyərlər ilə bir-birinə sıx bağlıdır. Ortaq tarixi və etnik köklər, dəyərlər, ənənələr üzərində təşəkkül tapmış bu dostluq və qardaşlıq münasibətləri dünyada bənzəri olmayan həmrəylik nümunəsidir.

Azərbaycan dövlətinin dünyada artan nüfuzu onun beynəlxalq təşkilatlarla əlaqələrində və onların fəaliyyətində fəal iştirakına gətirib çıxarıb. Bir çox xarici dövlət, mötəbər beynəlxalq təşkilatla milli maraqların qorunması ilə qarşılıqlı hörmət və ehtiram əsasında qurulan əməkdaşlıq münasibətləri ölkəmizə etibarlı tərəfdaş imicini qazandırıb. Azərbaycan bir sıra beynəlxalq qurumlarda sadəcə üzv dövlət kimi təmsil olunmur, eyni zamanda bir sıra mühüm əhəmiyyət kəsb edən qərarların qəbulunda və icrasında yaxından iştirak edir.

Azərbaycan Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpinin dəvəti ilə cari il avqustun sonu - sentyabrın əvvəlində Çinə işgüzar səfəri, keçirdiyi görüşlər, "ŞƏT plyus" formatında Zirvə toplantısında, həmçinin Çinin xarici hərbi müdaxilə və faşizm üzərində qələbəsinin 80 illiyi münasibətilə keçirilən təntənəli tədbirlərdə və hərbi paradda iştirakı bir daha onu göstərdi ki, dövlət başçısı İlham Əliyev beynəlxalq miqyasda böyük ehtiramla qarşılanan siyasi lider, Azərbaycan isə yüksək nüfuza malik dövlətdir.

Cənab İlham Əliyev həmçinin oktyabrın 2-də Danimarkanın paytaxtı Kopenhagen şəhərində "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında iştirak etmişdir. Dövlətimizin başçısı sammit çərçivəsində bir sıra dövlət, hökumət başçıları, həmçinin Avropa İttifaqı Şurasının prezidenti və Avropa Komissiyasının prezidenti ilə görüşlər keçirmişdir. Mühüm məqamlardan biri odur ki, keçirilən görüşlər qarşı tərəflərin təşəbbüsü ilə həyata keçirilmişdir. Bu, ölkəmizin artan geosiyasi əhəmiyyətinin, Avropa liderlərinin Azərbaycana olan marağının, Azərbaycan Prezidentinin şəxsi nüfuzuna, həyata keçirdiyi siyasətə etimadın və ehtiramın bariz nümunəsidir.

Ölkəmiz ədalətə və beynəlxalq hüquqa söykənən mövqeyi ilə hər zaman ən yüksək tribunalardan ikili standartlara əsaslanan siyasətin yaratdığı problemləri vurğulayıb. Cənab İlham Əliyevin Nyu Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışı mühüm əhəmiyyətə malikdir. Dövlətimizin başçısı çıxışında bu reallığı da qeyd edib ki, son illərdə əldə etdiyimiz nailiyyətlər yalnız Azərbaycanın qələbəsi və uğuru deyil. Bu həm də beynəlxalq hüququn sonda mütləq üstünlük təşkil etməsinin sübutudur.

Bizim qədim tarixə, zəngin mədəniyyətə malik olan Azərbaycan kimi vətənimiz var. Xalqımız bu gün öz müstəqil və suveren dövlətinə sahibdir, mübarizə ilə əldə edilən suverenlik onun milli sərvətinə çevrilmişdir. Hər bir vətəndaşımız Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkənin ərazi bütövlüyünün və suverenliyinin bərpa edilməsinin, ölkənin bütün ərazilərində Konstitusiyanın hüquqi qüvvəsinin tam bərqərar olunmasının sonsuz sevincini, qürurunu yaşayır. Bu böyük Zəfər hər birimizi yeni nailiyyətlərə ruhlandırır.

***Fərhad ABDULLAYEV,***
***Azərbaycan Respublikası***
***Konstitusiya Məhkəməsinin sədri***




# Konstitusiya və Suverenlik İli 2025

# Ana dili xalqımızın milli kimliyidir

## Onu qorumaq hər bir vətəndaşımızın borcudur

Azərbaycan dili Azərbaycan Respublikasının dövlət dilidir, dünyanın geniş yayılmış dillərindən olaraq əlli milyondan artıq insanın ana dilidir. Dövlət dili statusu daşıyan bu dilin qorunması Azərbaycan Konstitusiyasının 21-ci maddəsi ilə təmin edilir. Onu bilmək hər bir Azərbaycan vətəndaşının borcudur və bu dil ölkənin siyasi, ictimai, iqtisadi, elmi və mədəni həyatının bütün sahələrində işlədilir.

Prezident İlham Əliyevin AMEA-nın 80 illik yubileyindəki çıxışının mühüm bir hissəsi milli dəyərlərə, xüsusilə Azərbaycan dilinə həsr olunmuşdu. Dövlətimizin başçısı dilin saflığının qorunmasını hər bir vətəndaşın vəzifəsi adlandırdı, hər bir kəsin işi olduğunu vurğuladı: "Yəni dövlət, alimlər, dilçilər, yazıçılar, şairlər, jurnalistlər, siyasətlə məşğul olanlar bu məsələyə çox böyük diqqət verməlidirlər". Zəngin dillərdən birinə çevrilən bu sərvətin qorunması yalnız rəsmi qərarlarla deyil, hər bir vətəndaşın şəxsi məsuliyyəti və dili sevmə mədəniyyəti ilə mümkündür. Eyni zamanda xəbərdarlıq da edildi ki, xarici sözlərin həddindən artıq işlədilməsi, mediada və ictimai nitqlərdə ədəbi dil qaydalarının pozulması milli kimliyin təməllərinə zərbə vura bilər. Biz xalq kimi, millət kimi öz dilimizi qorumasaq, onda milli kimliyimiz də sarsıla bilər.

Prezident Azərbaycan dilinin yalnız ölkə daxilində deyil, həm də dünya azərbaycanlıları arasında qorunmasının strateji prioritetə çevrildiyini göstərdi. Ölkə rəhbərimiz dilin dövlətçilikdəki rolunu yüksək dəyərləndirərək dedi: "Hər bir millət, hər bir xalq üçün onun ana dili onun milli mənsubiyyətinin əsas amilidir… Azərbaycan dili çox zəngindir, xarici kəlmələrə ehtiyac da yoxdur… Əgər Azərbaycan dilində əzəli bir kəlmə varsa, başqa dildən söz gətirib əvəzləmək nə məqsəd daşıyır? Bu ya səhvdir, ya təxribatdır. Hər ikisi də qəbuledilməzdir". Bu çağırış həm də mədəni müstəqillik konsepsiyasının ifadəsidir. Çünki dil, təkcə sözlər toplusu deyil, həm də xalqın düşüncə tərzi, hiss dünyası və varlıq fəlsəfəsidir.

### Dil əmanəti : tarixə bir nəzər

Dil problemləri böyük ideoloji və sosial məsələlərlə bağlı olsa da, XX əsrin əvvəllərinə qədər dillərin dövlət qanunları sistemində təsbit olunması ənənəsi yox idi. Azərbaycan Respublikasının tarixinə gəlincə, milli dilimizin statusunun Konstitusiyada və digər qanunlarda əksini tapması özü maraqlı faktlarla bağlıdır.

Azərbaycan dilinin dövlət dili kimi hüquqi aktlarda təsbit olunması məsələsi hələ XX əsrin əvvəllərində - Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyəti dövründə böyük aktuallıq kəsb etmişdi. O zaman parlamentin istifadə etdiyi dil Azərbaycan türkcəsi idi. Qeyri-millətlərdən olan yerli əhalinin nümayəndələri çıxışların rus dilində olmasını təklif edəndə parlamentin iclaslarından birində bu məsələ geniş müzakirə olunmuş və xüsusi qərar qəbul edilmişdi. Qərara əsasən, parlamentin rəsmi dili Azərbaycan dili elan olunmuş, digər millətlərin nümayəndələrinin öz çıxışlarını rus dilində etmələri hələlik məqbul sayılmışdı. Bununla belə rəsmi sənədlərin hamısı ana dilində tərtib edilmişdi. Azərbaycan türkcəsində olmayan sənədlərə baxılmırdı. Bu barədə Nazirlər Şurasının 1918-ci il 27 iyun tarixli xüsusi fərmanı da mövcuddur. Fərmanda deyilirdi: "Dövləti lisan türk dili qəbul edilərək, irəlidə bütün məhkəmə, idareyi-daxiliyyə və sair dəvair vəzifələri başında duranlar bu lisanı bilənlər olana qədər hökuməti müəssisələrdə rus dili istimalına müsaidə edilsin". İki il ərzində dövlət orqanlarının işinin tamamilə ana dilinə keçməsi nəzərdə tuturdu.

Azərbaycanın ilk Konstitusiyası 1921-ci ildə I Ümumazərbaycan Sovetlər Qurultayında qəbul edilmişdir. Daha sonra 1937-ci ildə o dövrdə keçmiş SSRİ-nin yeni Konstitusiyasının qəbuluna müvafiq olaraq Azərbaycan Konstitusiyası da yenilənmiş, 1978-ci ildə isə yeni Azərbaycan Konstitusiyası qəbul edilmişdir. Bu konstitusiyaların hər biri mövcud tarixi reallıqları əks etdirir, sovet quruluşuna xas münasibətlər sistemini əhatə edirdi.




Dil tarixinə müraciət edərkən əlifba məsələsini də xüsusi qeyd etmək lazımdır. 1926-cı il fevralın 26-da Bakı şəhərində I Türkoloji Qurultay keçirilmişdi. Möhtəşəm məclisdə iki məsələ - latın qrafikasına keçid və ortaq ədəbi dil, ortaq terminologiya məsələləri mühüm yer tuturdu. Sovet rəhbərləri, əslində, bu qurultayın belə möhtəşəm səviyyədə olacağını düşünmürdülər.

I Türkoloji Qurultayın nümayəndələri böyük ümidlə, coşqun həvəslə elmi etiraflarını edir, gələcək araşdırmalarını və vəzifələrini açıqlayır, fikirlərin üst-üstə düşməsi elmi üfüqlərə yeni işıq saçırdı. ÇK-nın isə dəhşətli xəbərlərlə dolu qovluqları aşıb-daşırdı. Hər çıxış, hər cümlə, hər ifadə, hər söz mənalandırılır, siyasi baxımdan özlərinə sərf olunan yönümdə yozulur, təhlil edilir və nəticə çıxarılırdı.

Qurultay iştirakçılarının sonrakı fəaliyyəti isə faciəvi oldu. Onun işində iştirak edən 100-dən artıq iştirakçı sonradan pantürkizmdə ittiham edilərək repressiyaya uğradı. Əksər alim və mütəfəkkirlər həbs və fiziki məhvlə üzləşdilər. Qurultayın mühüm nəticəsi olan türk xalqlarının latın qrafikalı əlifbaya keçidi isə 1939-cu ildə ləğv edildi və Sovetlər Birliyi ərazisində yaşayan türk xalqları üçün kütləvi olaraq Kiril əlifbalı yazı tətbiq edildi.

Ötən əsrin 30-cu illərində - mədəni inqilab dövründə savadsızlığın ləğvi Azərbaycan dilinin inkişafı üçün sonsuz imkanlar yaratmışdı: ana dilində dərsliklər yazılmış, Azərbaycan folklorunun toplanması və nəşri sahəsində ciddi işlər görülməyə başlanmışdı. Bu prosesdə Salman Mümtaz, Həmid Araslı, Məmmədhüseyn Təhmasib kimi folklorşünas alimlərin xüsusi əməyi olmuşdur.

Lakin bütün bunlarla bərabər, 1937-ci ildə qəbul olunmuş Azərbaycan SSR-in yeni Konstitusiyasında dillə bağlı qeydlər olsa da, Azərbaycan dilinin hüquqi statusu barədə ayrıca maddə olmamışdı. Şübhəsiz ki, bu, keçmiş sovet rəhbərliyinin apardığı totalitar siyasətin diktə etdiyi reallıq idi. Stalin repressiyalarının geniş vüsət aldığı bir vaxtda Konstitusiyaya ana dili ilə bağlı maddə əlavə etmək həm kifayət qədər riskli, həm də perspektivsiz addım idi. Stalinin ölümündən sonra repressiyaya son qoyulması və totalitarizmin ən ağır formalarının aradan qaldırılması istiqamətində atılmış addımlar xalqlara qarşı ayrıseçkilik siyasətini müəyyən qədər məhdudlaşdırdı və nəhayət, belə bir vəziyyətdə - 1956-cı ildə Azərbaycan Respublikası Ali Soveti 1937-ci il Konstitusiyasına xüsusi maddə qəbul etdi. Həmin maddədə Azərbaycan SSR-də dövlət dilinin Azərbaycan dili olması əksini tapdı. Lakin bu qərar mərkəzdəki mühafizəkarların müqavimətilə rastlaşdı.

Azərbaycan dilinə keçilməsi barədə tələblər Moskvada narazılıq doğurdu. Yazıçı və şairlərimiz, dilçi-filoloqlarımız sosializm dövründə "hər bir millətin öz müqəddəratını təyin etmək hüququ"nu dil sahəsində də tətbiq etməyə çalışırdılar. Bu meyil Mirzə İbrahimovun fəaliyyətində özünü qabarıq şəkildə göstərirdi. O zaman keçmiş sovet imperiyası milli hərəkatın, milli dirçəlişə səbəb olacaq hər hansı bir tədbirin qarşısını almaq üçün hər cür təxribata hazır idi. Ümummilli Lider Heydər Əliyev həmin dövrü xarakterizə edərkən deyirdi: "Ən emosional məsələləri də ancaq ağlın gücü ilə həll etmək lazım idi. Azərbaycan cəmiyyətinin o dovrdəki vəziyyəti elə idi ki, dərhal qərar verib bütünlüklə Azərbaycan dilinə keçmək çox riskli idi". Mirzə İbrahimovun "təcrübəsi" həmin yolun uğursuzluğunu artıq göstərmişdi.

### Cəsarətli mövqe

Ötən əsrin 60-cı illərinin sonu, 70-ci illərinin əvvəllərində Azərbaycana rəhbər seçilən Ümummilli Lider Heydər Əliyev respublikanın iqtisadi, ictimai-siyasi və mədəni-ideoloji həyatında dirçəliş yaratmaqla yanaşı, dil məsələsinə də xüsusi diqqət və qayğı göstərmişdir. Böyük rəhbərin ilk gündən yeritdiyi dil siyasəti bir məqsədə xidmət etmişdir: ana dilini inkişaf etdirmək, onun dövlət statusunu reallaşdırmaq, dünya dilləri içərisində nüfuzunu artırmaq. Lakin həmin dövrdə rus dilinin mövqeyi respublikada hələ çox güclü idi. Azərbaycan KP-nin qurultayları, MK-nın plenumları bir qayda olaraq rus dilində aparılırdı. Heydər Əliyev bütün mürəkkəbliyi ilə dərk edirdi ki, Moskva ruslaşdırma siyasəti yürüdür, lakin bu qeyri-humanist siyasət müxtəlif yollarla pərdələnir, Azərbaycan dili dövlətçilikdən, inzibati idarə sistemindən, elmdən, mədəniyyətdən, təhsildən sıxışdırılır, yalnız məişət dili səviyyəsinə endirilirdi. Belə bir siyasət xalqını sevən rəhbərdə daxili etiraz doğurmaya bilməzdi. Ona görə də 1970-ci illərdən etibarən respublikanın müxtəlif ali məktəblərində ana dili və ədəbiyyatı ixtisası üzrə tələbə qəbulunun sayı artırıldı, qəbulda ana dilindən yazılı imtahan ən müxtəlif ixtisaslar üzrə məcburi hesab edildi. Tədrisi Azərbaycan dilində aparılan məktəblərin sayı çoxaldıldı. 1970-ci ildə Azərbaycan Dövlət Universitetinin 50 illiyi münasibətilə keçirilən mərasimdə respublika rəhbəri ana dilində çıxış etdi. Bunda məqsəd ana dilimizin yüksək səviyyədə təbliği idi.

1978-ci ildə Azərbaycan Konstitusiyasında dövlət dilinin Azərbaycan dili olması haqqında müddəanın salınmasına xüsusi səy göstərildi. Həmin dövrdə respublika rəhbəri Əsas Qanunumuzda Azərbaycan dilinin dövlət dili olması barədə müddəanın varlığını təmin etmək üçün təşkilati işlər aparmış, elmi və ziyalı qruplarını da bu işə cəlb etmişdir. Böyük rəhbərin qətiyyəti və iradəsi sayəsində bu müddəa yeni Konstitusiyanın 73-cü maddəsində öz təsdiqini tapmışdır.

Azərbaycan müstəqillik əldə etdikdən sonra dil məsələsinə baxışda fikir ayrılıqları meydana çıxmağa başladı. Bu, xüsusilə AXC-Müsavat hakimiyyəti dövründə özünü daha qabarıq şəkildə büruzə verirdi. Bəzi qüvvələr dövlət dilinin adının dəyişdirilməsini və onun "türk dili" adlandırılmasını təklif edirdilər. Uzun müzakirələrdən sonra 1992-ci ilin dekabrında Milli Məclisdə dövlət dili haqqında qanun müzakirə olunmuş və Azərbaycanda dövlət dilinin "türk dili" olması barədə qərar qəbul edilmişdi.

1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası hazırlanarkən dövlət dilinin necə adlandırılması ilə bağlı müxtəlif təkliflər irəli sürülürdü və onların böyük əksəriyyətində ana dilimizin Azərbaycan dili adlandırılması ideyası dəstəklənirdi. Müzakirələrin nəticəsi olaraq 1995-ci il Konstitusiyasının 21-ci maddəsində Azərbaycan Respublikasında dövlət dilinin Azərbaycan dili olması öz əksini tapdı.

### Dövlətçilik ideologiyasının prinsipləri

Bu gün Ulu Öndərin müəyyənləşdirdiyi milli-mənəvi dəyərlərimizə, elmin və mədəniyyətin inkişafına daimi dövlət qayğısının təmin olunması xətti uğurla davam etdirilir. Azərbaycanı tarixinin ən qüdrətli mərhələsinə yetirən ölkə rəhbəri milli dil əmanətinə də sadiqdir. 12 yanvar 2004-cü ildə "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi", 14 yanvar 2004-cü il tarixli "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında", eləcə də 30 dekabr 2007-ci il tarixli "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin Azərbaycan dilində nəşri nəzərdə tutulan əsərlərinin siyahısının təsdiq edilməsi haqqında" sərəncamlar, ayrı-ayrı toplantılarda ana dilimizin inkişafı ilə bağlı irəli sürülən tezislər müasir dövrdə dilimizin inkişafına təkan verən möhtəşəm tədbirlərdir.

Biz hazırda elə bir dünyada yaşayırıq ki, qloballaşma prosesi həyatımızın az qala hər anında özünü göstərir. Onun təməlində beynəlxalq ünsiyyət dayandığından bu prosesin müsbət və mənfi təsirləri ən çox dil mühitində özünü büruzə verir. Həmin amillər nəzərə alınaraq 2013-cü ilin aprelində "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələbinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" sərəncam imzalandı. Bu, ana dilimizin saflığının və zənginliyinin qorunması baxımından tarixi bir hadisə idi.

Azərbaycan dilinin elektron məkanda geniş istifadəsini təmin edən tədbirlər sırasında isə Prezident İlham Əliyevin 17 iyul 2018-ci il tarixli "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" sərəncamı dilimizin inkişafı və tətbiqi dairəsinin daha da genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Dövlət başçısının 2018-ci il noyabrın 1-də imzaladığı "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" fərmanı isə ölkəmizdə dövlət dilinin daim diqqət mərkəzində saxlanıldığını bir daha təsdiq edir.

Unutmamalıyıq ki, ana dilinin qorunması, inkişafı eyni zamanda vətəndaşlıq məsuliyyəti tələb edən məsələdir. Ana dilimizdə milyonlarla insan danışır və yazır. Onların bu dildən hansı şəkildə faydalandıqlarını, ona necə münasibət göstərdiklərini tam nəzarətdə saxlamaq mümkün deyil. Amma hər bir vətəndaş çevrəsindəki insanların dilimizi korlayan hallarla rastlaşdığı vaxt ictimai qınağın gücü ilə onların aradan qaldırılmasına nail ola bilər. "Biz xalq kimi, millət kimi öz dilimizi qorumasaq, onda yavaş-yavaş bizim milli kimliyimiz də sarsıla bilər. Əminəm ki, mənim sözlərim hər kəsə çatacaq və özüm də daim bu məsələ ilə bağlı məşğul olacağam, izləyəcəyəm, lazımi tədbirlər görəcəyəm. Azərbaycan alimlərindən də bax bu məsələyə də öz münasibətini və dəstəyini göstərmək çağırışını edirəm", - Azərbacan Prezidenti AMEA-nın 80 illik yubileyindəki çıxışında bu məsələyə xüsusi diqqət yetirdiyini bildirdi. Dövlət dilimiz son birəsrlik dövrdən çox məqsədyönlü islahatlar nəticəsində lüğət tərkibini zənginləşdirib və dünya dilləri içərisində özünəməxsus yer tutub. Azərbaycan dili tarixi ənənəsi olan kamil dillərdən biridir, böyük inkişaf yolu keçib, zəngin ədəbi dil mühitinə malikdir.

Bu gün Prezident İlham Əliyev Azərbaycanda dövlətçilik ideologiyasını Konstitisiyanın prinsiplərinə uyğun şəkildə formalaşdırmışdır. Bu ideologiya xalqa məxsus suverenlik, qanunun aliliyi, milli maraqların üstünlüyü, siyasi müstəqillik və balanslı diplomatiya prinsiplərini özündə ehtiva edir. Bu ideologiya cəmiyyətin birliyinə, hüquqi dövlət modelinin möhkəmlənməsinə xidmət göstərir.

Azərbaycan hüquqi, tam suveren dövlət kimi gündən-günə inkişaf edir, getdikcə daha da qüdrətlənir və bu inkişafın təməlində 30 il əvvəl qəbul edilmiş Əsas Qanunumuz - Konstitusiyamız durur.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Qanunun aliliyinə möhkəm əsas yaradan sənəd

**12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilən müstəqil Azərbaycan dövlətinin ilk Konstitusiyası ölkəmizi dünya birliyinin tamhüquqlu üzvünə çevirdi. Yeni minilliyin astanasında qəbul edilən bu hüquqi sənəd dövlətçiliyimizin dirçəlişində tarixi əhəmiyyətə malik bir mərhələ oldu. Ölkəmizin siyasi-iqtisadi və sosial-mədəni həyatında baş verən dəyişikliklərin nəticəsi kimi formalaşan yeni Konstitusiyada respublikamızın müstəqilliyinin qorunması və möhkəmləndirilməsinə, dövlətçiliyin inkişafına xüsusi diqqət yetirilmiş, əsas prioriteti isə vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi olmuşdur.**

Konstitusiyamız adi hüquqi sənəd deyil, o, mahiyyət etibarilə vətəndaş cəmiyyətinin dünyaya yeni baxışının təzahürüdür. Azərbaycan Respublikasının qanunvericilik sistemində aparıcı mövqe tutan Əsas Qanun, vətəndaşlarla dövlət arasında bir növ müqavilə rolunu oynayır və dövlət aparatının özbaşına hərəkətlərindən və ya hərəkətsizliyindən hər bir şəxsi qorumaq səlahiyyətinə malikdir. Konstitusiya vasitəsilə Azərbaycan Respublikasının hər bir vətəndaşı anlayır ki, o, suveren olaraq, konstitusion quruluşun bir hissəsinə və dövlət hakimiyyətinin yeganə mənbəyinə çevrilir.

Azərbaycan Konstitusiyasını siyasi sənəd kimi də dəyərləndirmək olar, çünki o, cəmiyyətdə gedən siyasi proseslərə tənzimləyici təsir göstərir və sosial qüvvələrin, siyasi partiyaların, qrupların müəyyən qarşılıqlı nisbətini möhkəmləndirir.

Ümumillikdə isə Konstitusiyanın cəmiyyətdə nüfuzunu əhəmiyyətli dərəcədə artırmaq yalnız fəal maarifləndirici və təbliğat siyasəti vasitəsilə mümkündür. Hər bir vətəndaş Konstitusiyanı öyrənməli, onun bizə hansı hüquq və vəzifələri müəyyən etdiyini anlamalıyıq. Bu baxımdan, Prezident İlham Əliyevin 28 dekabr 2024-cü ildə imzaladığı Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında sərəncam cəmiyyətin konstitusiya dəyərlərinə olan münasibətinin gücləndirilməsini, hüquqi maarifləndirmənin artırılmasını və hüquqi dövlət prinsiplərinin daha da dərinləşdirilməsini hədəflədi.

Konstitusiyamız tarixi ənənənin ən yaxşı elementləri ilə bərabər, müasir dövlətin səmərəli fəaliyyət mexanizmlərini də özündə birləşdirmiş və tətbiq etmişdir. Bu sənəd xalqın ali dəyərinin təcəssümüdür, onun tarixi yaddaşını, milli şüurunu və ədalətli dövlət qurmaq arzusunu birləşdirir. O, cəmiyyətin birliyinin, vətəndaş hüquqlarının qorunmasının, ölkənin gələcəyini formalaşdıran və suverenliyin etibarlı təminatçısıdır.

Azərbaycan Konstitusiyası, əsasən, xalq hakimiyyətinin yaradılmasına və təmin edilməsinə yönəldiyi üçün müasir vətəndaş cəmiyyətinin möhkəm hüquqi əsasını qoyur. Əsas Qanun Azərbaycan xalqının iradəsini əks etdirir və bu, demokratik dəyərlərin möhkəmləndirilməsinə və vaxtında sosial-iqtisadi islahatların həyata keçirilməsinə xidmət edir.

Beləliklə, Azərbaycan Respublikasının Konstitusiyasının dəyəri təkcə vətəndaş cəmiyyətinin müxtəlif təbəqələrinin sosial maraqlarının ədalətli bölüşdürülməsində deyil, həm də şəxsin hüquqi azadlığının müəyyən edilməsində, dövlət hakimiyyətinin özbaşınalığının məhdudlaşdırılmasında, eləcə də ölkənin hüquq sistemində onun ali və məcburi qüvvəyə malik olmasında əksini tapmışdır.

8 noyabr tarixində biz qürurla Azərbaycanın ərazi bütövlüyünün bərpasını və tarixi Qələbəni qeyd etdik. Prezident İlham Əliyevin uzaqgörən və qətiyyətli rəhbərliyi altında həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində qazanılan Qələbə və Azərbaycanın ərazi bütövlüyünün bərpası ölkəmizin dövlət suverenliyini tam təmin etdi. Noyabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaqda Prezident öz çıxışında bununla bağlı fikirlərini bildirərək qeyd edib ki, "bu gün Azərbaycan bütün suveren torpaqlara sahibdir. Bizim ərazimizdə işğalçı qüvvələr yoxdur. Bizim ərazimizdə xarici hərbi birləşmələr yoxdur. Bu gün biz bu torpaqlarda qurub-yaradırıq... Deyə bilərəm ki, bizim qədər parlaq, tam və mütləq Qələbə qazanan ikinci ölkə olmamışdır".

Bu mühüm nailiyyət, eyni zamanda Azərbaycan Respublikasının Konstitusiyasının bütün ölkə ərazisində, işğaldan azad olunmuş torpaqlar da daxil olmaqla, tam şəkildə tətbiqinə şərait yaratdı. Beləliklə, Konstitusiyanın ali hüquqi qüvvəsi və onun prinsipləri respublikamızın hər bir bölgəsində təmin olunaraq qanunun aliliyinə və vahid dövlət idarəçiliyi sisteminə möhkəm əsas yaratdı.

***Reyhan CƏFƏROVA,***
***hüquq üzrə fəlsəfə doktoru***

# Bakıda qardaşlıq zirvəsi



## Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi paradda Azərbaycan-Türkiyə-Pakistan birliyinin mesajı verildi

**8 Noyabr - Zəfər Günündə Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi parad keçirildi. Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin iştirak etdiyi və dünyanın diqqət mərkəzində olan təntənəli paradda Azərbaycanın hərbi qüdrəti, sarsılmaz gücü nümayiş olundu.**

Azərbaycanın, Türkiyənin və Pakistanın Dövlət himnlərinin Bakıdan, Azadlıq meydanından dünyaya yayılması, qardaş dövlətlərin liderlərinin Qarabağ Zəfərinin beşinci ildönümünə həsr olunmuş paradda çiyin-çiyinə dayanaraq üç ölkənin azman hərbçilərinin mətin addımlarla tribuna önündən keçmələrini seyr etmələri əbədi qardaşlığın təntənəsi idi.

Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi paraddakı çıxışı zamanı Prezident, Silahli Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev məhz bu qürurlu məqama diqqət çəkdi: "Beş il bundan əvvəl Zəfər paradında da əziz qardaşım Rəcəb Tayyib Ərdoğan bizimlə bərabər idi. Bu gün isə bizimlə bərabər digər əziz qardaşım iştirak edir. Qardaş Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif bizim qonağımızdır...

...Bu, üç ölkənin - Azərbaycan, Türkiyə, Pakistan xalqlarının, ordularının birliyinin təzahürüdür".

### Qafqazda davamlı sülhə gedən yolun məhək daşı

Azərbaycan Vətən müharibəsinin son gününə qədər qardaş ölkələr olan Türkiyə və Pakistanın siyasi, mənəvi dəstəyini daim hiss etdi. Bu, ölkəmizə torpaqlarının azadlığı uğrunda haqq mübarizəsində əlavə güc-qüvvət verdi.

Əzəli qardaşlıq əlaqələrinə malik Azərbaycan və Türkiyə dövlətlərimizin, xalqlarımızın varlığına qarşı təhdid olan terrorizmə, işğal siyasətinə qarşı birlikdə mübarizə aparır, təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması istiqamətində daim bir-birlərinə kömək edirlər. İki qardaş ölkənin vahid gücü təkcə ölkələrimizin inkişafı, təhlükəsizliyi deyil, beynəlxalq əhəmiyyətli məsələlərin həlli üçün də vacib rol oynayır. Bu gün Azərbaycan-Türkiyə birliyinin gücü ilə dünyada da hesablaşılır və regionla bağlı istənilən məsələ, layihə bu iki ölkənin maraqları çəçivəsində reallaşdırılır. 44 günlük müharibədə Türkiyənin Azərbaycana açıq şəkildə siyasi və mənəvi dəstək verməsi ölkəmizə düşmən mövqe tutanların əl-qolunu bağladı. Həmin vaxt Türkiyə ən ali səviyyədə Azərbaycanın tək olmadığı mesajını dünyaya çatdırdı və tarixi ədaləti, eləcə də beynəlxalq hüququn tələblərini təmin etməsinə maneçilik törətmək istəyən xarici gücləri neytrallaşdırdı.

10 dekabr 2020-ci ildə Bakıda Azadlıq meydanında keçirilən Zəfər paradında Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanın Prezident İlham Əliyevlə birlikdə iştirak etməsi iki qardaş ölkənin qələbə qürurunu birgə yaşadığının təzahürü idi.

Eyni zamanda 2021-ci ilin 15 iyun tarixində, xalqımızın Qurtuluş Günündə Azərbaycan və Türkiyə arasında imzalanan Şuşa Bəyannaməsi iki qardaş ölkənin əlaqələrini strateji müttəfiqlik səviyyəsinə yüksəltdi.

8 Noyabr - Zəfər Günündə keçirilən hərbi paraddakı çıxışında Prezident İlham Əliyev Vətən savaşı zamanı Türkiyənin Azərbaycana göstərdiyi siyasi, mənəvi dəstəyi bir daha vurğuladı: "Bu gün bizim paradda əziz qardaşım, Türkiyə Cümhuriyyətinin Cümhurbaşqanı hörmətli Rəcəb Tayyib Ərdoğan iştirak edir. Əziz qardaşım İkinci Qarabağ müharibəsinin ilk saatlarından başlayaraq Azərbaycana, Azərbaycan xalqına, Azərbaycan Ordusuna öz dəstəyini göstərirdi. Onun verdiyi siyasi və mənəvi dəstək bizə əlavə güc verirdi, bizi ruhlandırırdı. Qardaş Türkiyə xalqı hörmətli Prezident Ərdoğanın liderliyi ilə Azərbaycana müntəzəm olaraq dəstək göstərmişdir. Müharibə zamanı onun "Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır!" deməsi bütün dünyaya çox ciddi mesaj idi. Azərbaycan xalqı bu qardaş dəstəyini heç vaxt unutmayacaq".

Öz növbəsində paraddakı çıxışında Prezident Rəcəb Tayyib Ərdoğan söylədi ki, Qarabağ Zəfəri vicdanları qanadan böyük bir ədalətsizliyə son qoymaqla qalmadı. Eyni zamanda bölgəmizdə yeni bir dövrün qapılarını açdı: "Vətən müharibəsi Asiyada və Avropadakı geosiyasi balansı da dəyişdi. Biz nə kin saxlayarıq, nə də keçmişdəki zülmlərin yenidən yaşanmasına izn verərik. Beləliklə, bu Zəfəri bir son olaraq deyil, Qafqazda davamlı sülhə gedən yolun məhək daşı olaraq görürük".

Türkiyə lideri çıxışında onu da qeyd etdi ki, Azərbaycanın sarsılmaz dəstəyi ilə Şimali Kipr Türk Respublikasının türk dünyası içərisindəki mövqeyinin güclənməsini arzu edir.

Məlum olduğu kimi, Azərbaycan Şimali Kipr məsələsində daim Türkiyənin yanındadır və bu istiqamətdə əməli addımlar atır.

### Hər zaman çiyin-çiyinə

İkinci Qarabağ müharibəsi dövründə qardaş Pakistan da Azərbaycana ən yüksək səviyyədə siyasi və mənəvi dəstək göstərdi.

28 oktyabr 2020-ci ildə Pakistan Milli Assambleyası Ermənistanın Azərbaycana qarşı təcavüzünü və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki əhalisinə qarşı qəddar hücumlarını qəti şəkildə pisləyən qətnamə qəbul etdi.

Onu da deyək ki, Pakistan Ermənistanın Azərbaycana qarşı otuzillik işğalı dövründə bu dövlətlə diplomatik əlaqə qurmayan üç ölkədən biridir. Eləcə də Vətən müharibəsində Pakistan Azərbaycanın yanında oldu, haqlı mübarizəsində ona siyasi, mənəvi dayaq durdu.

Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi paraddakı çıxışında dedi ki, Pakistan, Azərbaycan və Türkiyə - ürəkləri bir döyünən üç qardaş bu gün burada çiyin-çiyinə dayanaraq, belə möhtəşəm tədbiri birlikdə, hamılıqla qeyd edir: "Azərbaycanlı və türk qardaşların arxasınca marşla gedən müzəffər Silahlı Qüvvələrimizi görmək, əlhəmdülillah, hər il güclənən möhkəm dostluğumuzun gözəl rəmzi olan "JF-17 İldırım" qırıcı təyyarələrin gurultulu səsinə qərq olan səmanı seyr etmək nə dərəcədə fəxarət və duyğulandıran mənzərədir".

Xatırladaq ki, bir neçə ay əvvəl Pakistan və Hindistan arasında baş verən gərginlik zamanı Azərbaycan və Türkiyə bu ölkəyə açıq şəkildə dəstəyini bildirdi.

Noyabrın 8-də Azadlıq meydanında keçirilən hərbi paradda Pakistan Baş naziri də bu məqama diqqət çəkdi: "Bu ilin mayında Hindistanla dördgünlük mübarizə zamanı bütün dünya Azərbaycan ilə Türkiyənin böyük xalqlarının və qətiyyətli rəhbərlərinin Pakistanın yanında dayandığının şahidi oldu".

Onu da xatırladaq ki, bu il 28 May - Müstəqillik Günündə qardaş ölkələr - Azərbaycan, Türkiyə və Pakistanın liderləri Laçında Zirvə görüşü keçirdilər. Azad Qarabağ torpağından sülh mesajları verən liderlər xalqlarının, ölkələrinin milli maraqlarına istənilən təhdidə qarşı birgə mübarizə aparacaqlarını dünyaya bəyan etdilər.

8 Noyabr - Zəfər Günündə Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi paradda Azərbaycan-Türkiyə-Pakistan hərbçilərinin birgə iştirakı da üç qardaş və dost ölkənin faktiki hərbi ittifaq formasında olmasının nümayişi idi.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan beynəlxalq nüfuzu yüksək olan ölkədir

## Bu, dünya dövlətləri tərəfindən də dəyərləndirilir

**Müasir tariximizin ən şanlı, qürurlu səhifəsini - Zəfər Gününün beşinci ildönümünü böyük təntənə ilə qeyd etdik. Beş il əvvəl - 2020-ci ilin payızında baş verən Vətən müharibəsində Azərbaycan xalqı otuzillik işğala son qoydu. Prezident, Ali Baş Komandan İlham Əliyevin uzaqgörən siyasəti, sərkərdəliyi ilə qəhrəman Azərbaycan Ordusu 1990-cı illərdə Ermənistanın qəsb etdiyi ərazilərimizi - Qarabağı və Şərqi Zəngəzuru azad etdi.**

2023-cü ilin sentyabrında həyata keçirilən lokal xarakterli antiterror əməliyyatında isə müzəffər ordumuz növbəti qələbəsi ilə ədalətsizliyi birdəfəlik aradan qaldırdı. Qarabağı tərk etməmiş, torpaqlarımızda təxribat və terror əməllərini davam etdirən Ermənistan silahlı qüvvələrinin tör-töküntüləri və separatçılar ağ bayraq qaldıraraq təslim oldular. Hərbi gücü, peşəkarlığı ilə yenidən qəhrəmanlıq salnaməsi yazan rəşadətli Azərbaycan Ordusu ölkəmizin suverenliyini tam bərpa etdi. Tarixlərin şahidi olan, bu ulu xalqın, qalib dövlətin üçrəngli, ay-ulduzlu bayrağı Azərbaycanın bütün ərazilərində ucaldılaraq əzəmətlə dalğalandı.

Artıq beş ildir ki, zəfərimizi bayram edirik. Bu böyük tarixi hadisənin ildönümünə həsr olunmuş silsilə tədbirlər təşkil edilir. Noyabrın 8-də keçirilən, Azərbaycan Ordusunun Ermənistan üzərində qazandığı Qələbənin beş illiyinə həsr olunmuş möhtəşəm Hərbi parad isə yalnız bir hərbi tədbir deyil, eyni zamanda xalqımızın sevincini, qürurunu, dövlətimizin gücünü, eləcə də qardaşlıq birliyimizin simvolunu əks etdirən tarixi hadisəyə çevrildi.

Prezident İlham Əliyevin hərbi paradda çıxışında bildirdiyi kimi: "Bu gün isə Qarabağ və Şərqi Zəngəzur dirçəlir. Bu gün "Böyük qayıdış" proqramı icra edilir. Məktəblər, xəstəxanalar, sənaye müəssisələri, elektrik stansiyaları, su anbarları, evlər tikilir. Artıq 60 mindən çox insan azad edilmiş torpaqlarda yaşayır, çalışır və təhsil alır".

İşğaldan azad edilmiş Qarabağda və Şərqi Zəngəzurda "Böyük qayıdış" proqramı çərçivəsində həyata keçirilən tikinti, bərpa işləri sürətlə davam etdirilir və işğalçıların otuz ilə yaxın dağıtdıqları, yerlə yeksan etdikləri, xarabaya çevirdikləri ərazilərimiz abadlaşdırılır.

Bu gün Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycan regionun inkişafında, sülh və sabitliyin möhkəmlənməsində mühüm rol oynayır. Uğurlu xarici siyasəti sayəsində dövlətimizin nüfuzu dünyada gündən-günə güclənir. Bunu böyük qürurumuz olan 8 Noyabr - Zəfər Günü ərəfəsində dövlətimizin başçısı İlham Əliyevə ayrı-ayrı ölkələrin və nüfuzlu beynəlxalq təşkilatların rəhbərləri tərəfindən göndərilən təbrik məktubları da bir daha təsdiq edir.

8 Noyabr - Zəfər Günü münasibətilə qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğandan dövlətimizin başçısı İlham Əliyevə gələn məktubda qeyd olunub ki, azad edilmiş vətən torpaqlarının sürətli dirçəlişi və yenidən qurulmasında əldə edilən irəliləyiş təqdirəlayiqdir: "Bu əlamətdar günün ildönümündə Türkiyə kədərini öz kədəri, sevincini öz sevinci hesab etdiyi qardaş Azərbaycanın həm regionda, həm də ondan kənarda inamlı addımlarla nail olduğu irəliləyişin şahidi olmaqdan böyük qürur hissi keçirir".

Rəcəb Tayyib Ərdoğan təbrik məktubunda "Bir millət, iki dövlət" prinsipi ilə qurulmuş yüksəksəviyyəli münasibətlərimizin və öz gücünü ortaq taleyimizdən alan sarsılmaz qardaşlıq bağlarımızın keçmişdə olduğu kimi, bu gün də möhkəmlənməkdə davam etdiyini, güclü təməl üzərində qurulmuş müttəfiqlik münasibətlərimizin və bütün sahələrdə nümayiş etdirdiyimiz xüsusi əməkdaşlığın regional sülhün, etimadın və sabitliyin ən vacib sütunlarından birinə çevrildiyini diqqətə çatdırıb: "Şübhəsiz ki, Sizin müdrik rəhbərliyinizlə Can Azərbaycanın əldə etdiyi nailiyyətlər bundan sonra da regionumuzun çiçəklənməsinə əhəmiyyətli töhfələr verəcəkdir".

Pakistan İslam Respublikasının Prezidenti Asif Əli Zərdari Prezident İlham Əliyevə ünvanladığı təbrik məktubunda vurğulayıb: "Bu gün zati-alinizin uzaqgörən rəhbərliyi ilə Vətəninin suverenliyini və ərazi bütövlüyünü fədakarlıqla bərpa edən Azərbaycan xalqının əzmkar mübarizəsinin və qətiyyətinin qürurverici təntənəsidir. İşğal olunmuş ərazilərin azad edilməsi Azərbaycanın müasir tarixində ədalətin, dözümlülüyün və milli birliyin rəmzi olan əlamətdar bir nailiyyət kimi qalır".

Pakistan Prezidenti bu il Qələbə Gününün qeyd olunmasının Ermənistanla münasibətlərdə əhəmiyyətli inkişafdan sonra regionda davamlı sülhə doğru müsbət nəticələrin təşviq edilməsi ilə üst-üstə düşdüyündən xüsusi əhəmiyyət daşıdığını nəzərə çatdırıb. Qeyd edib ki, bu tarixi məqam hamı üçün sabitlik, əməkdaşlıq və firavanlıqla təmin olunacaq gələcəyin qurulması üçün yeni ümidlər doğurur.

Ölkəmizin şanlı bayramı - Zəfər Günü münasibətilə dövlətimzin başçısı İlham Əliyevi və bütün Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edən Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev vurğulayıb ki, bu möhtəşəm hadisə təkcə Azərbaycanın gücünü və böyük potensialını bütün dünyaya aydın şəkildə nümayiş etdirmədi, həm də regionda sülh, qarşılıqlı anlaşma və sabitliyin möhkəmlənməsi üçün əsaslı zəmin yaratdı.

"Son illərdə ölkənizə səfərlərim zamanı Qarabağ bölgəsində müasir infrastrukturun qurulmasının, mədəni irs abidələrinin bərpa edilməsinin, bu ərazilərdə yaşayan əhalinin həyat səviyyəsinin yüksəldilməsinin şahidi oluruq və səmimi bir qardaş kimi bu misilsiz nailiyyətlərdən böyük sevinc hissi keçiririk", - Özbəkistan Prezidentinin təbrik məktubunda bildirilib.

Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin dövlətimizin başçısı İlham Əliyevə ünvanladığı təbrik məktubunda bu əlamətdar tarixin müasir Azərbaycan tarixində xüsusi yer tutduğu, Azərbaycan xalqının ədalətə, sülhə və birliyə sarsılmaz iradəsini, suverenlik və müstəqillik prinsiplərinə möhkəm sadiqliyini təcəssüm etdirdiyi vurğulanıb: "Sizin müdrik və uzaqgörən rəhbərliyiniz, həyata keçirdiyiniz strateji kursa ümumxalq dəstəyi sayəsində Azərbaycan BMT Nizamnaməsinin və beynəlxalq hüququn əsas prinsiplərinə uyğun olaraq öz ərazi bütövlüyünü bərpa etmiş, dövlət quruculuğu salnaməsində davamlı və yaradıcı tərəqqinin yeni səhifəsini açmışdır.

Cənubi Qafqazda möhkəm sülhün və sabitliyin bərqərar edilməsinə yönəlmiş siyasətiniz beynəlxalq ictimaiyyət tərəfindən haqlı olaraq geniş dəstək qazanmışdır. Çünki bu siyasət uzunmüddətli əməkdaşlıq, qarşılıqlı etimad və bütün regionun davamlı inkişafı üçün əlverişli şərait yaradır".

ICESCO-nun baş direktoru Səlim bin Məhəmməd əl-Malik təbrik məktubunda vurğulayıb ki, bu tarixi hadisə təkcə Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə deyil, həm də ədalətin təntənəsi və Cənubi Qafqazda sülh, inkişaf və yenidənqurma sahələrində yeni bir dövrün başlanması ilə əlamətdardır: "Ərazilərin azad edilməsi xüsusən də Azərbaycan xalqının və bütün islam dünyasının kimliyini, mənəvi dəyərlərini təmsil edən mədəni irs sahəsində mühüm bərpa prosesinə yol açmışdır".

Azərbaycanın Zəfər Gününün beşinci ildönümü münasibətilə dövlətimizin başçısı İlham Əliyevə təbrik məktubu göndərən qardaş Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Fələstin Dövlətinin Prezidenti, Fələstin Azadlıq Təşkilatı İcraiyyə Komitəsinin sədri Mahmud Abbas, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Jelko Komşiç, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Jelka Tsviyanoviç, İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səud, Səudiyyə Ərəbistanı Krallığının vəliəhdi, Baş nazir Məhəmməd bin Salman bin Əbdüləziz Al Səud Azərbaycanın bu tarixi qələbəsi münasibətilə xoş arzularını ifadə ediblər.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Tarixin sınaqlarından Zəfərin zirvəsinə gedən yol

**Ordu vətənə sevgidən, dövlətə inamdan yaranır. Dövlətin bütövlüyü və millətin təhlükəsizliyi hər bir müstəqil ölkənin ən müqəddəs dəyəridir. Bu dəyərləri qoruyub yaşatmaq güclü, peşəkar və müasir orduya sahib olmaqdan keçir. Azərbaycan Ordusunun formalaşması və inkişafı təkcə bir hərbi qüvvənin yaradılması deyil, həm də dövlətçilik iradəsinin, milli özünüdərkin və tarixi yaddaşın möhtəşəm ifadəsidir. Hər bir dövlətin ordusu həm də onun xalqının iradəsinin güzgüsü, gücünün, qüdrətinin simvoludur.**

Bu gün ölkəmizin ordu quruculuğunda qət etdiyi yol strateji baxışın, ardıcıl siyasətin və dövlətimizin iqtisadi inkişafının inikasıdır. Dövlətimizin hərbi sahəyə verdiyi prioritet, milli ruhun orduda təcəssümü və modernləşmə xətti Azərbaycan Silahlı Qüvvələrini regionun ən güclü hərbi qüvvəsinə çevirib. Ordu quruculuğunun hər mərhələsi həm peşəkarlığın artması, həm texnoloji modernləşmə, həm də döyüş ruhunun yüksəlişi ilə müşayiət olunaraq, müasir Azərbaycan dövlətinin qürurla təqdim etdiyi strateji nailiyyətlərdir.

Azərbaycanda ordu quruculuğunu şərti olaraq üç mərhələyə bölmək olar. Birinci mərhələ müstəqilliyin ilk illəridir. Əslində, o illəri ordu quruculuğu dövrü adlandırmaq olmaz. Fikrimizi daha dəqiq ifadə etsək, o dövr ordu quruculuğu adı ilə imitasiyaların, xaotik idarəetmənin hökm sürdüyü bir mərhələ idi. Müstəqilliyini yenicə elan etmiş Azərbaycanın hərbi təhlükəsizlik sistemini yaratmaq əvəzinə bu işlə məşğul olan "məsul şəxslər" hərbi strukturları siyasi iddiaların və şəxsi ambisiyaların meydanına çevirmişdilər. O illərdə orduda peşəkarlıqdan uzaq, hərbi sahəyə heç bir aidiyyəti olmayan şəxslər vəzifələrə gətirilir, siyasi ritorikadan başqa funksiyası olmayan "Müdafiə şurası" kimi qondarma qurumlar yaradılırdı. Beləliklə, dövlətin ən zəruri dayağı siyasiləşdirilir, döyüş hazırlığı və müdafiə planlaması arxa plana keçirilirdi. Azərbaycanın müstəqilliyini istəməyən xarici qüvvələr bu xaosdan məharətlə istifadə edib, gənc dövlətin yaranmaqda olan müdafiə sisteminə istədikləri vaxt işə sala biləcəkləri "partlayıcı mexanizim" qoyurdular.

Dövlət idarəçiliyi təcrübəsi olmayan, populist şüarlarla hakimiyyəti ələ keçirən AXC-Müsavat qaragüruhu nizami ordu qurmaq əvəzinə başıpozuq silahlı dəstələr, yerli icra hakimiyyətinə tabe "birliklər" yaratmaqla siyasi intriqalara başçılıq edirdi. Elə bir vəziyyət yaranmışdı ki, demək olar, hər rayon rəhbərinin öz silahlı qruplaşması mövcud idi. Vətəni qorumaq üçün vahid ordu yaradılmalı idi, lakin mövcud silahlı qüvvələr faktiki olaraq, hakimiyyət uğrunda çəkişmələrin güc alətinə çevrilmişdi.

Xalq arasında deyildiyi kimi, "su çanağı suda sınar". Hakimiyyətə tankların üstündə gələnlər elə yarıtmaz siyasətlərinin nəticəsi olaraq hakimiyyətdən getdilər.

Həmin ağır, taleyüklü məqamda xalqın təkidli istəyi ilə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanda ordu quruculuğunda tamamilə yeni bir dövrün başlanğıcı oldu.

Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycan yalnız siyasi və iqtisadi fəlakətin astanasından qurtulmadı, həm də məhz dövlətçilik üçün həyati əhəmiyyət daşıyan nizami, peşəkar Milli Ordu quruculuğunda dönüş mərhələsi oldu. Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu tamamilə yenidən formalaşdırıldı, nizamsız silahlı dəstələr ləğv edildi, orduda vahid komandanlıq sistemi yaradıldı. Hərbi sahənin idarə olunması peşəkarların öhdəsinə verildi, şəxsi heyətin hazırlığı, nizam-intizam, təlim-tədris prosesi dövlət siyasətinin əsas prioritetlərindən birinə çevrildi. Heydər Əliyev ordunun sadəcə bir güc strukturu deyil, həm də dövlətçiliyin əsas sütunu olduğunu xüsusi olaraq vurğulayırdı. Məhz bu prinsipial yanaşma nəticəsində bu gün qürur duyduğumuz Azərbaycan Ordusunun əsası qoyuldu. Yeni hərbi məktəblər və təlim bazaları yaradıldı.

1994-cü ildə imzalanan atəşkəs razılaşması isə ordumuzun daha da gücləndirilməsi üçün əlverişli şərait formalaşdırdı. Bu illərdə Azərbaycan Ordusu nəinki gücləndirildi, həm də gələcək böyük qələbələrin təməli qoyuldu. Vətənə sədaqət, dövlətə bağlılıq döyüş hazırlığı və peşəkarlıq bu dövrdə ordunun əsas ideoloji dayağına çevrildi. Heydər Əliyevin həyata keçirdiyi strategiya sonrakı dövrdə özünü doğrultdu və Azərbaycan Ordusunun regionun ən güclü hərbi qüvvələrindən biri olmasının əsasını təşkil etdi.

Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi dövründə Azərbaycan Ordusu keyfiyyətcə yeni inkişaf mərhələsinə yüksəldi. Onu da qeyd edək ki, bu dövr artıq sadəcə ordu quruculuğu mərhələsi deyil. Bu dövr həm də ordunun modernləşməsi, hərbi sənayenin inkişafı, texnoloji yeniliklərin tətbiqi və nəticə olaraq qalib ordunun formalaşması mərhələsi kimi səciyyələndirilir. Prezident İlham Əliyevin "Güclü ordu - güclü dövlət deməkdir" strateji xətti Silahlı Qüvvələrin bütün sahələrində sistemli, ardıcıl və məqsədyönlü islahatlara yol açdı. Müasir silahlar, yüksəkdəqiqlikli pilotsuz uçuş aparatları, raket sistemləri, zirehli texnika, artilleriya vasitələri ordunun imkanlarını tamamilə yeni səviyyəyə yüksəltdi. Azərbaycanın müdafiə sənayesi inkişaf etdirildi, çoxsaylı hərbi zavodlar istifadəyə verildi və nəhayət, ölkə artıq müxtəlif növ texnikanı özündə istehsal edən dövlətə çevrildi. Silahlı Qüvvələrdə komanda idarəçiliyi, kadr məsələləri, döyüş təlimləri, xüsusi təyinatlıların hazırlığı inkişaf etdirildi.

Bu mərhələnin zirvəsi isə 2020-ci ildə Azərbaycanın qazandığı tarixi Zəfər oldu. 44 günlük Vətən müharibəsi təkcə ordunun gücünü deyil, həm də Heydər Əliyev məktəbinin, İlham Əliyev liderliyinin və illərlə aparılan sistemli siyasətin nəticələrini ortaya qoydu. Azərbaycan Ordusu həm döyüş qabiliyyəti, həm taktiki ustalığı, həm də əzm və ruh yüksəkliyi ilə müasir hərb tarixində misilsiz bir nümunə göstərdi. 2023-cü ilin antiterror tədbirləri nəticəsində isə ölkə ərazisində tam suverenlik bərpa edildi. Bu, artıq qalib ordunun qalib dövləti tamamladığı bir mərhələ idi.

Bu gün Azərbaycan Ordusu regionun ən güclü, ən hazırlıqlı və ən müasir ordularından biri kimi qəbul edilir. Bu nailiyyətlər dövlətçilik tariximizin möhtəşəm strategiyasının, Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi, Prezident İlham Əliyevin mükəmməl şəkildə tamamladığı ordu quruculuğu yolunun məntiqi nəticəsidir. Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley tədbirində iştirak edən dövlət başçısı İlham Əliyev Silahlı Qüvvələrimizin bugünkü vəziyyətini belə qiymətləndirib: "Bizim şanlı Vətən müharibəmiz. Bildiyiniz kimi, onun hər bir mərhələsi, hər bir günü öyrənilir, öyrənilib və bir çox beynəlxalq hərbi ali məktəblərində də tədqiq edilir. O cümlədən pilotsuz uçuş aparatlarının tətbiqi. Müharibədə məhz birinci biz bunu tətbiq etmişik. Bu gün müasir müharibələri bunsuz təsəvvür etmək mümkün deyil. Yəni bunun təməlini biz qoymuşuq və bu gün bu istiqamətdə Azərbaycanda çox böyük işlər görülür. Biz bu məhsulları həm xarici bazarlardan tədarük edirik, eyni zamanda özümüz də bir çox növdən ibarət pilotsuz uçuş aparatlarını istehsal etməyə başlamışıq və bunu davam etdirəcəyik".

Vətən müharibəsində Qələbənin 5 illiyi münasibətilə paytaxtın Azadlıq meydanında keçirilmiş Hərbi parad konkret olaraq ordumuzun gücünün və qüdrətinin nümayişi oldu. Bu parad yalnız bayram tədbiri deyildi - dövlətimizin sarsılmaz iradəsini, ordumuzun hazırlıqlı və sistemli olduğunu, həmçinin regionda Azərbaycanın strateji rolunu simvolizə etdi.

Azərbaycan Ordusunun yüksələn inkişaf yolu tariximizin sınaq və zəfərlərlə əlamətdar səhifələridir.

Ulu Öndər Heydər Əliyevin yaratdığı etibarlı təməl üzərində formalaşan, Prezident İlham Əliyevin qətiyyətli liderliyi və iradəsi ilə daha da güclənərək xalqımıza Zəfər yaşadan Azərbaycan Ordusunun inkişaf yolu hamımızın müşahidə etdiyi tarixi gerçəklikdir. Qələbənin 5 illiyinə həsr olunmuş parad bu inkişafın, bu gücün möhtəşəm nümayişi oldu. Ordumuz dövlətimizin etibarlı sütunu, xalqımızın qürurudur. Ordumuzun gücü qüdrətli Azərbaycan deməkdir.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*



**Noyabrın 8-də Bakının Azadlıq meydanında keçirilən, Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunan Hərbi parad Azərbaycan xalqına şanlı Zəfərimizin sevinc və qürurunu bir daha yaşatdı. Uzun müddət torpaqlarımızı işğal altında saxlayan Ermənistan və onun arxasında dayanan bəzi dövlətlər işğalçıya siyasi, iqtisadi və hərbi dəstək göstərirdi. Elə düşünürdülər ki, əzəli-əbədi torpağımız olan Qarabağı və Şərqi Zəngəzuru əlimizdən ala biləcəklər.**



# 8 Noyabr paradından verilən mesaj

## "Biz hərb istəmirik, hərbə hazırıq"

Tarix, zaman, dövlətimizin və xalqımızın polad iradəsi göstərdi ki, heç bir qəsbkar Azərbaycan torpağında bunu edə bilməz. Çünki Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyevin dediyi kimi, bizim siyasətimiz ərazi bütövlüyümüzü, suverenliyimizi tam bərpa etməkdən ibarət idi: "Hələ 2003-cü ildə ilk dəfə Azərbaycan Prezidenti vəzifəsinə seçiləndə mən bəyan etmişdim ki, nəyin bahasına olursa-olsun, biz öz doğma torpaqlarımızı azad edəcəyik. Biz güc toplayırdıq və aydan-aya, ildən-ilə gücümüz artırdı. Biz beynəlxalq arenada öz səsimizi ucalda bildik. Bütün aparıcı beynəlxalq təşkilatlarda ölkəmizin münaqişə ilə bağlı mövqeyi üstünlük təşkil edirdi. Bir çox qərar və qətnamələr bizim Zəfərimizin hüquqi və siyasi əsasını təşkil edirdi. Biz güclü iqtisadiyyat qurmuşduq. Əgər bunu etməsəydik, bizim maliyyə imkanlarımız çox məhdud idi. Biz iqtisadi müstəqillik qazanmışdıq və bu gün Azərbaycan iqtisadi cəhətdən heç bir ölkədən asılı deyil. Bu, bizə daha böyük siyasi güc verirdi. Biz müstəqil siyasət aparan ölkə idik. Bu amillər digər amillərlə bərabər, bizi şanlı Zəfərə yaxınlaşdırırdı".

Bəli, yalnız güclü dövlətin güclü ordusu olur. Dövlətimizin başçısı ölkəyə rəhbərlik etdiyi ilk gündən düzgün və məqsədyönlü siyasət yeridərək xalqımızı böyük Qələbəyə doğru apardı. Bu barədə Prezidentimiz bir çox çıxışında bəhs edib. Hərbi paradda da həmin fikirlər bir daha vurğulandı: "Biz enerji və nəqliyyat layihələrini uğurla həyata keçirərək bir çox ölkələr, böyük coğrafiya üçün əvəzolunmaz ölkəyə çevrildik. Bütün bu amillərlə bərabər, ordu quruculuğu hər zaman prioritet məsələ olaraq qalırdı. Biz güclü ordu, güclü Silahlı Qüvvələr yaratmışıq. Ordumuzun döyüş qabiliyyətini artırmışıq, ordumuzu ən müasir silahlarla, texnika ilə təchiz etmişik. Bütün bu və digər amillər bizim Qələbəmizi, şanlı Zəfərimizi şərtləndirmişdir".

Prezident, Ali Baş Komandan İlham Əliyev güclü Azərbaycan və müzəffər ordu yaratdı. Elə bir ordu ki, onun qarşısında heç bir qüvvə dayana bilmədi, ona heç nə maneə törədə bilmədi: "44 gün ərzində bizim şanlı Silahlı Qüvvələrimiz hər gün irəli gedirdi, bir gün bir addım geriyə atmamışdır. Böyük peşəkarlıq, rəşadət, qəhrəmanlıq və fədakarlıq göstərmişdir. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz bütün dünyaya güclü dövlət və müzəffər xalq kimi özümüzü göstərmişik. Bunu döyüş meydanında sübut etmişik. 44 gün ərzində döyüş meydanında 300-dən çox şəhər və kənd düşmənlərdən azad edildi. Biz düşməni qova-qova irəliyə gedirdik və azad edilmiş hər şəhər və kənd, orada qaldırılan Azərbaycan bayrağı bizim ordumuzu, xalqımızı daha da ruhlandırırdı".

Budur, indi sevinclə, qürurla, şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə sağlamlıq diləyə-diləyə şanlı Qələbəmizin 5 illiyini qeyd edirik. Ötən bu 5 il ərzində biz yalnız iftixar hissi keçirməklə kifayətlənməmişik. Bu gün Qarabağ və Şərqi Zəngəzur yenidən qurulur. İllərlə öz sahiblərinin nəfəsinə, ayaq izlərinə intizar qalan torpaq da, yurd-yuvası üçün həsrət çəkən insanlar da indi sevinirlər. Keçmiş məcburi köçkünlər ardıcıllıqla, mərhələ-mərhələ doğma yurda dönürlər. Hərbi paraddakı çıxışında Prezident İlham Əliyev bunları da vurguladı: "Bu gün "Böyük qayıdış" proqramı icra edilir. Məktəblər, xəstəxanalar, sənaye müəssisələri, elektrik stansiyaları, su anbarları, evlər tikilir. Artıq 60 mindən çox insan azad edilmiş torpaqlarda yaşayır, çalışır və təhsil alır. Bütün bu tarixi nailiyyətlərlə bağlı bir daha əziz xalqımı təbrik edirəm. Biz bu beş ili qürur hissi ilə yaşamışıq".

Bu qürur hissini bizimlə bərabər dost və qardaş ölkələr, xalqlar da keçirir. Təsadüfi deyil ki, hərbi paradda da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif xalqımızla birlikdə idi. Bir sıra dost və qardaş ölkələrin müdafiə nazirləri də gəlmişdilər. Digər hörmətli qonaqlarımız da vardı.

Qarabağın azadlığa qovuşmasının təkcə Azərbaycan üçün deyil, türk dünyası üçün də böyük bir qürur mənbəyi olduğunu vurğulayan Rəcəb Tayyib Ərdoğan ölkəmizlə əlaqələrin, o cümlədən iqtisadi əməkdaşlığın bundan sonra da davam edəcəyini diqqətə çatdırdı: "Hazırkı nöqtədə Can Azərbaycanın həm bölgəsində, həm də kənarda əldə etdiyi irəliləyişlərdən böyük qürur duyuruq. Aramızdakı müstəsna əlaqələr konkret strateji layihələrlə hər gün daha da güclənir. Xatırlayırsınız, "Əsrin müqaviləsi", "Azəri-Çıraq-Günəşli" başda olmaqla, Bakı-Tbilisi-Ceyhan xam neft boru kəməri, "Şahdəniz" və TANAP ilə taclandırdığımız əməkdaşlığımızı son olaraq İğdır-Naxçıvan təbii qaz boru kəmərinin istismara verilməsi ilə daha da möhkəmləndirdik. İndi bu əməkdaşlığımızı daha da inkişaf etdirmək və miqyasını genişləndirmək üçün səy göstəririk. Qafqazda yaradılacaq yeni marşrutların nəqliyyat və enerji tədarükü imkanlarını artırmasını gözləyirik. Xəzərdən keçən "Şərq-Qərb" Orta dəhlizini bölgədəki bütün qardaşlarımızın faydasına xidmət edəcək şəkildə sərmayələrlə inkişaf etdirməliyik. Bilavasitə Bakı-Tbilisi-Qars dəmir yolu xəttini ən səmərəli şəkildə istifadə etmək üçün Azərbaycanla birlikdə irəliyə doğru daha çox addımlar atacağımıza inanıram".

Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif isə paraddakı çıxışını bu sözlərlə tamamladı: "Yaşasın Pakistan-Azərbaycan dostluğu! Yaşasın Pakistan, Azərbaycan və Türkiyə dostluğu!"

Bu, hər birimizin qəlbindən keçən istək və arzudur.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## *"Euronews":* "Azərbaycanın hərbi paradı Cənubi Qafqazda yeni tarixi mərhələnin başlanğıcıdır"

**"Azərbaycan Qarabağ üzərində nəzarəti bərpa etməsinin ildönümünü qeyd edərək, Cənubi Qafqazda yeni sülh mərhələsinin əsasını qoydu ki, bu da həm ölkə, həm də bütün region üçün tarixi bir məqamdır".**




AZƏRTAC xəbər verir ki, bu fikir "Euronews" televiziya kanalının internet səhifəsində dərc olunan məqalədə qeyd olunub.

"Azərbaycanın hərbi paradı Cənubi Qafqazda yeni tarixi mərhələnin başlanğıcıdır" adlı yazıda qeyd olunub ki, hərbi paradda çıxış edən Prezident İlham Əliyev Azərbaycanın qazandığı Zəfərin regionun inkişafı üçün yeni perspektivlərin açdığını, ölkənin isə strateji və iqtisadi inkişafında böyük rol oynayacağını vurğulayıb. Qarabağda geniş yenidənqurma və bərpa işlərinin həyata keçirildiyini qeyd edib.

Azərbaycan Prezidenti hərbi paradda iştirak edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana və Pakistanın Baş naziri Şahbaz Şərifə 44 günlük Vətən müharibəsində Azərbaycana göstərdikləri dəstəyə görə təşəkkür etdi və bildirdi ki, bu, üç ölkənin - Azərbaycan, Türkiyə və Pakistan xalqları və ordularının birliyinin təzahürüdür.

Paradda çıxış edən Türkiyə Prezidenti deyib ki, Qarabağdakı Qələbə Asiya və Avropada geosiyasi tarazlığı yenidən formalaşdırdı və bölgəmiz üçün yeni bir dövrün qapılarını açdı. "Biz heç bir kin saxlamırıq və keçmişin ağrılı fəsadlarının təkrarlanmasına heç vaxt imkan verməyəcəyik" deyən R.T.Ərdoğan əlavə edib ki, Qafqazda sülh bütün regionun çiçəklənməsinə xidmət edəcək.

Məqalədə o da vurğulanıb ki, ötən həftə Bakıda NATO nümayəndə heyəti ilə görüşdə Prezident İlham Əliyev Azərbaycan Silahlı Qüvvələrinin NATO standartlarına uyğunlaşmaq niyyətində olduğunu və Türkiyə Ordusu ilə işlədiyini bildirib.

Avqust ayında ABŞ-nin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan liderləri onilliklərdir davam edən Qarabağ münaqişəsinə son qoymağı hədəfləyən müqavilə imzalayıblar. Ağ Ev bildirib ki, müqavilənin bir hissəsi olaraq, ABŞ Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutu (TRIPP) (Zəngəzur dəhlizi) adlandırılacaq mərkəzi tranzit dəhlizinin inşasına kömək edəcək. Bu dəhliz Azərbaycanın Naxçıvan və Türkiyə ilə əlaqələrini artırır. Həmçinin Azərbaycanın mühüm qlobal nəqliyyat və logistika mərkəzi kimi mövqeyini gücləndirir. Dəhliz eyni zamanda Ermənistana geniş ticarət şəbəkələrinə daha da inteqrasiya olunmaq, bərbad iqtisadiyyatını şaxələndirmək və xarici investisiyaları cəlb etmək üçün fürsət yaradır.

Geosiyasi baxımdan bu, Ermənistana qonşuları, xüsusən də Türkiyə ilə münasibətlərini normallaşdırmağa kömək edəcək.

## *Pakistanlı ekspert:* "Azərbaycan, Pakistan və Türkiyə üç ölkə, bir ürəkdir"

**"Azərbaycan, Türkiyə və Pakistan arasındakı dostluq bu gün dünyada ən səmimi və davamlı münasibətlərdən biridir".**



Beynəlxalq münasibətlər üzrə tanınmış pakistanlı ekspert Xalid Teymur Əkrəm bu barədə AZƏRTAC-a müsahibəsində bildirib.

Onun sözlərinə görə, bu əlaqə rəsmi diplomatiya çərçivəsindən daha da kənarda genişlənir, ortaq mənəvi dəyərlərə, qarşılıqlı hörmətə, tarixi yaxınlığa və oxşar ənənələrə əsaslanır.

Agentliyin həmsöhbəti vurğulayıb: "Çox vaxt "bir millət, iki dövlət" kimi təsvir edilən Azərbaycan və Türkiyə arasındakı münasibətlər ortaq dil, tarix və mədəniyyətlə möhkəmlənən unikal birliyin nümunəsidir. İki ölkənin xalqları bir-birini vahid bir ailə kimi qəbul edir. Pakistan da illərdir Azərbaycan və Türkiyə tərəfdaşlarına sarsılmaz dəstək göstərərək bu qardaşlıq hissini bölüşür".

Ekspert sözlərinə davam edərək bildirib ki, bu ittifaqın gücü xüsusən də Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa etmək uğrunda mübarizə apardığı illərdə özünü daha aydın şəkildə göstərib. "Ankara və İslamabad həmin vaxt Bakının ədalətli mövqeyini qətiyyətlə dəstəkləyərək beynəlxalq arenada onun qanuni hüquqlarını müdafiə edib. Bu dəstək əsl qardaşlığın təzahürü idi, eyni zamanda müttəfiqlərinə həmrəylik və prinsipiallığa görə minnətdarlığını bildirən Azərbaycan tərəfindən unudulmayıb", - deyə o qeyd edib.

Xalid Teymur Əkrəm noyabrın 8-də Vətən müharibəsində Qələbənin beşinci ildönümünü qeyd etmək üçün Bakıda keçirilən hərbi paradı böyük tarixi və rəmzi əhəmiyyətə malik bir hadisə kimi xarakterizə edib. Tədbir təkcə hərbi bayram deyil, həm də üç qardaş dövlətin birliyinin nümayişi idi. Onun fikrincə, paradda Azərbaycan və Türkiyə prezidentlərinin, eləcə də Pakistanın Baş nazirinin iştirakı ölkələr arasında yaranan qarşılıqlı anlaşma və etimadın dərinliyinin əyani təsdiqidir.

Ekspertin sözlərinə görə, Azadlıq meydanında çiyin-çiyinə dayanan üç liderin görüntüləri təkcə Azərbaycan vətəndaşlarında deyil, həm də beynəlxalq ictimaiyyətdə güclü təəssürat yaradıb: "Həmin an siyasi maraqlara deyil, ortaq dəyərlərə, qarşılıqlı dəstəyə və hörmətə əsaslanan vahid iradə və dostluğun rəmzinə çevrildi. Yan-yana dalğalanan Azərbaycan, Türkiyə və Pakistanın Dövlət bayraqları və onların himnlərinin təntənəli şəkildə səslənməsi üç ölkəni birləşdirən xüsusi mənəvi bağı əks etdirirdi".

Xalid Teymur Əkrəm vurğulayıb ki, parad sadəcə hərbi qüdrətin nümayişi deyil, həm də həmrəylik və inamın təntənəsi, ölkəsinə Qələbə gətirənlərə mənəvi güc və minnətdarlığın ifadəsi idi. O qeyd edib ki, Türkiyə və Pakistan müttəfiqlərinin iştirakı Azərbaycan üçün diplomatiyadan kənarda da əhəmiyyət kəsb edir - bu, bir ailə yaxınlığının təzahürüdür. Türkiyə və Pakistan üçün Azərbaycanın Zəfəri öz qələbəsi kimi qəbul edilir və bu, onların qardaşlığının dərinliyini bir daha nümayiş etdirib.

Ekspertin sözlərinə görə, üç ölkə arasında əlaqələr təhsil və müdafiə sahəsində əməkdaşlıqdan tutmuş ticarət və mədəni mübadilələrə qədər getdikcə artan sahələri əhatə edir. Bu əməkdaşlıq hər il güclənir, sülh, etimad və inkişafa əsaslanan ortaq gələcək üçün möhkəm təməl yaradır.

Xalid Teymur Əkrəm onu da qeyd edib ki, 8 Noyabr paradı təkcə hərbi şücaətin rəmzi deyil, həm də birliyin gücünün xatırlatmasıdır. Ekspert əmin olduğunu bildirib ki, Azərbaycan, Türkiyə və Pakistanın nümunəsi dünyaya səmimiyyət və qarşılıqlı dəstəyə əsaslanan ittifaqın nə qədər güclü ola biləcəyini nümayiş etdirir.

Ekspertin sözlərinə görə, bu gün Azərbaycan, Pakistan və Türkiyə bir ürək, ortaq bir arzuya sahib üç ölkədir. Onların dostluğu xalqlar arasında əsl qardaşlığın örnəyidir ki, bu da dünyaya sabitlik, güc və gələcəyə ümid gətirir.

# Möhtəşəm hərbi parad ordumuzun qüdrətini dünyaya bir daha göstərdi

**Tarixi günlər heç vaxt unudulmur, yaddan çıxmır. Əbədi olaraq yaddaşımıza yazılmış həmin günləri böyük iftixarla, sevinclə xatırlayırıq. Noyabrın 8-i Zəfər Günü də yaddaşımıza əbədi olaraq yazılmış günlərdəndir. Həmin gün Bakı şəhərində keçirilmiş Zəfərimizin 5-ci ildönümünə həsr olunmuş Hərbi paradı izlədikcə qürur hissləri keçirdik. Düşündük ki, bu gün Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Bu uğur, bu zəfər hamımızı sevindirir. Xalqımıza iftixar hissləri yaşadan bu uğurun bünövrəsini Ümummilli Liderimiz Heydər Əliyev qoyub. Ulu Öndərin əsasını qoyduğu nizami və güclü ordu quruculuğu siyasətini Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev uğurla davam etdirib.**

Ümummilli Lider Heydər Əliyev hələ sovet dövründə respublikamızda hərbi təhsilin inkişaf etdirilməsi istiqamətində bir sıra mühüm addımlar atmışdı. Cəmşid Naxçıvanski adına hərbi məktəbin keçmiş ittifaq illərində Bakıda açılması Ulu Öndər Heydər Əliyevin böyük xidmətlərinin nəticəsi idi.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı sayəsində sistemli ordu quruculuğu prosesi yeni keyfiyyət mərhələsinə yüksəldi. Görülən bütün bu tədbirlər nəticəsində Azərbaycan Ordusu, Silahlı Qüvvələrimizin tərkibindəki bütün qoşun hissələri yüksək döyüş hazırlığına gətirildi. Buna görə də qarşısına qoyulan istənilən tapşırığı yerinə yetirməyə qadir və hazırdır. Noyabrın 8-də keçirilən Zəfər paradı da göstərdi ki, ordumuz ən müasir texnika və silahlarla təmin olunub.

Onu da xüsusilə qeyd edək ki, ölkəmizin hərbi sənaye kompleksi də dayanmadan inkişaf edir. Müdafiə Sənayesi Nazirliyi xeyli adda hərbi məhsullar istehsal edir. Bu həm Silahlı Qüvvələrimizin təchizatında böyük rol oynayır, həm də beynəlxalq müstəvidə hərbi sənaye kompleksimizə, istehsal olunan silahlara və digər məhsullara marağı gündən-günə artırır.

Azərbaycan Ordusunun döyüş imkanlarının artırılmasını daim diqqət mərkəzində saxlayan Prezident İlham Əliyev demişdir: "Güclü ordu quruculuğu. Bu da Ulu Öndərin bizə olan vəsiyyəti idi. Bu gün Azərbaycan Ordusu artıq özünü təsdiqləyib, cəmi 44 gün ərzində düşməni tarixi torpaqlarımızdan qovub, tarixi ədaləti bərpa edib, xalqımızın qürurunu bərpa edib və bu gün Azərbaycan dövlətinin təhlükəsizliyinin qarantıdır. Biz ordu quruculuğuna həmişə çox böyük diqqət göstərmişik. Bəzi işlər ictimai diqqətə də təqdim edilirdi, bəzi işləri biz daha çox konfidensial, yəni məxfi şəraitdə aparırdıq, bu da başadüşüləndir. Amma nəticə etibarilə elə bir qəhrəmanlıq, elə bir peşəkarlıq göstərdik ki, bu, bu gün bir çoxları üçün nümunədir".

Böyük Zəfərimizin 5-ci ildönümündə ölkəmizin paytaxtında keçirilən möhtəşəm hərbi paradda qüdrətli Azərbaycan Ordusu gücünü, qüdrətini, İkinci Qarabağ müharibəsindəki rəşadətini, göstərdiyi hünərin qürurunu xalqımıza yenidən yaşatdı. Bir-birini əvəzləyən hərbi birləşmələr, nümayiş etdirilən İce breaker kimi super sonic raketlər, müxtəlif artilleriya qurğuları, DİTA strateji çəkindirici vasitələr və digərləri ordumuzun regionda sülhün və təhlükəsizliyin təminatçısı olduğunu dünyaya göstərdi. Əlbəttə ki, Zəfər paradında nümayiş etdirilən bu silahları bizi istəməyənlər də görür və nəticə çıxarırlar.

Paradda nizamla addımlayan heyətlərin arasında Xüsusi Təyinatlı Qüvvələrin keçidini də qürurla izlədik. Təbiidir ki, bu, yalnız o qüvvələrin bir hissəsi idi. Nümayiş etdirilən müasir aviasiya və hava hücümundan müdafiə sistemləri, uzaq mənzilli raket kompleksləri, yeni yaradılmış hərbi birləşmələr göstərir ki, Silahlı Qüvvələrimiz qüdrətini Vətən müharibəsindən ötən dövrdə daha da artırıb. Sevindirici haldır ki, dünya mediası da Zəfər paradı haqqında xoş sözlər yazıb, Azərbaycan Ordusunun inkişafının, tərəqqisinin göz qarşısında olduğunu vurğulayıb. Bütün bunlar hər bir azərbaycanlı üçün olduqca qürurvericidir.

Hərbi paradı izlədikcə ordumuzun yeni yaradılmağa başladığı 1993-cü ildəki dövrünü xatırladıq. İnkişaf və dəyişiklik həqiqətən müqayisəyəgəlməzdir. Bu mənada hərbi parad Birinci Qarabağ müharibəsi ilə Vətən müharibəsinin fərqini gözlər önünə sərdi. Bu gün Azərbaycan Silahlı Qüvvələri ən müasir silah və texnikaya, ən modern döyüş imkanlarına malik bir hərbi gücə sahibdir. Ali Baş Komandan İlham Əliyev Silahlı Qüvvələrimizi hətta 5 il əvvəllə müqayisədə əhəmiyyətli dərəcədə gücləndirib. Azərbaycan Ordusunun Zəfərlə başa vurduğu 44 günlük Vətən müharibəsi bir daha göstərdi ki, döyüş hazırlığı və təcrübəsi yüksək olan zabit, əsgər həmişə savaşda qalib gəlir, iştirakçısı olduğu əməliyyatlardan qələbə ilə çıxır.

Prezident İlham Əliyev ordumuzun gücləndirilməsi ilə bağlı həyata keçirilən tədbirlərdən danışarkən demişdir: "Əlbəttə, müharibədə uğur qazanmaq üçün biz çox önəmli layihələri icra etməli idik və etdik. Bu gün dünyanın və bizim bölgəmizin enerji-nəqliyyat xəritələrinə baxmaq kifayətdir ki, hər kəs görsün bizim təşəbbüsümüzlə icra edilən layihələr həm ölkəmizə, həm də bizim tərəfdaşlarımıza nə qədər böyük fayda gətirib. Bizim təşəbbüsümüzlə nəqliyyat və enerji layihələrində iştirak edən ölkələrin sayı onlarla ölçülür. Hələ indiki mərhələdə daha geniş vüsət alacaq və bütün bu ölkələr bizim təbii dostlarımızdır, müttəfiqlərimizdir. Eyni zamanda bu layihələr bizə əlavə maliyyə imkanı yaratdı. Biz ilk növbədə bu maliyyə imkanlarını hərbi potensialın gücləndirilməsinə yönəltdik. Mənim prezidentlik dövrümdə əgər dövlət büdcəsinin xərclərinə nəzər salsaq, görərik ki, birinci yerdə hərbi xərclərdir, birinci yerdə. Halbuki ölkənin başqa ehtiyacları var. Bir milyona yaxın məcburi köçkünün də problemlərini biz həll edirdik, onları da biz yeni evlərlə təmin edirdik. Sosial problem, maaşlar, pensiyalar, bunları da biz artırmalı idik və artırırdıq. Daha çox artırmaq istəyirdik və istəyirik. Ancaq ilk növbədə orduya, ilk növbədə Qələbəyə aparan yola daha böyük maliyyə dəstəyi verirdik. Bu gün də belədir".

Dövlət başçısı Zəfər paradında çıxışı zamanı İkinci Qarabağ müharibəsində qazandığımız uğurlardan bəhs edərkən bildirmişdir ki, 44 gün ərzində bizim şanlı Silahlı Qüvvələrimiz hər gün irəli gedirdi, bir gün bir addım geriyə atmamışdır: "Biz bütün dünyaya güclü dövlət və müzəffər xalq kimi özümüzü göstərmişik. Bunu döyüş meydanında sübut etmişik. 44 gün ərzində döyüş meydanında 300-dən çox şəhər və kənd düşmənlərdən azad edildi. Biz düşməni qova-qova irəliyə gedirdik və azad edilmiş hər şəhər və kənd, orada qaldırılan Azərbaycan bayrağı bizim Ordumuzu, xalqımızı daha da ruhlandırırdı. Nəhayət, noyabrın 8-də "alınmaz qala" sayılan Şuşa şəhəri erməni işğalçılarından azad edilmişdir. Bizim şanlı Zəfər yürüşümüz 27 sentyabrdan 8 noyabra qədər uğurla davam edirdi. Biz dağlardan, çaylardan, dərələrdən keçərək, sıldırım qayalara dırmaşaraq şanlı Zəfərə doğru gedirdik. Şuşanın düz beş il bundan əvvəl azad edilməsi Ermənistan ordusunun belini qırdı və ondan sonra onlar təslim oldular. Ondan bir gün sonra - noyabrın 9-dan 10-na keçən gecə Ermənistan rəsmən təslim olaraq kapitulyasiya aktına imza atdı. Beləliklə, ərazi bütövlüyümüzü, tarixi ədaləti, beynəlxalq hüququ və milli ləyaqətimizi biz özümüz bərpa etdik".

Böyük Zəfərimizin 5-ci ildönümü münasibətilə keçirilən Hərbi paradı xalqımız sevinclə izlədi. Hamımız Silahlı Qüvvələrimizin uğurlarından qürur duyduq, şəhidlərimizi ehtiramla andıq.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Azərbaycanın xarici siyasətinin uğurları

**Azərbaycanı dünyaya daha yaxından tanıdan faktorlardan biri ölkəmizin beynəlxalq tədbirlərin keçirildiyi mərkəzə çevrilməsidir. Respublikamızdakı mövcud imkanlar, ən əsası mükəmməl infrastruktur və siyasi-ictimai sabitlik istənilən beynəlxalq tədbirin uğurla keçirilməsini şərtləndirir. Ən mühümü də odur ki, bu tədbirlər artıq Bakı ilə məhdudlaşmayaraq regionları, o cümlədən Qarabağ və Şərqi Zəngəzuru əhatə edir.**



## COP29 Azərbaycanın növbəti uğuru kimi tarixə düşdü

### Bir il əvvəl Bakıda keçirilən bu tədbir qlobal razılaşmaların əldə edilməsi ilə yadda qaldı

Hər bir tədbir Azərbaycanın uğurlu qlobal təqdimatıdır. Bu baxımdan 2024-cü ilin bu günlərində Bakıda keçirilən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) müstəsna əhəmiyyət kəsb etdi. Ötən il 11-22 noyabr tarixlərində keçirilmiş COP29 beynəlxalq miqyasda mühüm siyasi hadisəyə çevrildi.

Öncə onu qeyd edək ki, COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı qərar COP28-in 2023-cü il dekabrın 11-də keçirilən plenar iclasında verilmişdi. Dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-un Azərbaycanda keçirilməsi barədə qərar respublikamızın mühüm siyasi beynəlxalq uğuru idi. Eyni zamanda bu, Azərbaycana olan beynəlxalq etimadın növbəti nümunəsinə çevrildi. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu, Azərbaycana olan hörmətin əlaməti idi: "COP29-a evsahibliyi edəcək ölkə kimi yekdil qərarla seçilmək bizim üçün həqiqətən böyük şərəfdir. Biz bunu beynəlxalq ictimaiyyətin Azərbaycana və gördüyümüz işlərə, o cümlədən "yaşıl enerji" sahəsindəki fəaliyyətimizə hörmətinin əlaməti hesab edirik".

Buna qədər ölkəmizdə keçirilmiş digər beynəlxalq tədbirlər kimi, COP29 da yüksəksəviyyəli təşkilatçılığı ilə yadda qaldı. Azərbaycan bu dəfə də ideal təşkilatçılıq nümunəsi ortaya qoydu. Müddətin qısa olmasına baxmayaraq, Azərbaycan COP-un rahat və yüksək səviyyədə keçirilməsi üçün bütün lazımi hazırlıqları həyata keçirdi. Respublikamıza gələn xarici nümayəndə heyətlərinin üzvləri də təşkilatçılığın və kommunikasiya məsələlərinin yüksək səviyyədə olduğunu bildirdilər, xüsusi qonaqpərvərliklə qarşılandıqlarını dedilər. Azərbaycana gələn xarici qonaqlar həm də respublikamızın yüksəlişi, xalqımızın 44 günlük Vətən müharibəsi və antiterror tədbirlərindəki tarixi zəfərləri ilə daha yaxından tanış oldu, bu barədə obyektiv məlumatlar aldılar. Beləliklə, COP29 Azərbaycanın uğurlarının, zəfərlərinin beynəlxalq miqyasda tanıdılmasında mühüm əhəmiyyət kəsb etdi.

COP29 həm də antiazərbaycançı və ermənipərəst dairələrə vurulan növbəti zərbə oldu. Məlum olduğu kimi, COP29-un Azərbaycanda keçirilməsi barədə qərar qəbul olunandan sonra erməni təəssübünü çəkən dairələr ölkəmizə qarşı qarayaxma kampaniyasına start vermişdilər. Bəzi ölkələr və təşkilatlar tərəfindən dövlət və hökumət başçılarına COP29-da iştirak etmək üçün Bakıya getməmələri ilə bağlı çağırışlar edilirdi. Avropa Parlamenti isə bu çirkin kampaniyanın xüsusi iştirakçısı idi. Bu da əsasən onların Azərbaycanın 44 günlük müharibədəki zəfəri və Qarabağda erməni separatçılığına son qoyması ilə barışa bilməmələrindən irəli gəlirdi.

Lakin antiazərbaycançı dairələrin bu qərəzli və çirkin niyyətlərinin heç biri baş tutmadı. COP29-da iştirak etmək üçün Bakıya 80-dən artıq dövlət və hökumət başçısı gəldi. Ümumilikdə isə COP29-da 200-ə yaxın ölkənin nümayəndələri iştirak etdilər. Bu həm Prezident İlham Əliyevə, həm də Azərbaycana olan yüksək hörmətdən, ehtiramdan xəbər verirdi.

COP29 tarixi uğurlar və həllini gözləyən bir çox məsələ üzrə mühüm qərarlarla yadda qaldı, bu beynəlxalq tədbirdə 52 məsələ üzrə qərar qəbul edildi.

Konfransın ən vacib nailiyyəti inkişaf etməkdə olan ölkələrin COP29-dan əsas gözləntisi - "Yeni Kollektiv Kəmiyyət Hədəfi" üzrə konsensusun əldə olunmasıdır. Qərarda 2035-ci ilə qədər bütün dövlət və özəl mənbələrdən inkişaf etməkdə olan ölkələrə yönəldilən iqlim maliyyəsinin illik əsasda 1,3 trilyon ABŞ dollarına çatdırılması üçün çağırış edilib. Bununla yanaşı, 2035-ci ilə qədər inkişaf etmiş ölkələr tərəfindən inkişaf etməkdə olan ölkələrə iqlim fəaliyyəti ilə bağlı hər il ən azı 300 milyard ABŞ dolları məbləğində iqlim maliyyəsi razılaşdırılıb. Bu rəqəm 2009-cu ildə qeyd edilən məqsədə 100 milyard ABŞ dolları məbləğində müəyyən edilmiş iqlim maliyyəsindən 3 dəfə artıqdır. Müzakirələr ilkin olaraq 200 milyard dollar rəqəmi ətrafında gedirdi. Ancaq Azərbaycanın uğurlu moderatorluğu ilə bu rəqəm 300 milyard dollara qaldırıldı. Bu, inkişaf etməkdə olan ölkələrə iqlim dəyişmələrinin fəsadları ilə daha intensiv mübarizə aparmaqda kömək edəcək.

COP29-un digər uğuru Paris Sazişinin beynəlxalq karbon bazarlarına dair 6-cı maddəsinin tam işlək vəziyyətə gətirilməsidir. 10 il idi bu məsələ üzrə uğur əldə olunmurdu. Bununla bağlı razılığın əldə olunması COP29 sədrliyinin önəm verdiyi əsas prioritet məsələlərdən biri idi. 6-cı maddə ilə bağlı yekdilliklə qəbul edilən qərar ətraf mühitin bütövlüyünü, şəffaflığı və karbon bazarlarının möhkəmliyini təmin etməkdə mühüm rol oynayacaq.

Daha bir tarixi hadisə inkişaf etməkdə olan ölkələrin, o cümlədən kiçik ada, ən az inkişaf etmiş və Afrika dövlətlərinin səbirsizliklə gözlədikləri İtki və Zərər Fondunun tam fəaliyyətə başlamasını təmin edən qərarın qəbul olunmasıdır. İtki və Zərər Fonduna ölkələr tərəfindən vəd edilən maliyyə vəsaitinin həcmi 730 milyon dollardan çoxdur. Bu baxımdan İtki və Zərər Fondunun fəaliyyətə başlaması COP29 sədrliyinin növbəti böyük uğuru oldu.

Digər qərarlar Bakı Adaptasiya Yol Xəritəsinin qəbul olunması, illik əsasda növbəti COP-larda Adaptasiya üzrə yüksəksəviyyəli Bakı Dialoqunun keçirilməsinin razılaşdırılması, Texnologiya İmplementasiya Proqramının işə salınması, Yerli İcmalar və Köklü Xalqlar üzrə Platformanın 2025-2027-ci illər üzrə Bakı İş Planının təsdiq edilməsi və digər istiqamətlər üzrə önəmli məsələləri əhatə edir.

"Mən Bakı nailiyyətini çoxtərəfliliyin təntənəsi kimi qiymətləndirirəm. COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir və mən inanıram ki, bu irs gələcək qlobal iqlim fəaliyyətinə müsbət təsir göstərəcək", - deyə Prezident İlham Əliyev bildirib.

Azərbaycan ötən ilin noyabrında Prezident İlham Əliyevin rəhbərliyi ilə COP tarixində ən uğurlu sessiyaya evsahibliyi etdi. Məhz COP29-da əvvəlki danışıqlarda həll oluna bilməyən məsələlər üzrə tarixi razılaşmalar əldə edildi. Bu baxımdan COP29 həm də Azərbaycanın növbəti qlobal uğuru oldu.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

## *Amerikalı ekspert:* "COP29 ətraf mühitə fayda verəcək dövlət siyasətlərini formalaşdıran ən vacib qlobal tədbir kimi xatırlanacaq"

**"Dünya tarixində havanın keyfiyyətini yaxşılaşdırmaq, təmiz su ehtiyatlarını qorumaq, torpaq elmlərini təkmilləşdirmək, kənd təsərrüfatını gücləndirmək və atmosfer elmini dəstəkləmək üçün keçirilən digər qlobal toplantılardan fərqli olaraq, Bakıda keçirilmiş COP29 Yer kürəsinə və ümumi ətraf mühitə fayda verəcək dövlət siyasətlərini ciddi şəkildə formalaşdıran ən vacib qlobal tədbir kimi xatırlanacaq".**

Bu sözləri AZƏRTAC-a açıqlamasında beynəlxalq münasibətlər üzrə amerikalı ekspert Piter Teyz deyib.

O, COP30-a da toxunaraq bildirib ki, ABŞ tərəfindən tətbiq edilən əhəmiyyətli ticarət tariflərindən Braziliya çox ağır zərbə alıb və hökumət Cənubi Amerika ölkələrinə qarşı proteksionist tədbirlər tətbiq edir.

O bildirib ki, COP29 möhtəşəm təşkilatçılığı və evsahibliyi ilə tarixə düşüb. Bakı inkişaf və memarlığı, qlobal əhəmiyyətli tədbirlərdə iştirak etmək üçün çox sayda beynəlxalq qonağı qarşılaya biləcək Konqres mərkəzləri ilə ən yaxşı şəhərə çevrilib. Ekspert Bakıda keçirilən konfrans zamanı iqlim maliyyəsi, İtki və Zərər Fondu, Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr (NDC), emissiyaların azaldılması, karbon bazarları kimi çox vacib qlobal məsələlərə baxıldığını xatırladaraq, Belemdə bu məsələlərdən çox güman ki, yan keçiləcəyini bildirib.

## "Tramp Mərkəzi Asiya liderləri ilə görüşündə TRIPP dəhlizini Orta dəhlizin mühüm hissəsi kimi qeyd edib"

**"Azərbaycan və Ermənistan arasında bərqərar olan sülh Zəngəzur dəhlizini daha geniş mənada Orta dəhlizin real və arzuolunan bir hissəsinə çevirir".**

Bu sözləri AZƏRTAC-a açıqlamasında amerikalı ekspert, Xəzər Siyasəti Mərkəzinin Təhlükəsizlik və Siyasi Proqramının sədri və idarə heyətinin üzvü Riçard Hoqland deyib. O bildirib ki, Orta dəhliz ən azı on ildir ki, inkişaf edir və əsasən Çinin təşəbbüsü və rəhbərlik etdiyi bu layihə Mərkəzi Asiya üçün mühüm iqtisadi inkişaf yaradır. R.Hoqland əlavə edib ki, ABŞ Prezidenti Donald Trampın Ağ Evdə Mərkəzi Asiyadan olan beş prezidentlə görüşü müsbət və alqışlanan hadisə idi. Onun sözlərinə görə, bu, ABŞ-nin Mərkəzi Asiya dövlətlərinin çoxvektorlu xarici siyasətində əsas oyunçu olduğunu göstərir və görüş açıq şəkildə C5 konsepsiyasını bir daha təsdiqləyir.

"Prezident Tramp Mərkəzi Asiya liderləri ilə son görüşündə Cənubi Qafqazdan keçən TRIPP dəhlizini Orta dəhlizin mühüm hissəsi kimi qeyd edib. Orta dəhlizdə ticarət və nəqliyyat artsa, onun daha da inkişaf etdirilməsinə ehtiyac var. ABŞ şirkətlərinin Orta dəhliz boyunca layihələrə sərmayə qoyması üçün ev sahibi ölkələr öz iqtisadi siyasətlərinin, ticarət və gömrük təcrübələrinin və biznes qanunlarının beynəlxalq standartlara cavab verməsini təmin etməlidirlər. ABŞ hökuməti bu inkişaf və təkmilləşdirmələrə kömək etməyə hazırdır", - deyə amerikalı ekspert qeyd edib.

## *Rusiyalı professor:* "Azərbaycan Avrasiya logistikasının əsas qovşağına çevrilir "

**İ.M.Qubkin adına Rusiya Dövlət Neft və Qaz Universitetinin professoru Valeri Bessel AZƏRTAC-a müsahibəsində "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Marşrutunun perspektivləri, Azərbaycanın yeni Avrasiya logistika arxitekturasının formalaşmasında rolu və regionda əsas marşrutların inkişafına təsir edən geosiyasi amillər barədə fikirlərini bölüşüb.**




*- "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Marşrutunun cari vəziyyətini necə qiymətləndirirsiniz və hazırda onun inkişafını hansı amillər formalaşdırır?*

- Bu layihə müstəsna əhəmiyyət kəsb edir. Onun aktuallığı Şimal dənizi yolunun tədricən buzdan təmizlənməsindən irəli gəlir. Bu, təxminən hər 300 min-400 min ildə bir dəfə baş verən Yer kürəsi qabığının istiləşməsinin təbii prosesidir. Bu, insan fəaliyyəti ilə deyil, planetin yer qabığında baş verən obyektiv dinamik dəyişikliklərlə bağlıdır.

Şimal dənizi yolu Şimal Buzlu okeanı tam açıldıqda, Asiyadan Avropaya, Amerikaya, Şərqə və Qərbə yüklərin daşınması üçün ən qısa yol olacaq. Gec-tez Avropa həyati maraqlarına uyğun olaraq öz inkişaf ideyasına qayıdacaq.

Qeyd etmək lazımdır ki, "Şimal-Cənub" dəhlizi bir neçə istiqamətdə həyata keçirilə bilər. Müxtəlif ölkələr və ittifaqlar onun həyata keçirilməsi üçün fərqli variantlar uğrunda mübarizə aparır, çünki gözlənilən tranzit trafikinin həcmi çox böyük olacaq. Bir çox qlobal aktor da bu axına nəzarət etməyə çalışır. Marşrutlar uğrunda rəqabət labüddür, lakin sonda maraqlar balansının tapılacağına inanmaq üçün əsas var. Bu, Azərbaycan da daxil olmaqla, ölkələr üçün son dərəcə perspektivli və gəlirli bir marşrutdur.

*- Layihənin praktiki icrası kontekstində Azərbaycan, İran və Rusiya nümayəndələri arasında bu yaxınlarda Bakıda keçirilən görüş (nəqliyyat, enerji və gömrük əməkdaşlığı üzrə üçtərəfli görüş bu ilin 13 oktyabrında Bakıda keçirilib - red.) nə dərəcədə əhəmiyyətli idi?*

- İstənilən görüş heç vaxt görüşməməkdən yaxşıdır. Əldə edilən istənilən danışıqlar və razılaşmalar onların olmamasından daha üstündür. Məsləhətləşmələrin təfərrüatlarını bilmirəm, amma tamamilə əminəm ki, peşəkar diplomatlar heç vaxt danışıqların bütün təfərrüatlarını açıqlamayıb və bu, tamamilə haqlı yanaşmadır.

İlham Heydər oğlu Əliyev ciddi sovet diplomatik məktəbinin nümayəndəsidir və o, həddindən artıq təbliğatın prosesi yalnız çətinləşdirə biləcəyini çox yaxşı başa düşür. Şübhəsiz ki, bu cür görüşlər silsiləsi müsbət nəticələrə gətirib çıxaracaq.

Texnoloji cəhətdən dəhliz layihəsi artıq başa çatmaq üzrədir. İran stansiyasını Azərbaycan sərhədi ilə birləşdirən üç dəmir yolu hissəsindən ikisi artıq tikilib, üçüncüsü isə son mərhələdədir. İnfrastruktur investisiyaları davam edərsə, konteyner daşımaları cənubdan şimala və geriyə nəhəng həcmdə yüklərin daşınmasını təmin edəcək. Bu, Pakistan, Hindistan və Çin də daxil olmaqla regiondakı bütün ölkələr üçün faydalıdır, çünki Pakistan Çinin əsas tərəfdaşıdır. Əlbəttə ki, bu prosesdə maraqlı olmayan güclər də var, lakin buna baxmayaraq, müsbət inkişafa ümid etmək üçün hər cür səbəb mövcuddur.

*- Azərbaycanın "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizləri arasında əsas əlaqə nöqtəsinə çevrildiyini və Avrasiya marşrutlarının yeni strateji konfiqurasiyasını formalaşdırdığını söyləmək olarmı? Eyni zamanda Mərkəzi Asiya, Qafqaz və Avropanı birləşdirən və Azərbaycanın da əsas rol oynadığı yeni bir logistika arxitekturasının formalaşmasından danışmaq mümkündürmü?*

- Azərbaycanın coğrafi və geosiyasi mövqeyi onu Avrasiya nəqliyyat proseslərində həqiqətən əsas iştirakçıya çevirir. Bundan əlavə, Azərbaycan xalqı həmişə müdrikliyi, çalışqanlığı və təşəbbüskarlığı ilə seçilib. Azərbaycanda həm şərqdən qərbə, həm də şimaldan cənuba tranzit axınları üzərində dayanıqlı və səmərəli iqtisadi sistemin qurula biləcəyini çox yaxşı başa düşürlər.

Rusiyanın Qərb qonşularının tranzit yollarının əhəmiyyətli bir hissəsini faktiki olaraq bağladığı hazırkı vəziyyətdə Azərbaycanın rolu həqiqətən strateji xarakter alır. O, Şərqlə Qərb, Orta Asiya, Qafqaz və Avropa ölkələri arasında təbii körpü rolunu oynayır.

## *Mehmet YÜCE:* "Yeni layihələr Azərbaycanın Avrasiya nəqliyyat sistemindəki mərkəzi rolunu daha da möhkəmləndirir"

**"Hər bir nəqliyyat dəhlizi təkcə texniki marşrut deyil, eyni zamanda fərqli geosiyasi oxları təmsil edən strateji güc vasitəsidir. Bu kontekstdə "Şimal-Cənub" nəqliyyat dəhlizi Orta və Zəngəzur dəhlizləri kimi "Şərq-Qərb" istiqamətli layihələri tamamlayıcı xarakter daşıyır və Azərbaycanın Avrasiya nəqliyyat sistemindəki mərkəzi rolunu daha da möhkəmləndirir. Son dövrlərdə Bakıda Azərbaycanın və Rusiyanın Baş nazir müavinləri ilə İranın nəqliyyat naziri arasında keçirilən görüşlər dəhlizin texniki, hüquqi və maliyyə aspektlərinin yetkinləşdiyini göstərir. Bu xətt Hind okeanından Baltik limanlarınadək ən qısa və iqtisadi əlaqəni təmin etməklə Azərbaycanı Avrasiya logistikasında mərkəzi tranzit ölkəyə çevirir. İstiqamətləri və ticarət axınları fərqli olduğuna görə, "Şimal-Cənub" nəqliyyat dəhlizi ilə Orta dəhliz bir-birinə rəqib deyil, əksinə, bir-birini tamamlayan iki əsas Avrasiya xəttidir".**






Bu sözləri AZƏRTAC-a açıqlamasında Türkiyənin Uludağ Universitetinin professoru, iqtisadçı, türk dünyası üzrə mütəxəssis Mehmet Yüce söyləyib.

O, "Şimal-Cənub" nəqliyyat dəhlizinin xüsusilə Hindistan üçün vacib fürsət yaratdığını qeyd edib. Professor bunun səbəbini isə dəhlizin Hind okeanından Rusiyaya və Avropaya uzanan yeni ticarət xəttinin qurulmasının mümkünlüyü kimi dəyərləndirib: "Lakin Azərbaycan Hindistanın Ermənistanı silahlandırması, Modi hökumətinin islamofob siyasəti və Bakıya qarşı diplomatik mövqeyi kimi amilləri nəzərə alaraq, Hindistanın dəhlizdəki rolunu "strateji seçim" deyil, "şərtli və riskli tərəfdaşlıq" kimi qiymətləndirir. Bu səbəbdən Azərbaycanın Hindistanı dəhlizdən kənarlaşdırmaq potensialına malik olması güc siyasətinin klassik elementi olan "seçici iştirak" və "strateji veto" mexanizminin təzahürüdür".

O bildirib ki, Hindistanın Azərbaycana qarşı sərt siyasəti onun Cənubi Qafqazda təsirini zəiflədir, bu ölkəni həm Xəzər regionundakı proseslərdən, həm də türk dünyasında formalaşan yeni əməkdaşlıq və ittifaq quruluşlarından uzaqlaşdırır. Əvəzində Azərbaycan-Türkiyə-Pakistan üçtərəfli əməkdaşlığı regional infrastruktur səviyyəsində yeni bir təhlükəsizlik kompleksi formalaşdıraraq Hindistanın bölgədəki manevr imkanlarını daha da məhdudlaşdırır. Pakistanın Ermənistanla diplomatik təmaslara başlaması belə Hindistanın bölgədə getdikcə daha az təsirli aktor kimi qəbul olunduğunu göstərir.

Beynəlxalq münasibətlər nəzəriyyəsinə əsasən, regional güclər təhlükəsizlik və təsir sahələrini genişləndirmək üçün elastik ittifaqlar qurur, rəqib aktorları isə istisnaedici strategiyalarla çevrələyir və ya marjinallaşdırırlar. Bu gün Cənubi Qafqazda bu çevrələmə davranışının əsas hədəfi Hindistandır.

"Nəticə etibarilə Zəngəzur və "Şimal-Cənub" nəqliyyat dəhlizi kimi layihələr sadəcə texniki infrastruktur sərmayələri deyil, həm də regional güc arxitekturasını müəyyən edən strateji sistemqurucu alətlərdir. Hindistan-İran-Ermənistan üçlüyü formalaşdırdığı xətlə Azərbaycan-Türkiyə-Pakistan ittifaqının yüksəlişi qarşısında getdikcə müdafiəçi mövqeyə çəkilir. Türk dünyası mərkəzli inteqrasiya layihələri isə Cənubi Qafqazda güc bölgüsünü yenidən müəyyən edən yeni bir geosiyasi tarazlıq formalaşdırır. Bu baxımdan Hindistanın prosesdən kənarlaşdırılması təkcə Azərbaycanın reaksiya xarakterli addımı deyil, regional ittifaq siyasətinin təbii nəticəsidir", - deyə Mehmet Yüce fikirlərini tamamlayıb.

# Rəqəmsallaşmaya xüsusi önəm verilməlidir

Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyində çıxış edən Prezident İlham Əliyev strateji əhəmiyyətli bir sıra məsələlərə toxunub və elmimizin gələcək inkişaf perspektivləri ilə bağlı mühüm istiqamətləri müəyyən edib.



Bu barədə "Azərbaycan" qəzetinə açıqlama verən Milli Məclisin deputatı Elman Nəsirov deyib ki, Ulu Öndər Heydər Əliyev Milli Elmlər Akademiyasının inkişafı, onun elmi potensialının gücləndirilməsi məsələlərinə həmişə diqqət yetirib: "Cənab Prezident bildirib ki, Ümummilli Lider hələ 1993-cü ildə elm adamları və ziyalılarla məhz AMEA-nın binasında görüşmüşdü. O zaman maliyyə imkanları kifayət qədər məhdud, xəzinə demək olar ki, boş idi. Buna baxmayaraq, AMEA-nın inkişafı üçün maliyyə vəsaiti ayrıldı. Prezident İlham Əliyev bütün istiqamətlərdə olduğu kimi, elmi inkişaf sahəsində də Ulu Öndər Heydər Əliyevin siyasətini davam etdirir və son 10 il ərzində AMEA-nın maliyyələşdirilməsi ilə bağlı xərclərin iki dəfədən çox artırılması bunu təsdiq edir".

Prezident İlham Əliyevin, - "Hər bir dövlət ilk növbədə öz elminin inkişafı ilə tərəqqiyə nail olur, resurslar dövlətin inkişafının əsası deyil, inkişaf üçün bir vasitədir", - fikirlərini xatırladan deputat bildirib ki, bugünkü qlobal reallıqlar hər bir dövlətin inkişafının əsasında dayanan əsas amillərin ilk növbədə intellektual potensial, texnoloji və elmin inkişafının olduğunu göstərir: "Azərbaycan da məhz bu yolu seçib, gələcəyimiz bu sahələrdəki inkişafdan birbaşa asılıdır. Bu kontekstdə cənab İlham Əliyev vurğulamışdır ki, biz ilk növbədə yeni reallıqlar fonunda süni intellektin inkişafı məsələlərinə xüsusi önəm veririk. AMEA 10 il bundan öncə 70 illiyini qeyd edərkən bu məsələlər heç gündəmdə yox idi, heç süni intellektdən danışan da yox idi. Bu gün isə artıq inkişafın əsas trendidir. Biz də qabaqcıl ölkələr sırasında süni intellekt məsələlərinə xüsusi önəm veririk. Bu, texnoloji inkişaf əsasında dayanan fundamental məsələlərdən biri olmalıdır".

E.Nəsirov dövlət başçısının kiberhücumlar məsələsinə toxunaraq bu il ölkəmizə qarşı kiberhücumların olduğunu diqqətə çatdırdı. Belə hücumlara qarşı güclü immunitetimiz, hazırlığımız və mübarizə üsullarımız olmalıdır və özümüzü belə təhdidlərdən qorumalıyıq.

Prezident İlham Əliyev çıxışı zamanı rəqəmsallaşma məsələlərini önə çəkdi və qeyd etdi ki, müasir dünyamızda rəqəmsallaşma artıq inkişafın bir göstəricisidir. E.Nəsirovun sözlərinə görə, hər hansı bir dövlətin iqtisadi və texniki inkişafının kökündə dayanan səbəblərdən biri məhz rəqəmsallaşmadır. Xüsusilə iqtisadiyyatın inkişafı bu məsələlərdən son dərəcə asılıdır. Dünya rəqəmsallaşmaya gedir və biz bunun fərqində olmalı, bu sahəyə xüsusi önəm verməliyik. Bu sahədə alimlərimizlə birlikdə tədbirlər görülməlidir.

Cənab Prezident müdafiə sənayesinin inkişafı məsələlərinə də diqqəti cəlb edərək bildirdi ki, Azərbaycanın daxili tələbatını ödəmək üçün həm də ixracat nöqteyi-nəzərindən bu sahəyə xüsusi önəm verilməsi sevindirici haldır. Azərbaycanın zavodları hərbi təyinatlı məhsullar istehsal edir. Biz dünya bazarında da mövqelərimizi möhkəmləndirməliyik. Nəzərə alsaq ki, mürəkkəb dünyamızda çoxlu müharibə, hərbi münaqişə, toqquşma baş verməkdədir. Bu reallıqlar fonunda biz istəsək də, istəməsək də, silah istehsalı məsələləri mühüm önəm kəsb edir. Bu sahəyə xüsusi diqqət ayırmalıyıq", - deyə deputat bildirib.

Deputat qeyd edib ki, cənab Prezident çıxışı zamanı işğaldan azad edilmiş ərazilərimizdə gedən inkişaf proseslərinə diqqəti cəlb edərək, Qarabağ və Şərqi Zəngəzurun bərpasının, bu torpaqlara tarixi köçün reallaşdırılmasının, əhalimizin ata-baba yurduna qayıdışının təmin edilməsinin bizim üçün ən mühüm istiqamətlərdən birinin olduğunu vurğulayıb. İndiyə qədər bu istiqamət üçün dövlət 22 milyard manata yaxın vəsait xərcləyib. Hazırda 50 mindən çox insan işğaldan azad olunmuş ərazilərimizdə yaşayır və işləyir.

Prezident İlham Əliyev çıxışında azad edilmiş ərazilərin bərpaolunan enerji potensialından da bəhs edərək son illərdə burada 30-dan çox su-elektrik stansiyasının tikildiyini və onların generasiya gücünün 300 meqavatdan artıq olduğunu qeyd edib. Bu barədə danışan deputat bildirib ki, Azərbaycan eyni zamanda 2030-cu ilə qədər 6 min meqavatlıq külək və günəş enerjisi istehsal etməyi hədəf seçib: "Bu istiqamətdə çox ciddi işlər görülür. Dövlətimizin başçısı onu da vurğalayıb ki, ozamankı texnoloji imkanlar məhdud olduğu üçün Qarabağ ərazisi sovet dövründə geoloji tədqiq edilməyib. İndi reallıqlar dəyişib. Qarabağ və Şərqi Zəngəzur resurslar baxımından zəngindir, orada qızıl, gümüş, mis ehtiyatları var. Cənab İlham Əliyev yaxın zamanlarda geoloji kəşfiyyat işlərinin nəticələri ilə bağlı çox yaxşı xəbərlər eşidə biləcəyimizi də müjdələdi".

Dövlət başçısının 10 il öncə, AMEA-nın 70 illik yubileyində Azərbaycan tarixi ilə bağlı məsələləri diqqətə çatdırdığını bildirən deputat deyib ki, strateji əhəmiyyət kəsb etdiyi üçün bu tədbirdə də sözügedən mövzuya qayıdılıb: "Cənab Prezident çıxışı zamanı qeyd edib ki, biz öz tarixi torpaqlarımıza, Ermənistanda olan ata-baba torpaqlarımıza qayıdacağıq. Bu tankla deyil, avtomobillə reallaşdırılacaq. Bundan nə Ermənistan dövləti, nə də erməni xalqı çəkinməməlidir, azərbaycanlılar öz dövlətlərinin hüdudlarından kənarda harada yaşayıblarsa, orada həmin dövlətin inkişafına töhfə verib, heç bir zaman separatizmlə məşğul olmayıb, əksinə məskunlaşdıqları, yaşadıqları ölkələrdə ümumi inkişaf prosesində fəal olub, inkişafın əsas hərəkətverici qüvvələrindən birinə çevriliblər. Bu məntiqlə azərbaycanlıların Ermənistana qayıdışı heç bir halda Ermənistan dövləti üçün təhlükə törətmir".

Deputatın sözlərinə görə, Prezident İlham Əliyev çıxışı zamanı hələ rus çarizmi dövründə tərtib edilmiş xəritələrdə belə Ermənistandakı toponimlərin adlarının Azərbaycan adları olduğunu xatırladıb: "Məsələn, ermənilərin Sevan dediyi gölün adı Göyçə gölüdür. O xəritələri bizim tarixçilər deyil, rus tədqiqatçıları tərtib ediblər. İrandan və Şərqi Anadoludan erməniləri Qarabağa köçürən də həmin rus çarizmi idi. Bu istiqamətdə kitablar, kiçik broşürlər yazılmalı, təbliğ edilməlidir. Tariximizin yenidən tədqiq və təbliğ edilməsi qarşımızda dayanan əsas hədəflərdən biridir".

Prezident İlham Əliyevin AMEA-nın 80 illik yubileyindəki çıxışında bütövlükdə Azərbaycan elminin gələcək inkişafı ilə bağlı çox mühüm strateji əhəmiyyətli tezislər öz əksini tapdı. Texnoloji tərəqqi və intellektual potensial əsaslı elmi inkişaf məsələləri gələcək prioritet istiqamətlər kimi müəyyən edildi.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Elmin inkişafının yol xəritəsi

AMEA-nın 80 illik yubileyi münasibətilə keçirilən tədbirdə Prezident İlham Əliyevin iştirakı və çıxışı dövlətimizin elm və təhsil sahəsinə göstərdiyi dəyərin nümunəsidir. Prezident çıxışında akademiyanın 80 illik fəaliyyətinə və onun Azərbaycan elminə verdiyi böyük töhfələrə toxundu. Ümummilli Lider Heydər Əliyevin hər zaman Azərbaycan alimlərinə böyük dəstək göstərdiyini, eləcə də ölkəmizdə elmin inkişafına diqqət və qayğı ilə yanaşdığını xatırlatdı.



Bakı Dövlət Universitetinin kafedra müdiri, professor Kamilə Əliyeva qəzetimizə açıqlamasında bildirib ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycana ilk rəhbərliyi dövründə, 1970-ci illərdə akademiyanın fəaliyyəti təkmilləşdirilib, elmi-tədqiqat institutları yaradılıb və bu sahənin inkişafına böyük vəsait ayrılıb. Məhz Heydər Əliyevin təşəbbüsü ilə minlərlə azərbaycanlı gənc sovet ittifaqının ən nüfuzlu ali təhsil müəssisələrində təhsil almağa göndərilib. "Müstəqil Azərbaycana rəhbərliyi dövründə də Ümummilli Lider Heydər Əliyev Azərbaycan elminə və alimlərinə öz dəstəyini davam etdirdi. Bütün sahələrdə Heydər Əliyev siyasətini, irsini davam etdirən Prezident İlham Əliyev elm-təhsil sahəsində də Ulu Öndərimizin ideyalarını davam və inkişaf etdirir. Dövlət başçısı tərəfindən təsdiq edilmiş Dövlət proqramlarına uyğun olaraq minlərlə gəncimiz dünyanın ən böyük və nüfuzlu universitetlərinə təhsil almağa göndərilir. Vətənə dönən gənclərimiz bütün sahələrdə çalışaraq ölkəmizin rifahına, güclənməsinə xidmət göstərirlər.

Müstəqilliyimizin ilk illərində ölkəmizdə çox ağır siyasi, iqtisadi vəziyyət hökm sürürdü. Hakimiyyəti qeyri-qanuni yolla ələ keçirən AXC-Müsavat cütlüyü, başqa sahələrdə olduğu kimi, elmi də uçuruma aparmışdır. Azərbaycanı bütün bəlalardan xilas edən Heydər Əliyev Azərbaycan elmini də dirçəltdi. Milyonlarla qaçqın və məcburi köçkünümüzün olmasına, torpaqlarımızın işğal altına düşməsinə, eləcə də iqtisadi çətinliklərimizə baxmayaraq, Heydər Əliyev Azərbaycan elminə, həmçinin akademiyanın inkişaf etdirilməsinə vəsait ayırırdı. Bu, Azərbaycan elminin gələcək inkişafına hesablanmış addım idi", - deyə o bildirib.

Ekspert qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti getdikcə istər siyasi, istərsə də iqtisadi cəhətdən güclənib. Bu güc artdıqca dövlətimiz tərəfindən elmin inkişafına da böyük vəsaitlər ayrılır. Son 10 ildə Prezident İlham Əliyev tərəfindən Azərbaycan elminə ayrılan vəsait iki dəfədən çox artıb. Akademiyanın maddi-texniki bazası möhkəmləndirilib, binalar əsaslı təmir edilib. Alimlərimizin səmərəli fəaliyyət göstərmələri üçün böyük imkanlar yaradılıb. 2009-cu ildə yaradılmış Elm Fondu Azərbaycan alimlərinə maddi dəstək göstərməklə yanaşı, elmin inkişafına təkan verməkdədir.

Kamilə Əliyeva vurğulayıb ki, Elmin İnkişafı üzrə Milli Strategiya və "Elm haqqında" qanun, Dövlət proqramlarının qəbul edilməsi elmə və təhsilə verilən yüksək qiymətin nümunəsidir: "Prezident İlham Əliyev çıxışında son 10 ildə Azərbaycanda, eləcə də dünyada baş verən hadisələrə də münasibət bildirdi. Hazırda istər siyasi, istərsə də iqtisadi cəhətdən dünyada gərgin vəziyyət hökm sürür. Dünyanın bir sıra regionlarında müharibələr aparılır, ölkələr iqtisadi cəhətdən ağır durumla qarşılaşırlar. Bütün bu situasiyalara baxmayaraq, Azərbaycan həm siyasi, həm də iqtisadi cəhətdən böyük uğurlar qazanıb. Azərbaycan 30 il işğal altında qalan torpaqlarını azad etdi, suverenliyimiz tam bərpa olundu. Son 10 il Azərbaycan üçün inkişaf və qələbələrlə zəngin illər olub. Bütün bölgələrimizlə yanaşı, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur da sürətlə inkişaf edir".

Dünyada yeni texnologiyaların yaradıldığını deyən kafedra müdiri qeyd edib ki, hər bir ölkə texnologiyalar sayəsində dövlətlərini gücləndirməyə çalışır. Bu baxımdan Azərbaycan dövləti də texnologiya sahəsində əhəmiyyətli işlər həyata keçirmək üçün səylərini artırır. Bu məsələdə də Azərbaycan alimlərinin üzərinə böyük məsuliyyət düşür. Dünyada gedən texniki tərəqqiyə uyğun tədqiqatlar aparılmalı və ölkəmizin inkişafına töhfələr verilməlidir.

Dövlət başçımız çıxışında Azərbaycanda hərbi sənayenin sürətli inkişafına da böyük diqqət yetirildiyini vurğuladı. Azərbaycanda istehsal olunan hərbi təyinatlı məhsullar ordumuzu təmin etməklə yanaşı, xarici dövlətlərə də ixrac edilir. Dövlət başçımızın təşəbbüsü ilə hərbi sənayenin inkişafına özəl şirkətlərin də cəlb olunması prosesi başlanıb və bir sıra özəl şirkətlərdə hərbi təyinatlı məhsullar istehsal olunur. Bu sahənin inkişaf etdirilməsi üçün dövlətimiz tərəfindən özəl şirkətlərə bütün imkanlar yaradılıb. Bu şirkətlər Azərbaycan Ordusunu müasir silahlarla təmin etməklə bərabər, xarici dövlətlərə də hərbi təyinatlı məhsullar ixrac edəcək. Bu, dünya praktikasında uğurla həyata keçirilən bir layihədir. "Prezident İlham Əliyev çıxışında azərbaycanlıların indiki Ermənistan ərazisi olan doğma torpaqlarından qovulmasına da öz münasibətini bildirdi. Bütün tarixi sənədlər və xəritələr də sübut edir ki, azərbaycanlılar indiki Ermənistan olan torpaqların qədim sakinləri olublar. Azərbaycanlılar harada yaşamalarından asılı olmayaraq, daim həmin ölkələrin inkişafına böyük töhfə veriblər. Xalqımız heç vaxt separatizm hərəkətlərinə yol verməyib. Ermənistan ərazisindən qovulan soydaşlarımızın öz doğma torpaqlarına dönməyə hüquqları var. Düşünürəm ki, Ermənistan rəhbərliyi bu məsələdə konstruktiv mövqe nümayiş etdirəcək. Alimlərimiz Ermənistan ərazisindəki toponimlərin azərbaycanlılara məxsus olması barədə çoxsaylı elmi məqalə hazırlayıblar. Dövlət başçımız alimlərimizə bu barədə yeni elmi araşdırmaların aparılmasının vacib olduğunu çatdırdı", - deyə o əlavə edib.

Ekspert vurğulayıb ki, Prezident Azərbaycan dilinin qorunması istiqamətində də alimlərimizin qarşısına böyük vəzifələr qoyub. Ana dilimiz olan Azərbaycan dili çox zəngindir və dilimizi qorumaq hər birimizin borcudur. Xarici dillərin Azərbaycan dilinə inteqrasiyasına icazə verməməliyik. Şübhəsiz, bu işdə də alimlərimizin üzərinə böyük məsuliyyət düşür. Dilimiz yad sözlərdən xilas olmalıdır. İşlədilən xarici sözlərin əvəzlənməsi ən ümdə məsələlərdəndir. Dövlət başçısının verdiyi tapşırıqlar əcdadlarımızdan bizə miras qalmış ana dilimizin qorunmasına xidmət edir. Prezident İlham Əliyevin akademiyadakı çıxışını elmimizin, təhsilimizin inkişafına xidmət edən bir yol xəritəsi kimi qiymətləndirməliyik.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# "Zəngəzur dəhlizi regionun geoiqtisadi xəritəsini yenidən formalaşdırır"

Zəngəzur nəqliyyat dəhlizi Orta dəhlizin tərkib hissəsi kimi Avrasiyada yeni geoiqtisadi reallıqlar formalaşdırır. Bu marşrut Cənubi Qafqazı Mərkəzi Asiya, Çin və Türkiyə ilə birləşdirərək regionun enerji, ticarət və nəqliyyat xəritəsini yenidən qurur. Ekspertlərin fikrincə, Zəngəzur dəhlizinin açılması təkcə Azərbaycan və Türkiyə üçün deyil, həm də Pakistan və Mərkəzi Asiya ölkələri üçün strateji əhəmiyyət daşıyır. Xüsusilə, layihənin Çin-Pakistan İqtisadi Dəhlizi (CPEC) ilə paralel fəaliyyət göstərməsi Pakistanın Qvadar limanından Avropa və Türkiyə bazarlarına quru yolu ilə birbaşa çıxış imkanlarını genişləndirir.



Bu mövzu ətrafında AZƏRTAC-ın suallarını Pakistanın Sülh və Diplomatik Araşdırmalar İnstitutunun təsisçisi, iqtisadi analitik və politoloq Məhəmməd Asif Nur cavablandırıb.

*- Zəngəzur dəhlizi və Orta dəhliz layihələrinin Çin-Pakistan İqtisadi Dəhlizi ilə inteqrasiyası Pakistan üçün gələcəkdə regional nəqliyyat və ticarət mərkəzinə çevrilmək baxımından hansı real imkanları yarada bilər?*

- Bilirsiniz ki, 2025-ci ilin sonlarında Çin-Pakistan İqtisadi Dəhlizinin (CPEC) ikinci mərhələsinin yenidən işə salınması və Zəngəzur dəhlizinin Trans-Xəzər marşrutu (Orta dəhliz) çərçivəsinə inteqrasiyası regionda geoiqtisadi və nəqliyyat əməkdaşlığının yeni mərhələsini açır.

Pakistan Prezidenti Asif Əli Zərdari 2025-ci il noyabrın 1-də Gilgit-Baltistan bölgəsində keçirilən yüksəksəviyyəli tədbirdə çıxış edərək CPEC-i yerli icmalar üçün ticarətin, əlaqələndirmənin və iqtisadi canlanmanın rəmzi kimi səciyyələndirib.

Beynəlxalq iqtisadi müşahidəçilərin fikrincə, avqust ayında əldə olunmuş sülh sazişindən sonra ABŞ vasitəçiliyi ilə təsis edilən "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) çərçivəsində Zəngəzur dəhlizinin Orta dəhliz və CPEC ilə birləşdirilməsi regionda nəqliyyat və ticarət sistemlərinin dərin inteqrasiyasını təmin edir.

Ekspertlərin qiymətləndirməsinə görə, bu proses Pakistanı Cənubi Asiya, Mərkəzi Asiya, Qafqaz və daha geniş Avrasiya məkanını birləşdirən aparıcı logistik və ticarət mərkəzinə çevirir. Bu inteqrasiya 2030-cu ilə qədər ildə 100 milyard ABŞ dollarından artıq ticarət dövriyyəsinin formalaşmasına imkan yaradacaq.

Dünya Bankı və digər beynəlxalq iqtisadi qurumların son proqnozlarına əsasən, bu əməkdaşlıq logistik səmərəliliyin artırılması, sənayenin bərpası, enerji mənbələrinin şaxələndirilməsi və geosiyasi mövqelərin möhkəmləndirilməsi istiqamətlərində mühüm imkanlar açır. Bütün bu amillər biri-birini tamamlayaraq davamlı iqtisadi artımın yeni dövrünə zəmin yaradır.

Zəngəzur dəhlizinin Ermənistanın Sünik vilayətindən keçən 43 kilometrlik hissəsinin 70 faizi artıq hazırdır və layihə ABŞ vasitəçiliyi ilə təsis edilmiş "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) çərçivəsində 4,8 milyard ABŞ dolları məbləğində güzəştli maliyyə vəsaiti hesabına icra olunur. Bu dəhliz Orta dəhlizin TransXəzər dəmir yolu və bərə şəbəkələri ilə sıx şəkildə uzlaşaraq Rusiyanın sanksiyalarla məhdudlaşdırılmış şimal marşrutlarına alternativ cənub quru xəttini formalaşdırır.

Eyni zamanda CPEC-in 2025-2029-cu illəri əhatə edən Dəniz Fəaliyyət Planı çərçivəsində sentyabr ayında işə salınan ikinci mərhələsi ilə birləşməsi nəticəsində Çinin Sincan bölgəsindən Avropaya qədər olan yük marşrutları 10 min kilometrədək qısalır, logistik xərclər 20-30 faiz azalır, tranzit müddəti isə Süveyş marşrutu üzrə 45 gündən 20 gündən az müddətə enir.

Bu prosesin Pakistan üçün iqtisadi qazancı son dərəcə əhəmiyyətlidir. Qvadar limanı hazırda ildə 2 milyon konteyner emal etdiyi halda, 2030-cu ilədək 50-70 milyon konteynerə qədər artım potensialına malikdir. Liman vasitəsilə Qazaxıstanın uranı, Özbəkistanın pambığı kimi Mərkəzi Asiya resurslarının emalı və onların Azərbaycan və Türkiyə ərazisindən keçməklə Qərb bazarlarına yönəldilməsi planlaşdırılır.

Sentyabrın 26-da Pakistan və Çin rəsmiləri arasında keçirilmiş yüksəksəviyyəli danışıqlarda aqrosənaye və texnoparkların yaradılması məsələsinə xüsusi diqqət yetirilib. Bu istiqamət üzrə həyata keçiriləcək layihələr nəticəsində Pakistanın hazırda əsasən tekstil və düyü ixracına əsaslanan 30 milyard dollarlıq ixrac səbətinin illik 15-20 faiz artması, habelə 15-20 milyard dollarlıq birbaşa xarici investisiyanın xüsusi iqtisadi zonalara (SEZ) cəlb olunması gözlənilir.

CPEC-in 2025-2029-cu illər üzrə dəniz strategiyası çərçivəsində Qvadar limanında 4,8 milyard dollarlıq infrastruktur yeniləmələri, o cümlədən dərin dəniz dayanacaqları və Əfqanıstana uzanan yeni dəmir yolu əlaqələri nəzərdə tutulur. Zəngəzur dəhlizinin Azərbaycan-Ermənistan sərhədi boyunca 2025-ci ilin oktyabr ayına olan məlumata əsasən, 70 faizinin tamamlanması isə Ərəb dənizindən başlayaraq Hindukuş dağları, Xəzər hövzəsi və İstanbuladək uzanan "cənub qövsü" formalaşdırır.

Bu inteqrasiya nəticəsində Pakistanın logistika və xidmət sektorunda 1-2 milyon yeni iş yeri açılması, Bəlucistan vilayətinin iqtisadi mühərrikə çevrilməsi, eləcə də ÜDM-in illik artımına 2-3 faiz əlavə töhfə verməsi proqnozlaşdırılır.

Dəhlizlər həm də ikiistiqamətli enerji axınlarını mümkün edir: Mərkəzi Asiyanın, xüsusilə Qazaxıstanın nefti cənuba doğru CPEC boru xətləri ilə, Pakistanın mayeləşdirilmiş qazı və bərpaolunan enerji mənbələri isə şimala - Orta dəhliz istiqamətində ixrac edilə bilər. Bu, Pakistana ildə 10-15 milyard dollar əlavə enerji tranzit gəliri qazandıraraq idxal asılılığını azalda və ölkəni "yaşıl dəhliz" platformasının aparıcı vasitəçisi kimi möhkəmləndirə bilər.

Süni intellekt texnologiyalarının tətbiqi logistika proseslərində 95 faiz vaxtında çatdırılma səviyyəsinə nail olmağa imkan verəcək və rəqəmsal analitika sahəsində yüksək texnoloji investisiyaları cəlb edəcək.

Nəticə etibarilə, Çin, Mərkəzi Asiya, Azərbaycan və Türkiyəni Pakistan vasitəsilə birləşdirən bu üçtərəfli inteqrasiya Avrasiya miqyasında yeni strateji ittifaqlar yaradır. 2025-ci ilin mayında formalaşan Azərbaycan-Pakistan-Türkiyə oxu bu əməkdaşlığın siyasi və iqtisadi dayağını təşkil edir.

Bu proses İslamabada regional tranzit və diplomatik axınlar üzərində mühüm təsir imkanları qazandırır, o cümlədən Əfqanıstanın sabitliyi və Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində vasitəçilik rolunu gücləndirir. Eyni zamanda vizasız ticarət zonaları və iqtisadi əlaqələr vasitəsilə insanların qarşılıqlı təmaslarını artıraraq turizm və pul köçürmələrində 25 faizlik artım potensialı yaradır.

*- Zəngəzur dəhlizinin açılması Mərkəzi Asiya ölkələri və Pakistan üçün Qərb bazarlarına çıxış baxımından alternativ və təhlükəsiz marşrut yaradacaq. Bu baxımdan, Azərbaycan, Türkiyə və Pakistan arasında nəqliyyat və enerji sahələrində üçtərəfli əməkdaşlığın regional güc balansına mümkün təsirini necə qiymətləndirirsiniz?*

- 2025-ci ilin avqustunda ABŞ vasitəçiliyi ilə imzalanmış "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) sazişi çərçivəsində rəsmiləşdirilən bu dəhliz Mərkəzi Asiya respublikaları və Pakistan üçün ənənəvi dar boğazlardan yan keçərək Qərb bazarlarına daha təhlükəsiz və səmərəli çıxış imkanı yaradan mühüm alternativ yol kimi çıxış edir. Bu inkişaf Azərbaycanın Naxçıvanla maneəsiz əlaqəsini və oradan Türkiyəyə çıxışını təmin etməklə təkcə ticarəti asanlaşdırmır, həm də iqtisadi qarşılıqlı asılılığa əsaslanan dayanıqlı ittifaqlar şəbəkəsi formalaşdırmaqla regional güc balansını incə şəkildə dəyişir. Mənim fikrimcə, 2025-ci ilin mayında Laçında keçirilən sammit və oktyabrda İslamabadda baş tutan parlament dialoqu kimi təşəbbüslərlə möhkəmlənən bu üçtərəfli ox çoxqütblü sabitliyi təşviq etmək potensialına malikdir, lakin İran və Rusiya kimi qonşu aktorların həssaslıqlarını nəzərə alaraq diqqətli şəkildə idarə olunmalıdır. Bu prosesin təsirləri çoxşaxəlidir, üçlüyün strateji müstəqilliyini artırmaqla yanaşı, Avrasiya miqyasında geniş dalğa effektləri yaradır.

Nəqliyyat baxımından Zəngəzur dəhlizinin Orta dəhlizə inteqrasiyası və TRIPP-nin infrastruktur öhdəlikləri ilə gücləndirilməsi üçtərəfli tərəfdaşlığın Avrasiya logistikasını yenidən formalaşdırmaq qabiliyyətini artırır. Tarixən Mərkəzi Asiya dövlətləri Avropaya ixrac üçün Rusiya tərəfindən idarə olunan şimal marşrutlarından asılı idilər və bu asılılıq 2022-ci ildən sonra tətbiq edilən sanksiyalar və pozuntularla üzə çıxdı. Cənubi Ermənistanın 20 millik hissəsindən keçən dəhliz indi ABŞ-nin uzunmüddətli nəzarəti altında, beynəlxalq konsorsiuma icarəyə verilməklə fəaliyyət göstərir. Bu isə tranzit vaxtını 40 faizə qədər, xərcləri isə 20-30 faiz azaldır, Pakistanın Qvadar limanından Çin-Pakistan İqtisadi Dəhlizi vasitəsilə Xəzər dənizi və oradan Avropaya qədər uzanan fasiləsiz quru bağlantısı yaradır.

Pakistan üçün bu, illik 30 milyard dollarlıq ixracatın əsasən tekstil və kənd təsərrüfatı məhsullarının Süveyş kanalından asılı olmadan Türkiyə və Avropa bazarlarına birbaşa çıxışı deməkdir. Azərbaycanın Naxçıvana birləşdirilmiş dəmir və avtomobil yolları ilə əsas qovşaq rolunu möhkəmləndirməsi, Türkiyənin isə Bakı-Tbilisi-Qars dəmir yoluna yatırımları bu şəbəkəni qərb istiqamətində genişləndirir. 2025-ci ildə Ankara Bəyannaməsinə əlavə kimi qəbul edilən razılaşma bu səyləri gömrük harmoniyası və rəqəmsal izləmə sistemləri üzrə birgə işçi qruplar vasitəsilə əlaqələndirir, 2030-cu ilə qədər regional ticarət dövriyyəsini 50-100 milyard dollar artırmaq potensialı yaradır.

Enerji əməkdaşlığı bu üçlüyün daxilində axınların şaxələndirilməsinə əsaslanan yeni model formalaşdırır və regionu tək bir təchizatçı asılılığından uzaqlaşdırır. Azərbaycanın "Şahdəniz" qaz yataqları artıq Avropanın "Cənub qaz dəhlizi"nin əsas hissəsidir və Zəngəzur dəhlizi ilə əlaqələndirilmiş boru xətləri vasitəsilə illik 20-30 milyard kubmetr qazın CPEC-in ikinci mərhələsi çərçivəsində Əfqanıstan üzərindən Pakistana nəqli mümkündür. 2025-ci ilin mayında Laçında keçirilən sammitdə "yaşıl hidrogen" və LNG terminalları üzrə birgə layihələr barədə razılıq əldə olunub. Türkiyənin TANAP boru kəməri bu axınları iki istiqamətdə əlaqələndirən körpü rolunu oynayır: Mərkəzi Asiya nefti şimala, Pakistanın bərpaolunan enerji resursları isə cənuba doğru hərəkət edəcək. Bu əməkdaşlıq Pakistanın enerji idxal xərclərini 15 faizədək azalda və "yaşıl Orta dəhliz" konsepsiyası çərçivəsində qlobal dekarbonizasiya məqsədlərinə uyğun gəlir.

TRIPP çərçivəsində ABŞ-nin enerji infrastrukturuna ayırdığı 4,8 milyard dollarlıq güzəştli maliyyə sabitlik yaradır, lakin uzunmüddətli asılılıqların qarşısını almaq üçün diqqətli tənzimləmə tələb edir. Diplomatik baxımdan bu üçtərəfli çərçivədə gəlirlərin ədalətli bölüşdürülməsi "Şahdəniz" konsorsiumu modelinə bənzər şəkildə sıfır cəmlilik qorxularını azaldır və ortaq rifah konsepsiyasını gücləndirir.

Geosiyasi baxımdan dəhlizin genişləndirdiyi üçtərəfli nəqliyyat və enerji əməkdaşlığı təsir balansını incə şəkildə dəyişir, tərəflərin strateji dərinliyini artırır və çoxtərəfli nəzarət mexanizmləri vasitəsilə sabitlik təmin edir. Azərbaycanın 2020-ci ildən sonra əldə etdiyi üstünlüklər Naxçıvana birbaşa çıxışla möhkəmlənir və Bakı Cənubi Asiya ilə türk dünyasını birləşdirən TransQafqaz mərkəzinə çevrilir. Türkiyə "bir millət - iki dövlət" prinsipinə əsaslanaraq logistik və müdafiə əlaqələrini genişləndirir, Pakistan isə Qvadar limanı vasitəsilə həm Dəniz İpək yolu, həm də quru Orta dəhliz üzrə ikiqat tranzit platformasına çevrilir.

Ümumilikdə, avqust ayında imzalanmış sazişdən sonra üçtərəfli ticarət dövriyyəsində 25 faiz artım müşahidə olunur. Bu əməkdaşlıq hərbi qarşıdurma deyil, iqtisadi qarşılıqlı asılılıq vasitəsilə regional sabitliyə töhfə verir və potensial gərginlik nöqtələrini, o cümlədən Xəzər bölgəsindəki mübahisələri azalda bilər. Bununla yanaşı, TRIPP və Çin CPEC sərmayələrinin kəsişməsi balanslaşdırılmış yanaşma tələb edir ki, Pekinlə iqtisadi protokolların uyğunlaşdırılması zərurəti ortaya çıxmasın.

# Qüdrətin və qürurun nümayişi



**8 Noyabr Azərbaycanın şanlı tarixinə qızıl hərflərlə yazılmış gündür. O, şəhid qanı ilə qazanılmış bir zəfər günü, eləcə də milli ruhun, birliyin və əzmin təntənəsidir. Həmin gün Azərbaycan xalqının yenidən doğulduğu, ruhunun azadlığa qovuşduğu yaddaşdır.**

Bir neçə gün əvvəl Azadlıq meydanında keçirilən hərbi paradı izləyərkən qürur, sevinc və minnətdarlıq hisslərini eyni anda yaşadım. Qələbəmizin rəmzi olan bu möhtəşəm tədbir illərin həsrətinə son qoyan zəfərin canlı təcəssümü idi. Bu parad 5 ilin möhtəsəm görüntüsü və tarixi hadisə olmaqla yanaşı, millətimizin yenilməz ruhunun təntənəsi kimi yadda qaldı. Bəlkə də kimin üçünsə bu təntənə silahların güc nümayişi, yaxud da adi bir tamaşa kimi görünə bilərdi. Amma mənim üçün belə deyildi. O, şəhidlərin əziz xatirəsinə ehtiramın, qazilərin qəhrəmanlığının və xalqımızın sarsılmaz birliyinin təcəssümünə çevrilmişdi. Bu parad azadlığın səsi, qürurun addımı, Vətən sevgisinin meydanda canlandığı bir and kimi hələ uzun illər unudulmayacaq.

Tribunada məğrurcasına dayanan Prezident İlham Əliyevin üzündə həm zəfərin, həm də Azərbaycan xalqının uzun illər çəkdiyi ağrıların yükünü daşıyan bir vüqar hiss olunurdu. Dövlət başçısının təbəssümü çox xoş idi, soyuq, rəsmi gülümsəmə deyildi, ürəkdən gələn sevincin və dərin qürurun ifadəsini canlandırırdı. İlham Əliyevlə çiyin-çiyinə dayanan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif də həmin tarixi anın şərəfini paylaşırdılar. Üç liderin bu mövqeyi diplomatik jest olmaqdan çox, qardaşlıq, dostluq və birgə dəstəyin simvolu olaraq açıq-aydın görünürdü. Sanki üç ölkənin qəlbi bir ritmlə döyünürdü. Liderlərin baxışları meydanda dalğalanan enerjini əks etdirirdi. İlham Əliyev, Rəcəb Tayyib Ərdoğan və Məhəmməd Şahbaz Şərif tarixi anın şahidləri kimi yan-yana idilər. Onların duruşu meydanı dolduran insanlara açıq bir mesaj verirdi: burada zəfər, dostluq, həmrəylik və gələcək üçün inam qeyd olunur.

8 Noyabrda azadlıq və qardaşlıq melodiyası Azadlıq meydanını bürümüşdü. Paradı izləyən insanların sevgisi, əsgər və hərbçilərin nizamlı addımları, səslənən marşlar, ifa olunan hərbi mahnılar tarix danışırdı. Tribuna önündə Böyük Zəfərin ruhu dalğalanırdı. Bu, çox gözəl bir tablo idi, sözə çevirəndə belə bir mənzərə alınır: o gün ilk öncə Vətən Müharibəsi Qəhrəmanı general-mayor Zaur Məmmədovun rəhbərliyi ilə döyüş bayraqdarları meydana qədəm qoydular. Başlar üzərində dalğalanan hər bayraq Azərbaycanın şanlı tarixi və qələbə əzmini ürəklərə doldurdu. Ardınca general-leytenant Hikmət Mirzəyevin başçılığı ilə Xüsusi Təyinatlı Qüvvələrin qəhrəmanları hər addımlarında azadlıq və Vətən sevgisinin dastanını yaşatdılar.

Hərbi Dəniz Qüvvələrinin dəniz piyadaları, Xarici Kəşfiyyat və Dövlət Təhlükəsizlik Xidmətinin heyətləri tribunanın önündən keçərək, birlik və qürurun rəmzi oldular. Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlıları, Birinci, İkinci, Üçüncü, Dördüncü və Altıncı Ordu Korpuslarının döyüşçüləri meydanı zəfər ruhu ilə dolduraraq tarix yazdılar. Raket və Artilleriya Qoşunlarının hərbi qulluqçuları mətin addımlarla irəliləyərək güc və əzmi nümayiş etdirdilər. Qardaş Türkiyə Silahlı Qüvvələrinin nümayəndələri minbaşı Harun Ergenin rəhbərliyi ilə tribunanın önündən keçdilər. Pakistan Silahlı Qüvvələrinin parad heyəti mayor Saqib Alanın başçılığı ilə addımladılar. Dövlət Sərhəd Xidməti, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları və Prezidentin Təhlükəsizlik Xidmətinin Milli Qvardiyasının hərbi qulluqçuları isə mətin addımlarla Azadlıq meydanını zəfərin simvoluna çevirdilər.

Hərbi paradda təqdim olunan zirehli və hərəkətli texnika - 12,7 millimetrlik NSV pulemyotlu avtomobillər, "SPIKE-ER" tank əleyhinə raketlər, 120 millimetrlik "SPEAR" minaatanlar, "SandCat-Stormer" zirehli avtomobillər Azərbaycan Ordusunun çeviklik və mobilitetə verdiyi önəmi göstərirdi. Yeni silahlanmaya daxil edilmiş "VAŞAQ" xüsusi əməliyyat, "COBRA-II" tibbi təxliyə və "Land Rover-110" patrul avtomobilləri, həmçinin "SKİF-COBRA" tank əleyhinə raket kompleksi, BTR-82A və PDM-3 zirehli maşınlar, "T-72M1" və "T-90S" tankları isə ordunun döyüş qabiliyyətinin və strateji üstünlüyünün açıq nümayişi idi.

O gün paytaxtın baş meydanı başlardan ucada dayandı. Səmada ucan üçrəngli bayrağımız başımızın üstündə qanad gərdi, cövlan etdi. Nə gözəl görüntü idi! Heç bir zaman unuda bilməyəcəyim daha bir görüntü isə indi bu sətirləri yazanda da gözlərimin önünə gəldi: səmada göstərilən aviaşou pilotlarımızın məharətinin, ustalığının bir parçası idi. Hərbu Hava Qüvvələrinin şahinləri yaşıl, qırmızı, göy rənglə Azərbaycan bayrağının görüntüsünü yaratdılar. Təyyarələr uzaqlaşandan sonra Azərbaycan səmasında, Xəzər dənizinin üzərində biri-birinə qarışmış rənglər sanki, bir simfoniya yazdılar. Al-əlvan boyalı həmin ahəng insanın gözünün işığını artırırdı. İşığın sönməsin, Azərbaycan!

Bütün bunlar gözlə görünən bir səhnə deyildi. Bu, qəlblərdə, ruhlarda canlanan bir təntənə, həsrətin və sevincin birləşdiyi mənəvi bir ucalıq idi. Hər addım bir ritm kimi döyüş qəhrəmanlığını, vətən sevgisini və xalqımızın qələbə əzmini ürəklərdə əks etdirir, meydanı Zəfərin sədaları ilə doldururdu. İnsanlar əlini ürəyinin üstünə qoyub həmin ritmlə döyünən qəlblərlə həmrəylik nümayiş etdirirdilər. Baxışlar biri-birinə qarışmışdı, biri digərinin gözündə öz sevincini, həyəcanını görürdü. Heç kim əlavə söz danışmırdı, amma hamı anlayırdı ki, bu təntənədəki səssizlikdə minlərlə hekayə var. Hər kəsin içində bir az şəhid xatirəsi, bir az həsrət, bir az da sonsuz fəxarət yaşayırdı. Bu parad səssiz dua, şəhidlərin ruhuna yönəlmiş minnətdarlıq və xalqın iradəsinə yazılmış and idi. 8 Noyabr paradı müstəqil dövlətin səsi, Azərbaycan adlı məmləkətin var olduğunun təntənəsi kimi diqqət çəkdi. Bu parad Azərbaycan Silahlı Qüvvələrinin tarixi qələbəsi, bütövlükdə Azərbaycanın özü və sözü olaraq yaddaşlara hopdu.

Bu təntənə sadəcə, güc nümayişi deyildi, millətin yaddaşının dirçəlişini təsdiq etdi. Çünki o görüntüdə hərbi texnika ilə yanaşı, Vətənə, torpağa, şəhidə olan sevgi yer almışdı. Bəzən bir bayrağın yellənməsi, bir marşın sədası insana illərlə oxunan tarix dərsindən daha çox şey öyrədir. 8 Noyabr günü bir daha anladım ki, azadlıq təkcə coğrafi sərhədlərlə ölçülmür, o, insanın içindəki qürurun, inamın və birliyin adıdır. Və biz o birliyi qoruduqca, bu Vətən daim qalib olacaq.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Şəhidin 50 illik yubileyi qeyd olunub



**"Nizami" Kino Mərkəzində şəhid İlqar Verdiyevin 50 illik yubileyinə həsr olunan tədbir keçirilib.**

AZƏRTAC xəbər verir ki, ölkəmizin ərazi bütövlüyünün bərpası zamanı şəhid olan soydaşlarımızın əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib. "Andına sadiq oğul" sənədli filmi nümayiş etdirilib. Film "Xocalı Soyqırımını Tanıtma" İctimai Birliyinin qurucusu, jurnalist Şamil Sabiroğlunun layihəsi və Müdafiə Nazirliyinin dəstəyi ilə çəkilib.

Tədbirdə polkovniklər Rəhman Əsgərov və İlqar Nəciyev, polkovnik-leytenant Üzeyir Cəfərov, mayor Elşən Əliyev və Muxtar Həşimov, Vətən Müharibəsi Qəhrəmanı, şəhid kapitan Ceyhun Həsənovun atası Aydın Həsənov, Rusiyanın Rostov vilayətində yaşayan sahibkar Leyla Əhmədova, şəhid mayorun ömür yolundan bəhs edən kitabın müəllifi Nəcibə İlkin, şairə Lətifə Rəşid çıxış edərək İlqar Verdiyevin keçdiyi şərəfli döyüş yolu barədə danışıblar.

İlqar Verdiyevin qardaşı qızı, məktəbli Rəna Verdiyeva əmisinə həsr edilən şeiri səsləndirib, şəhidin anası, qardaşları Azər və Samir Verdiyevlər tədbirin keçirilməsinə dəstək göstərənlərə ailə üzvləri adından təşəkkür ediblər.

Şəhidin həyat yoldaşı Dilarə xanım, övladları Kamran, Orxan və Əminə çıxış edərək İlqar Verdiyevə göstərilən hörmət və ehtiram üçün minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, İlqar Verdiyev 1975-ci il oktyabrın 31-də Bakı şəhərində doğulub. Bakının Nizami rayonundakı 129 nömrəli tam orta ümumtəhsil məktəbində oxuyub. General C.Naxçıvanski adına İbtidai Hərbi Liseyi və Ankara Hərbi Məktəbini bitirib. Təyinatla Bakıdakı hərbi hissələrdən birinə göndərilib. 2008-ci ildən xidmətini cəbhə bölgəsində davam etdirib. 2012-ci il iyunun 14-də xidməti vəzifəsini yerinə yetirərkən şəhid olub. Bakının Xəzər rayonunun Şüvəlan qəsəbəsində dəfn edilib. Üç övladı yadigar qalıb.

# Veloyürüşün final mərhələsi Xankəndidə keçirilib

**Noyabrın 12-də Xankəndi şəhərində "Gənc Peşəkar Velosipedçilər Klubu" İctimai Birliyi tərəfindən reallaşdırılan "Qarabağa veloyürüş - Zəfərin izi ilə" layihəsinin final mərhələsi baş tutub.**



Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, yarışın məqsədi gənclər arasında sağlam həyat tərzinin təbliği, azad olunmuş ərazilərdə idmanın inkişafına dəstək olmaq və Qarabağda sosial-iqtisadi dirçəlişə töhfə verməkdir.

Final mərhələsi Xankəndidəki Zəfər meydanında təşkil olunub. Veloyürüş iştirakçılarını Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubov qarşılayıb. Yarış iştirakçıları arasında Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin müavini, Milli Qəhrəman, general-polkovnik Mədət Quliyev də olub.

Tədbirdə vurğulanıb ki, "Qarabağa veloyürüş - Zəfərin izi ilə" layihəsi təkcə idman yarışı deyil, həm də Azərbaycanın dövlətçilik ənənələrinin, milli həmrəyliyin və Zəfərin rəmzidir. "Gənc Peşəkar Velosipedçilər Klubu"nun nümayəndələri bildiriblər ki, bu kimi tədbirlər gələcəkdə də keçiriləcək və Azərbaycanın müxtəlif bölgələrində velosiped idmanının inkişafına, eləcə də gənclərin sağlam həyata yönləndirilməsinə xidmət edəcək.

Sonda fəal veloyürüş iştirakçılarına təşəkkürnamələr təqdim olunub.

# Bu gün biz möhtəşəm tarixi hadisələrə şahidlik edirik



**Azərbaycanım-qədim odlar diyarım, əzəli yurdum, çoxəsrlik tarixi, zəngin mədəniyyəti, milli-mənəvi dəyərləri və özünəməxsus adət-ənənələri ilə mühüm strateji əhəmiyyətli coğrafiyada yerləşən qüdrətli dövlətim. O dövlətim ki, milli sərvətlərinə və coğrafiyasına görə min illər ərzində torpaqları yadellilər tərəfindən işğala, əhalisi isə amansız soyqırımı aktlarına məruz qalmışdır.**

Belə bir məşhur deyim var: "Tarixini bilməyənin coğrafiyasını dəyişərlər". Əlbəttə ki, Azərbaycana məxsus əzəli torpaqların, o cümlədən İrəvanın, Zəngəzurun, XX yüzilliyin sonlarında isə Qarabağ və ətraf ərazilərin itirilməsi məhz həmin dövrlər ölkəmizdə mövcud olan ictimai-siyasi problemlər, milli birlik və milli özünüdərikin natamamlığı, həmçinin xalq-hakimiyyət həmrəyliyinin olmaması səbəbindən baş vermişdir. Çünki əgər xalq öz milli kimliyini dərk edərək, həmrəy şəkildə milli maraqlara əsaslanan vahid bir amal uğrunda birləşmirsə, ictimai-siyasi sabitlik, dayanıqlı inkişaf və müstəqil dövlət anlayışları reallıqdan çox-çox uzaqlarda olur.

Təbii ki, hər təqvim ilini 4 fəsilsiz, parlaq bir gecəni ay və ulduzlarsız, möhtəşəm tarixi hadisəni zaman və məkansız təsəvvür edə bilmədiyimiz kimi, böyük siyasət nəhəngi, xalqımızın xilaskarı, amalı dövlətimiz və xalqımız olan Heydər Əliyevi Azərbaycansız, Azərbaycanı isə Heydər Əliyevsiz təsəvvür etmək mümkünsüzdür. Heydər Əliyev Azərbaycanın özüdür. Qədirbilən xalqımızın əbədi sevgisini qazanmış Ulu Öndər nadir tarixi şəxsiyyət olduğunu həm şərəfli ömür yolu ilə, həm də zəngin və çoxşaxəli fəaliyyəti ilə sübuta yetirmişdir. Hələ sovet dönəmində - Azərbaycan KP MK-nin birinci katibi (1969-1982) və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini (1982-1987) işlədiyi dövrlərdə Heydər Əliyev müstəqil və müasir dövlətimizin, milli birliyimizin və həmrəyliyimizin ilk rüşeymlərini, fundamental prinsiplərini yaratmışdır.

Müstəqil dövlət hər zaman nəyin bahasına olursa-olsun milli birliyi və həmrəyliyi prioritet hesab etməli, milli-mənəvi dəyərləri qorumalı, onu zənginləşdirməlidir. Əks halda, dövlət heç bir xarici təzyiq olmadan parçalanmaq və məhv olmaq təhlükəsi qarşısında qala bilər. 1978-ci ilin aprelində qəbul edilmiş Azərbaycan SSR-nin Konstitusiyasına Azərbaycan dilinin dövlət dili kimi daxil edilməsi, Hüseyn Cavid kimi görkəmli ədibimizin nəşinin xüsusi ekspedisiya axtarışı nəticəsində tapılıb Sibirdən Azərbaycana gətirilməsi, Bəxtiyar Vahabzadənin, Xəlil Rza Ulutürkün və digərlərinin həbsdən azad edilməsi, Şuşada Molla Pənah Vaqifin xatirəsinə məqbərənin ucaldılması, mədəniyyətin qatı düşməni olan erməni təcavüzkarları tərəfindən dahi şəxsiyyətlərimizin - Xurşidbanu Natəvanın, Üzeyir bəy Hacıbəylinin, Bülbülün güllələnən büstlərinin xüsusi himayə altında Qarabağdan Bakıya İncəsənət Muzeyinə köçürülməsi, elm adamlarına fəxri adların verilməsi, minlərlə gəncin təhsil ala bilməsi üçün SSRİ-nin qabaqcıl ali təhsil müəssisələrinə göndərilməsi və xüsusən milli birliyimizin başlanığıc nöqtəsi olan "31 Dekabr-Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü"nün təsis edilməsi Heydər Əliyevin milli həmrəyliyimiz və birliyimiz naminə verdiyi ən böyük töhfələrdir.

Fəaliyyətinin ilk dövründən ölkəmizdə azərbaycançılıq məfkurəsinin, milli birliyin və həmrəyliyin əsasını qoyan Heydər Əliyev müstəqil Azərbaycana prezidentlik etdiyi dövrdə (1993-2003) xalqın Ümummilli Liderinə çevrildi. Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü ildə Ermənistanın təcavüzkar siyasətini dayandıran atəşkəsin imzalanması, beynəlxalq neft layihələrinin uğurla reallaşdırılması, ölkəmizdə və sərhədlərimizdən kənarda yaşayan soydaşlarımızın ideoloji-siyasi cəhətdən silahlandırılması və milli mənafelər naminə səfərbər edilməsi, dostluq və humanizm prinsiplərinə əsaslanan konstruktiv mövqenin sərgilənməsi son 250-300 il üçün Azərbaycan xarici siyasətində atılmış ən uğurlu addımlar idi.

Müasir dövrdə xalqımız Heydər Əliyev ideyalarının işığı altında yeni əsrin yeni lideri İlham Əliyevin ətrafında "dəmir yumruq" kimi birləşərək, milli birliyimizin sarsılmaz olduğunu sübuta yetirdi. O "dəmir yumruq" ki, müqəddəs ata vəsiyyətinin icrasını təmin etdi. O "dəmir yumruq" ki, Ali Baş Komandan İlham Əliyevin güclü siyasi iradəsi, mükəmməl diplomatiyası, peşəkar rəhbərliyi və yenilməz Azərbaycan Ordusunun rəşadəti hesabına 44 günlük Vətən müharibəsində Zəfərimizi təmin etdi, 2023-cü ilin sentyabrında bütün Qarabağ ərazisindən erməni separatçılarını gəldikləri yerə qovdu və bununla onların "böyük Ermənistan" mifologiyasına son qoydu!

Amerikalı siyasətçi Rosalynn Carter demişdir: "Lider insanları getmək istədikləri yerə aparır. Görkəmli lider - mütləq getmək istəmədikləri, lakin mütləq olmaq istədikləri yerlərə aparır". Tam məsuliyyətlə qeyd edə bilərik ki, 30 il boyunca qəlbi yurd həsrəti ilə alışan, Vətən sevgisi ilə döyünən, körpəsindən ayrı düşən anaların, qardaşına həsrət qalan bacıların, illərlə köhnə qatar vaqonlarında yaşamış qaçqın və məcburi köçkünlərin, öz əcdadlarının qəbrini ziyarət edə bilməyib intizar dolu göz yaşları ilə yas saxlayan soydaşlarımızın getmək və mütləq şəkildə olmaq istədikləri sadəcə, bir yer var idi - ulu əcdadlarımızın əzəli, əbədi yurdu, səmasında milli ruhumuzun dolaşdığı doğma Qarabağ və Şərqi Zəngəzur.

Prezident İlham Əliyevin bütün fəaliyyəti ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasına yönəlmişdir. Amma ilk öncə mənəviyyatımızın, milli birlik və həmrəyliyimizin tam şəkildə bərpa olunması lazım idi. Düşmənlə üz-üzə döyüşlərdə yaralanan silahdaşını güllə yağışı altından cəsarətlə çıxaran hərbçinin cəsarətini, sinəsini gülləyə sipər edib qədim Şuşanın əzəmətli dağlarına dırmaşan oğulların ürəyindəki vətən sevgisini, evində bişirdiyi bir parça çörəyi həmin gün yeməyib cəbhəyə göndərən ağbirçək anaların sevincini gördükcə bir daha əmin olduq ki, İlham Əliyev ötən illər ərzində bizim milli ruhumuzu tam bərpa etməklə yanaşı, gənclərimizin vətənpərvərlik ruhunda yetişməsini və milli həmrəyliyimizi təmin etmişdir. 2019-cu ildə "Valday" platformasında Ermənistan baş naziri N.Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" illuziyasının cavabında bizim Prezidentin "Qarabağ Azərbaycandır və nida" deməsi əslində elə 50 milyonluq soydaşımızın milli birliyinin və milli mövqeyinin ifadəsi idi.

Bu gün hər birimiz qürur hissi keçiririk ki, bizlər Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu və Prezident, partiyamızın Sədri İlham Əliyevin Zəfər zirvəsinə ucaltdığı müstəqil və suveren Azərbaycanın vətəndaşı kimi möhtəşəm tarixi hadisələrə şahidlik edirik.

***Tural İSMAYILOV,***
***YAP Yevlax rayon təşkilatının sədr müavini***

# "Hər bir əsgərin arxasında Azərbaycan xalqının sarsılmaz dəstəyi dayanırdı"

*"Zəfər Günü hərbi əməliyyatların başa çatmasından daha böyük mənaya malikdir, belə ki, bu tarix ədalətin bərpasının və beynəlxalq hüququn zəfərinin rəmzidir. Təxminən otuz il ərzində beynəlxalq səviyyədə tanınmış Azərbaycan ərazisinin 20 faizi işğal altında qalmış, bu da bir milyondan artıq vətəndaşın öz evlərini tərk etməsinə səbəb olmuş, xalqı isə zəngin mədəni və mənəvi irsi ilə vəhdətdə yaşamaq imkanından məhrum etmişdi. 2020-ci il Vətən müharibəsi zamanı bu torpaqların azad edilməsi təkcə hərbi Qələbə deyil, həm də milli dirçəlişin dərin bir mərhələsini təcəssüm etdirdi".*

Bu fikirləri AZƏRTAC-a pakistanlı geoiqtisadi təhlilçi, Avrasiya əlaqələri, resurs diplomatiyası və dayanıqlı inkişaf üzrə siyasət tədqiqatçısı İmran Bhatti söyləyib.

Ekspert qeyd edib ki, 2020-ci ildə qazanılmış Qələbə Azərbaycanın igid oğul və qızlarının fədakarlığı sayəsində mümkün olub: "Azərbaycanın çoxəsrlik hərb ənənələrindən ilham alan bu günümüzün qəhrəmanları ən çətin şəraitdə misilsiz cəsarət və peşəkarlıq nümayiş etdirdilər. Onların sonsuz fədakarlığı bizə xatırladır ki, azadlığı qazanmaq lazımdır. Bu, mübarizə tələb edən bir dəyərdir və milli suverenliyin qorunması hər kəsdən maksimum səylə xidmət etməyi tələb edir.

Hər bir əsgərin arxasında Azərbaycan xalqının sarsılmaz dəstəyi dayanırdı. Bu xalqın dözümü və birliyi tükənməz güc mənbəyinə çevrildi. Prezident İlham Əliyevin rəhbərliyi ilə xalqınız qeyri-mümkün görünəni mümkün etdi və bunu labüd nəticəyə - Qələbəyə çevirdi", - deyə İ.Bhatti vurğulayıb.

Agentliyin həmsöhbəti qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan strateji düşüncə gücünü, diplomatik uzaqgörənliyini və milli maraqlara sarsılmaz sədaqətini nümayiş etdirdi.

İmran Bhattinin sözlərinə görə, 44 günlük müharibə Azərbaycan xalqının həqiqi xarakterini - öz köklərinə sıx bağlı olan mahiyyətini üzə çıxardı. Bu birliyə əsaslanan milli həmrəylik Azərbaycanın "ən güclü silah növlərindən birinə" çevrildi. Müharibə göstərdi ki, bir xalq ədalət uğrunda mübarizədə birləşəndə, onun qarşısında aşılmaz maneə qalmır.

"Zəfər Günü təkcə ərazilərin bərpasını deyil, həm də Azərbaycanın mədəni və mənəvi irsinin yenidən doğuluşunu simvolizə edir. İşğal dövründə dağıdılmış qədim məscidlər, tarixi abidələr və mədəniyyət obyektləri indi öz əvvəlki möhtəşəmliyində bərpa olunur. Bu torpaqların azad edilməsi Azərbaycana öz kökləri ilə əlaqələri yenidən möhkəmləndirmək, gələcək nəsillərə əcdadlarının ənənələrini davam etdirmək və milli kimliklərini daha dərindən dərk etmək imkanı verdi.

Suverenliyin bərpası Azərbaycanın beynəlxalq arenada inamlı və müstəqil dövlət kimi mövqelərini daha da gücləndirdi. Bu Qələbə göstərdi ki, ölkə təkcə maraqlarını qorumaq iradəsinə deyil, həm də hərbi, diplomatik və texnoloji üstünlükləri effektiv şəkildə birləşdirərək mürəkkəb strateji məqsədlərə nail olmaq bacarığına malikdir", - deyə pakistanlı ekspert əlavə edib.

İmran Bhatti bildirib ki, 2020-ci il Qələbəsi Azərbaycan tarixində yeni bir mərhələnin başlanğıcını qoyub. Bu mərhələ regionda bərpa və davamlı sülhün qurulmasına yönəlmiş iddialı səylərlə xarakterizə olunur. Ekspertin sözlərinə görə, "Böyük qayıdış" proqramı minlərlə məcburi köçkünün doğma yurdlarına qayıtmasına imkan yaradıb, genişmiqyaslı infrastruktur layihələri isə azad edilmiş əraziləri müasir və çiçəklənən bölgələrə çevirir.

"Bu bərpa səyləri şəhər və kəndlərin fiziki bərpasından daha böyük məna daşıyır, yəni onlar Azərbaycanın keçmiş münaqişə zonalarını əməkdaşlıq və rifah məkanına çevirmək baxışını təcəssüm etdirir. "Ağıllı şəhər"lərin və "yaşıl enerji" zonalarının yaradılması ölkə vətəndaşları üçün dayanıqlı və firavan gələcək təmin etməyə sadiqliyi bir daha nümayiş etdirir", - deyə İmran Bhatti sözlərinə yekun vurub.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## 10 ayda DSMF-nin xərcləri 9 faiz artıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun (DSMF) gəlirləri bu ilin 10 ayında proqnozla müqayisədə 6 faiz və ya 385 milyon manat çox olmaqla 6 milyard 601 milyon manat təşkil edib.**

Fondun gəlirləri tərkibində məcburi dövlət sosial sığorta daxilolmaları həmin dövrdə proqnoza nisbətən 8 faiz və ya 371 mln. manat artaraq, 5 milyard 237 milyon manat olub.

Yanvar-oktyabr aylarında DSMF-nin xərcləri 6 milyard 263 milyon manat təşkil edib ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 9 faiz və ya 537 milyon manat çoxdur.

## 491,8 min şəxs aktiv məşğulluq tədbirləri ilə əhatə olunub

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi bu ilin 10 ayında 491,8 min şəxsi aktiv məşğulluq tədbirləri ilə əhatə edib.**

Onlardan 158 min şəxs münasib işlərlə təmin edilib, 16,3 min şəxs isə kiçik ailə təsərrüfatlarını yaratmaları üçün özünüməşğulluq proqramına cəlb olunub.

Yanvar-oktyabr aylarında 15,5 min işsiz şəxs üçün isə peşə hazırlığı kursları təşkil olunub, 302 min şəxsə peşəyönümü xidmətlər göstərilib.

## Əmək müqavilələrinin sayı 1,9 milyona yaxınlaşır

**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin yaydığı məlumata görə, bu il noyabr ayının 1-nə işçilərlə işəgötürənlər arasında bağlanmış əmək müqavilələrinin sayı 1 miyon 884 min 656-ya çatıb.**




Təkcə oktyabr ayı ərzində bağlanan əmək müqavilələrinin sayında 16,1 min artım olub. Ümumi əmək müqavilələrinin 54,2 faizə yaxını qeyri-neft sektorunun özəl bölməsinin payına düşüb. Bu sektorda artımın əsas hissəsi xidmət, ticarət və tikinti sahələrində qeydə alınıb.

## Azərbaycan nefti 4 faizdən çox bahalaşıb

**AZƏRTAC xəbər verir ki, dünya bazarında Azərbaycan nefti bahalaşıb.**

"Azeri Light" markalı neftin bir barelinin qiyməti 2,7 dollar və ya 4,1 faiz artaraq 67,78 dollar olub. Xatırladaq ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb.

# Qeyri-neft sektoru milli iqtisadiyyatımızın aparıcı qüvvəsinə çevrilir

### ÜDM-də bu sektorun payı 70 faizə yaxınlaşır. Hədəf isə 80 faizdir

**Azərbaycan dünyada qədim dövrlərdən neft ölkəsi kimi tanınıb. Bu gün də ölkənin iqtisadi göstəricilərində və gəlirlərində bu sektor önəmli rol oynamaqdadır. Amma bu da reallıqdır ki, iqtisadiyyatın yalnız xammaldan asılı olması risklidir. Dünya bazarında neftin qiyməti birdən-birə kəskin bahalaşdığı kimi, eyni qaydada uzun müddət də aşağı düşə bilir. Bu isə iqtisadiyyatın ciddi risklərlə üzləşməsi deməkdir.**

O üzdən cənab İlham Əliyev prezident seçildiyi ilk gündən ölkəni neft-qaz asılılığından qurtarmaq üçün ciddi iqtisadi islahatlara start verdi. İlk növbədə sahibkarlığın inkişafını sürətləndirmək və investisiya qoyuluşunu artırmaq üçün mükəmməl hüquqi baza yaradıldı. Ardınca digər tədbirlər görüldü və beləliklə, qeyri-neft sektorunda yeni dövr başladı. İstər yerli, istərsə də xarici sahibkarlar qeyri-neft sektorunda aktivliyini artırdı. Onların sərmayəsi sayəsində ölkəmizdə qeyri-neft sektoruna aid çoxsaylı istehsal və xidmət sahələri yaradıldı.

Artıq ölkənin büdcə gəlirlərinin formalaşmasında və ixracda qeyri-neft sektoru önəmli rol oynamağa başlayıb. Bununla bağlı Prezident İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley yığıncağındakı çıxışında demişdir: "Bizim iqtisadi göstəricilərimiz çox müsbətdir. Düzdür, ümumi daxili məhsul çox artmır. Bunun da əsas səbəbi neft hasilatının obyektiv səbəblərə görə aşağı düşməsidir. Ancaq bu gün iqtisadiyyatımızın aparıcı təkanverici qüvvəsi qeyri-neft sektorudur. Bu, bizim ümumi iqtisadiyyatımızın əksəriyyətini təşkil edir. Bu gün dünyanın aparıcı reytinq agentlikləri - iki aparıcı beynəlxalq reytinq agentliyi bizim kredit reytinqimizi qaldırıb və bunu investisiya reytinqinə uyğun səviyyədə artırıb. Bu, əlbəttə ki, ölkəmizdə gedən iqtisadi islahatların təzahürüdür. Çünki bu gün bizim iqtisadiyyat sağlam iqtisadiyyatdır. Biz heç kimdən asılı deyilik. İqtisadi müstəqillik təbii olaraq siyasi müstəqilliyi də gücləndirir".

Dövlət başçısı həmçinin vurğulamışdır ki, bizim xarici borcumuz çox aşağı səviyyədədir, halbuki bir çox inkişaf etmiş ölkədə xarici borc o ölkələrin ümumi daxili məhsulunun yüz faizini, bəlkə də daha çox hissəsini təşkil edir. Bizdə isə bu, cəmi 6 faizdən bir qədər çoxdur: "Bizim valyuta ehtiyatlarımız ildən-ilə artır və bu il də əhəmiyyətli dərəcədə artıb, 80 milyard dolları ötüb. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan 16 dəfə çoxdur. Biz əgər istəsək, xarici borcumuzu bir neçə ay ərzində sıfırlaya bilərik. Yəni bu göstəriciyə görə Azərbaycan bu gün dünya miqyasında aparıcı yerlərdədir".

Azərbaycan iqtisadiyyatının dinamik inkişafı, ölkəmizdəki siyasi və maliyyə sabitliyi investisiya cəlb edilməsi üçün geniş imkan açır. Bunun nəticəsidir ki, qlobal səviyyədə sərmayə qoyuluşu azalsa da, Azərbaycana xarici sərmayələrin qoyuluşunda həmişə canlanma müşahidə olunur. Xüsusən qeyri-neft sektorunda bu özünü qabarıq  büruzə verir. Adıçəkilən yığıncaqda dövlət başçısı bildirmişdir ki, iqtisadi və maliyyə dayanıqlılığı bizə imkan verir ki, böyük investisiya layihələrini icra edək: "Təbiidir ki, bu gün əsas investisiya layihələrinin istiqaməti Qarabağ və Şərqi Zəngəzurdur. Azad edilmiş bu torpaqlarda dünyada misli görünməmiş işlər görülür. Yəni Azərbaycan ictimaiyyəti müntəzəm olaraq bu barədə məlumatlandırılır və bir çox vətəndaşımız artıq azad edilmiş torpaqlara gedib. Dəfələrlə orada olublar və gedən inkişafı öz gözləri ilə görürlər. Yəni bizim güclü iqtisadiyyatımız bizə həm əminlik verir, həm də azad edilmiş torpaqların tezliklə bərpa edilməsinə imkan verir. Güclü hərbi potensialı yaratmaq üçün imkan verir".




Torpaqlarımızın 20 faizinin 30 il erməni işğalında qalması mövcud iqtisadi potensialımızdan tam istifadə etməyə imkan vermirdi. İndi işğaldan azad olunan ərazilərdə geniş bərpa-quruculuq işləri ilə yanaşı, buradakı təbii sərvətlərdən istifadə edilməsi üçün də hazırlıq işləri görülür. Prezident İlham Əliyev demişdir: "Geoloji kəşfiyyat işləri xüsusilə Qarabağda və Şərqi Zəngəzurda çox böyük əhəmiyyət kəsb edir. Çünki bu ərazi sovet vaxtında lazımınca tədqiq edilməmişdir və tədqiq edilsə idi belə, yenə də ovaxtkı texnologiyalarla onları tam öyrənmək mümkün deyildi. Yəni bu gün müasir texnologiyalarla peykdən tədqiqat, zondlama aparılır. Təbii resurslar, o cümlədən qeyri-ənənəvi neft yataqlarının aşkarlanması bir çox hallarda fiziki, yəni əraziyə girmədən müəyyən edilir. Ona görə mənim göstərişimlə artıq bir neçə aydır ki, Qarabağda və Şərqi Zəngəzurda böyük geoloji işlər aparılır".

Söz düşmüşkən bildirək ki, Milli Məclisin deputatı, iqtisadçı Vüqar Bayramov da bu günlərdə qeyri-neft sektorunun inkişafının əhəmiyyətindən danışmışdır: "Prezident tərəfindən yeni dövrün prioritetlərindən biri kimi məhz xarici sərmayələrin artırılması göstərilib. Xüsusilə qeyri-neft sektoruna yönələn sərmayələrin həcminin artması və iqtisadi diversifikasiyanın dərinləşdirilməsi strateji hədəflərdən olaraq qalır. ABŞ ilə imzalanmış anlaşmalar və strateji tərəfdaşlığın möhkəmlənməsi bu ölkədən Azərbaycana daha çox sərmayənin cəlbinə imkan yaradacaq". V.Bayramov həmçinin vurğulamışdır ki, Prezidentin həyata keçirdiyi iqtisadi diplomatiya ölkədə diversifikasiyanı sürətləndirməyə, neftdən asılılığı azaltmağa və qeyri-neft sektorunu gücləndirməyə xidmət edir: "Dövlət başçısının beynəlxalq platformalarda çıxışları və aparıcı şirkət rəhbərləri ilə görüşləri təsdiq edir ki, yaxın dövrdə iqtisadi diplomatiya qeyri-neft sektorunun inkişafına daha da təkan verəcək". Deputat bu sahədə olan uğurları belə dəyərləndirmişdir: "Son 10 ildə qeyri-neft sektorunun makroiqtisadi göstəricilərdə payı xeyli artıb. Artıq qeyri-neft məhsullarının ixracının dəyəri 3,4 milyard dolları ötüb. Həm büdcə gəlirlərində, həm də ÜDM-də qeyri-neft sektorunun payı yüksəlir. Növbəti il dövlət büdcəsinin gəlirlərinin təxminən 58 faizi qeyri-neft sektorunun payına düşəcək ki, bu da neft gəlirlərindən sonrakı dövrün ən yüksək göstəricisidir. Hazırda ÜDM-də qeyri-neft sektorunun payı 70 faizə yaxınlaşır, hədəf isə 80 faizdir".

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# "Əsrin müqaviləsi" çərçivəsində hasilatın başlanmasından 28 il keçir

### "Çıraq" AÇG-də həmçinin növbəti işlər üçün möhkəm platforma oldu

**28 il əvvəl noyabr ayında "Çıraq" platformasından ilk neft alındı. Bununla da çətin sınaqlardan keçmiş möhtəşəm bir layihənin - "Əsrin müqaviləsi"nin gerçəkliyə çevrildiyi təsdiq olundu. Bu, müəllifi Ümummilli Lider Heydər Əliyev olan yeni neft strategiyasının ilk böyük qələbəsi idi.**



"Çıraq"ın neft verməsi sıradan bir qurğudan hasilata başlanması anlamından böyük məna daşıyırdı. "Çıraq" "Əsrin müqaviləsi"nin birinci platforması idi. Odur ki, ilkin neft təkcə platformadan quyuların qazılıb karbohidrogenlərin çıxarılması deyildi. Bundan əvvəl vacib olan genişmiqyaslı işlər görülmüşdü. Belə ki, həmin işlər köhnə "Çıraq-1" platformasının əsaslı təmirini, əslində, təzədən tikilməsini, Xəzərin sahilində Səngəçal və Qara dənizin sahilində Supsa terminallarının yaradılmasını, hasil olunan nefti quruya çıxarmaq üçün sualtı boru xətlərinin çəkilməsini əhatə etmişdi.

1997-ci il noyabrın 12-də Ulu Öndər Heydər Əliyev Xəzərin Azərbaycan sektorunda quraşdırılmış "Çıraq" platformasına gəldi. Burada "Azəri-Çıraq-Günəşli" (AÇG) layihəsi tərəfdaşları nümayəndələrinin, xarici ölkələrdən gəlmiş nüfuzlu qonaqların iştirakı ilə təntənəli tədbir keçirildi. Bu, sıradan bir tədbir deyildi. Çünki həmin gün təkçə neft sənayemizin deyil, ümumiyyətlə, ölkəmizin tarixinə önəmli bir səhifə yazılırdı.

Məlumdur ki, neft-qaz hasilatı ilə məşğul olan istənilən ölkədə hər bir karbohidrogen yatağından hasilatın başlanması iqtisadi cəhətdən böyük əhəmiyyət daşıyır və mühüm hadisə sayılır. Azərbaycan üçün isə "Çıraq"dan ilkin neftin çıxarılması daha böyük məna kəsb edirdi. Bu, həmin vaxt iqtisadi durumu çox zəif olan ölkəmizin dirçəlişinə və böyük gələcəyinə hesablanmış "Əsrin müqaviləsi"nin birinci nefti idi.

"Əsrin müqaviləsi" imzalanandan cəmi üç il sonra həmin saziş çərçivəsində hasilata başlanması dünyada misli görünməmiş nailiyyət, neftin çıxarılması və nəqli üçün belə geniş infrastrukturun yaradılması əsl rekord oldu.

Xatırladaq ki, "Çıraq" platforması Xəzərdə, Bakı şəhərindən 120 kilometr şərqdə yerləşir. Onun dayaqları suyun 120 metr dərinliyində qərar tutub. Platformanın qurğularından quyuların qazılmasına 1997-ci ilin avqustunda başlanıb. Həmin ilin noyabrından, yəni ilk neftin əldə olunmasından bəri "Çıraq" təmir və profilaktika üçün ayrılmış qısa fasilələri çıxmaqla, ahəngdar işləyir.

"Çıraq"dan neft 24 düymlük sualtı kəmərlə Səngəçal terminalına nəql edilir. Bu xəttin uzunluğu 154 kilometrdir. Terminalda neft tərkibində gələn sudan təmizlənib çənlərə vurulur, sonra ixrac marşrutu ilə yola salınır. Yataqdan çıxarılan səmt qazı uzunluğu 50 kilometr olan 16 düymlük sualtı kəmərlə Neft Daşlarındakı kompressor stansiyasına ötürülür.

AÇG-də yeni daha böyük və daha müasir platformalar istismara verilənədək, yəni 2005-ci ilədək "Çıraq" bu yataqlar blokunda yeganə hasilat və ixrac mənbəyi idi. Başqa sözlə, "Çıraq" neft platforması olmaqla yanaşı, həm də böyük uğurlar üçün platforma - özül yaratdı. Belə ki, ondan sonra Xəzərdə, AÇG müqavilə sahəsində daha səkkiz platforma quraşdırıldı. Onlardan dördü "Azəri" yatağında, ikisi "Dərinsulu Günəşli"də, biri "Qərbi Çıraq"da yerləşir. Keçən ildən Xəzərdə "Çıraq"la qonşuluqda məskən salan isə"Azəri Mərkəzi Şərqi" (ACE) platformasıdır. Qeyd edək ki, AÇG layihəsində iştirak payları belədir: BP (30,37 faiz), SOCAR (31,65 faiz), MOL (9,57 faiz), İNPEKS (9,31 faiz), "EksonMobil" (6,79 faiz), TPAO (5,73 faiz), İTOÇU (3,65 faiz), ONGCVideş (2,92 faiz).

Onu da vurğulayaq ki, "Çıraq" ilkin olaraq 7 illik istismar üçün planlaşdırılmışdı. Lakin peşəkar işçi heyətinin əla iş icrası, yüksək ixtisas bilikləri, texnoloji bacarıqları və qətiyyəti sayəsində bu qurğu hələ də AÇG layihəsinin yeni platformaları ilə yanaşı, əməyin təhlükəsizliyi üzrə beynəlxalq standartlara uyğun, həmçinin yüksək əməliyyat səmərəliliyi ilə istismardadır. AÇG-nin operatoru olan BP şirkətinin məlumatına görə, bu ilin əvvəlindən "Çıraq"dan gündə orta hesabla 21 min barel neft hasil olunub.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Qazaxıstan Milli Bankı ilə yeni maliyyə hesabatlılığı standartlarının tətbiqi müzakirə olunub

**Azərbaycan Mərkəzi Bankı (AMB) ikitərəfli əməkdaşlıq çərçivəsində Qazaxıstan Milli Bankının nümayəndə heyəti ilə görüşüb.**

AMB-dən AZƏRTAC-a bildirilib ki, Mərkəzi Bankda keçirilən interaktiv görüşlərdə əsas diqqət maliyyə sektorunda və xüsusilə mərkəzi (milli) banklarda müasir təcrübələrin, o cümlədən tənzimləyici yeniliklərin mübadiləsinə yönəldilib. Görüşlərdə konsolidasiya olunan maliyyə hesabatlılığı üçün hazırkı avtomatlaşdırılmış bank informasiya sistemlərinin imkanları və inkişafı, Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının tələblərinə əsasən, maliyyə alətlərinin, digər aktiv və öhdəliklərin tanınması və qiymətləndirilməsi, eləcə də yeni maliyyə hesabatlılığı standartlarının tətbiqi prosesləri müzakirə olunub.

Tərəflər həmçinin maliyyə hesabatında şəffaflığın artırılması üzrə mühüm mövzular və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

## ƏMAS-da işdən qısamüddətli icazələrin e-rəsmiləşdirilməsi imkanı da yaradılıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Əmək və Məşğulluq" altsisteminin "İşəgötürən və işçi arasında rəsmi yazışmalar" bölməsində işdən qısamüddətli icazələrin e-rəsmiləşdirilməsi imkanı da yaradılıb.**

Yeni funksionallıq işəgötürənlər üçün prosesi sadələşdirərək onun idarə olunması imkanlarını genişləndirib. Belə ki, işəgötürənlər icazə limitlərinin təyin edilməsi zamanı "Xidməti icazə işçilərin saat limitindən hesablansın?" bölməsində "Bəli" və ya "Xeyr" seçimləri vasitəsilə bu funksionallığı aktiv və ya deaktiv edə bilirlər.

Xidmət aktiv olduqda, bu müddət "Xidməti icazə" kimi qeydə alınır və işçinin ümumi icazə saatlarına daxil edilmir.

Yeni imkan işçi və işəgötürənlər arasında rəsmi yazışmaların daha çevik və şəffaf şəkildə aparılmasına, həmçinin daxili əmək proseslərinin rəqəmsal şəkildə daha səmərəli idarə olunmasına şərait yaradır.

## Azərbaycan nümayəndə heyəti "Türkmentel-2025" beynəlxalq sərgi və konfransında iştirak edib

**Aşqabad Ticarət və Sənaye Palatasının sərgi mərkəzində "Türkmentel-2025" Beynəlxalq Sərgisinin açılışı olub. Sərgidə bir sıra ölkələrlə yanaşı, Türkmənistandan 200-dən çox təmsilçi iştirak edib.**

Tədbirdə Azərbaycan şirkətləri də təmsil olunublar. "Trend" xəbər verir ki, "Delta Telecom" şirkəti sərginin platinium sponsoru qismində çıxış edib və öz stendi ilə iştirakçılara təqdim olunub. Həmçinin "Azerconnect" və "AzerTelecom" şirkətlərinin nümayəndələri də sərgidə iştirak ediblər.




Türkmənistan Nazirlər Kabinetinin Sədr müavini Memmetxan Çakıyevin rəhbərlik etdiyi nümayəndə heyəti, xarici ölkələrin təmsilçiləri, eləcə də Azərbaycan Respublikasının Türkmənistandakı səfirliyinin əməkdaşları "Delta Telecom" şirkətinin stendini ziyarət ediblər.





# Mədəniyyət





Unudulmazlar

# Atası alman, anası rus, özü bakılı

## Marksist jurnalistin kəşfiyyatçı taleyi

**Onu hamı "bizim bakılı Zorge" adlandırırdı. Faşizmə qarşı mübarizlərdən olan bu cəsur kəşfiyyatçı anadan olduğu doğma Bakı, Abşeron torpaqları ilə birgə xatırlanır. O, ömrünün başlanğıc nöqtəsi olan bu məkanı heç zaman unutmadığını yazılarında xüsusi qeyd edirdi. Bu il Rixard Zorgenin anadan olmasından 130 il ötür.**

### Sabunçudan başlayan ömür yolu

Rixard Zorge 1895-ci il oktyabrın 4-də Sabunçu qəsəbəsində doğulmuşdu. Atası almanəsilli Vilhelm Zorge mühəndis idi. Bakıya neft mədənlərində işləmək üçün gəlmişdi. Rixardın anası Nina Semyonovna Kobeleva isə Bakı-Sabunçu-Qara Şəhər dəmir yolunda podratla işləyən rus fəhləsinin qızı idi. Abşeronda böyümüşdü. Rixard Zorge ailənin 5-ci övladı idi. Bir müddət Bakıda yaşayandan sonra ailə yenidən Almaniyaya köçmüşdür.

Zorgelər kosmopolit ailə olmuşdur. Berlindəki həyatları standart alman ailələrindən xeyli fərqlənirdi. Rixardın böyük əmisi Fridrix Zorge o dövrün tanınmış ictimai-siyasi xadimləri olan Karl Marks və Fridrix Engels ilə dost idi. Rixardın babası Albert Zorge də fəal siyasi fəaliyyətlə məşğul olurdu. Ailənin bir çox təmsilçisi kommunizm ideallarına bağlı idi. Dünyanın gələcəyini, bəşəriyyətin xoşbəxtliyini bu ideologiyada görürdülər. Belə bir münasibət, təbii ki, kiçik Rixardın baxışlarına da öz təsirini göstərirdi.

1901-ci ildə məktəb yaşı çatanda Rixardı Berlin yaxınlığındakı realnı məktəbə qoyurlar. Bundan 10 il sonra atası dünyadan köçür. Məktəbdə buraxılış imtahanının vaxtı çatanda o, imtahanlarda iştirakdan imtina edir və 1914-cü ildə könüllü I Dünya müharibəsi cəbhəsinə yollanır. 1915-ci ildə yaralanır. Müalicə zamanı Berlin Universitetinin Tibb fakültəsinə daxil olur. Amma sağalandan sonra yenə cəbhəyə gedir. İkinci dəfə yaralanır. Müalicə dövründə təhsilini davam etdirir. Sağalandan sonra cəbhəyə qayıdır. 1916-cı ilin mart ayında Qərb cəbhəsində şiddətli döyüşlər zamanı daha ağır güllə yarası alır. Üç barmağı kəsilir, ayağının ikisi sınır. Bu zədələr üzündən ömrünün sonuna qədər axsayır. Əvəzində müharibədə göstərdiyi şücaətə görə Rixard Zorge Almaniya İmperiyasının II dərəcəli "Dəmir xaç" ordeninə layiq görülür.

1918-ci ildə ordudan tərxis olunur və öz istəyi ilə Kil Universitetinin Siyasi fakültəsində təhsil almağa başlayır. 1919-cu ildə siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsini alan gənc Rixard həmin ilin oktyabrında Almaniya Kommunist Partiyasına qoşulur. Hamburqdakı kommunist təmayüllü qəzetdə çalışmağa başlayır. 1922-ci ildə Frankfurt-Mayna gəlir. Bir il bu şəhərdəki institutda dərs deyir. Burada "Roza Lüksemburq və kapital yığımı" adlı kitabçasını nəşr etdirir. 1924-cü ildə Almaniya Kommunist Partiyasının IX Qurultayının nümayəndəsi olur.

### Moskva həyatı: jurnalist kəşfiyyatçı

Açıq şəkildə kommunizm ideyalarını müdafiə etməsi və Avropada ona qarşı təzyiqlərin artması nəticəsində Rixard Sovet İttifaqına gəlməyə qərar verir. 1924-cü ildə o, Moskvaya köçür. 1925-ci ildə Sovet İttifaqı Kommunist Partiyası sıralarına qəbul edilir. Mətbuatda Zorgenin imperializmə qarşı mübarizə ruhlu əsərləri dərc olunmağa başlayır.

Xüsusi xidmət orqanları ilə əməkdaşlığa cəlb olunması bu insanın həyatında yeni və daha mühüm bir mərhələnin başlanğıcı olur. Moskvaya gəldikdən qısa müddət sonra Zorge beynəlxalq Kominternin Kəşfiyyat bölməsində işə götürülür. Jurnalist adı altında "Ramzay", "İnson", "Zonter" ləqəbləri ilə Avropanın müxtəlif ölkələrinə göndərilir. Zorge Avropada olan kommunist qruplarla əlaqələr yaratmalı və bu barədə mərkəzə müntəzəm şəkildə raport verməli idi.

1929-cu ildə Zorgeyə Qızıl Ordunun dördüncü bölməsində kəşfiyyat işi verilir və o, Böyük Britaniyaya göndərilir, daha sonra Almaniyaya gəlir, "Döyç Getrid Zeitunq" qəzetinin xüsusi müxbiri kimi fəaliyyət göstərir.

1930-cu ildə Rixard Zorgenin həyatının Çin dövrü başlanır. Onu "Frankfurter Zeitunq" qəzetinin müxbiri kimi Şanxay şəhərinə göndərirlər. Çində olduğu müddətdə başqa bir sovet agenti Maks Klausenlə tanış olur. Zorge Klausenlə yanaşı, alman xəfiyyəsi Ursula Kaçinski və amerikalı jurnalist xanım Aqnas Smedli ilə də müntəzəm görüşlər keçirir.

Ömürlüyünü vərəqləyəndə onun bütün xarici əməliyyatlara jurnalist adı ilə getdiyini görürük. Bu da səbəbsiz deyildi. Avropada fəaliyyət göstərən tanınmış qəzetlərin xarici ölkələr üzrə xüsusi müxbirləri XX əsrin 30-cu illərində o qədər də diqqətdə deyildilər. Onların xarici ölkələrin xüsusi xidmət orqanlarının əməkdaşları ola biləcəklərini çoxları fərq etmirdi. Zorge də bu nüansdan maksimal şəkildə faydalanmağa çalışırdı.

1933-cü ilin əvvəlində Moskvaya gələn Zorge burada Çinin kənd təsərrüfatı ilə bağlı kitab yazmağa başlayır. Amma R.Zorgenin həyat və fəaliyyətinin, demək olar, ən mühüm mərhələsi Yaponiyada fəaliyyət göstərdiyi illər sayılır. 1933-cü ildə onu yenə də jurnalist adı altında "gündoğar ölkə"yə yola salırlar. Məqsəd həmin ölkədə SSRİ üçün əhəmiyyətli olan kəşfiyyat məlumatlarının toplanması və ötürülməsi idi. Zorge Yaponiyada "Ramzay" kod adı altında fəaliyyət göstərir.

### Çətin dövr: Yaponiya - 1933

1933-1934-cü illərdə Rixard Yaponiyada xəfiyyə şəbəkəsi yaradır. O, qurduğu şəbəkəni məharətlə idarə edirdi. Kəşfiyyatçının SSRİ rəhbərliyinə ötürdüyü məlumatların dəyəri o dövrün qarışıq hərbi-siyasi mənzərəsi fonunda misilsiz idi. Buna baxmayaraq, İosif Stalin Zorgeni həm sevmir, həm də ona inanmırdı. Bunun əsas səbəbi Zorgenin alman mənşəli olması idi. Ona görə də Stalin göndərilən məlumatları ciddi qəbul etmirdi. Cəsur kəşfiyyatçıya Moskvaya qayıtmağı da təklif edirdilər. Amma o dövrdə başlanmış repressiya dalğasından yaxşı xəbərdar olan Zorge bilirdi ki, qayıtsa, onun da taleyi güllələnmə ilə bitəcək. Ona görə də Yaponiyada qalıb sovetlər üçün işləməyi daha üstün tuturdu.

Zorgeyə inamsızlıq isə az sonra Stalinə çox baha başa gəlir. 1940-cı il sentyabrın 27-də kəşfiyyatçı Yaponiya, Almaniya və İtaliya arasında hərbi ittifaq haqqında üçtərəfli müqavilənin bağlanması haqqında məlumat verir. Noyabrın 18-də mərkəzə Almaniya tərəfindən təcavüz planının hazırlanmasına dair xəbər də ötürür. Dekabrın 28-də Hitlerin təcavüzkar niyyətləri barədə və Sovet İttifaqı ilə həmsərhəd rayonlardakı alman diviziyalarının sayı barədə dəqiq məlumatlar təqdim edir. 1941-ci ilin martında isə Hitlerin Sovet İttifaqına hücum planları barədə mərkəzi məlumatlandırır. Bundan bir neçə həftə sonra - mayın 21-də Almaniyanın Sovet İttifaqına qarşı topladığı orduların və diviziyaların sayı barədə səhih xəbər çatdırır. Hətta mayın 30-da Almaniyanın SSRİ-yə hücumunun dəqiq vaxtını xəbər verir.

Stalin isə Zorgenin Almaniyanın hücum planı barədə göndərdiyi məxfi məlumatla tanış olanda onun ünvanına xoş olmayan ifadələr işlədir: "Məndən belə bir adama inanmağımı gözləyirsiniz?", - deyə qəzəblə ətrafındakılara sual etmişdi. Yalnız cəmi 2 günlük fərqlə Hitler Almaniyası "Barbarossa" əməliyyatına başlayanda Stalin Zorgeyə inanmamaqda nə qədər böyük yanlışa yol verdiyini anlayır. Bu inamsızlıq hücumun ilk mərhələlərində milyonlarla sovet əsgərinin hazırlıqsız olması ucbatından labüd ölümü ilə nəticələnmişdi.

R.Zorge hər dəfə məlumat ötürdükdən sonra mərkəzdən səbirsizliklə cavab gözləyirdi. Mərkəz isə susurdu. Nəhayət, iyunun 12-də cavab gəlir. Məlumatı oxuyan Zorge yerindən sıçrayıb başını tutur: "Onlar inanmırlar, şübhə edirlər... Kim şübhə edir? Amma mən öz borcumu verdim..." Fəaliyyətini dayandırmayan Zorge mərkəzə yeni bir məlumat göndərir: "Təkrar edirəm: 150 diviziyadan ibarət 9 ordu iyunun 22-də sovet sərhədinə hücum edəcəkdir! Ramzay". Bu sonuncu xəbərdarlıq iyunun 17-də ötürülür. İyunun 22-də isə faşist Almaniyası Sovet İttifaqına hücum edir.

Göndərilən məlumatların dəyəri o zaman SSRİ üçün çox önəmli idi.



Üçüncü Reyx qüvvələrinin sürətlə irəlilədiyi bir dövrdə imperiyanın Uzaq Şərqdə olan hərbi birləşmələrinin qərb ərazilərində yerləşən cəbhə bölgələrinə transfer edilməsi ilə sovetlər əlavə güc qazanmış oldu. Konkret olaraq 18 diviziya, 1700 tank, 1500-dən çox döyüş təyyarəsi Sibir və Uzaq Şərqdən qərb cəbhələrinə köçürüldü. Həmin texnikanın və canlı qüvvənin xidmətindən 1941-ci il oktyabrın 2-də baş tutan Moskva uğrunda döyüşdə geniş istifadə edildi.

R.Zorgenin taleyi faciəli olmuşdur. Kəşfiyyatçı bunu hələ sağlığında ikən anlayırdı və bilirdi ki, ölümü əcəllə olmayacaq. 1941-ci ildə üçüncü Reyxin "Barbarossa" əməliyyatına start verməsi Zorgenin Yaponiyada fəaliyyət sahəsinin daralması ilə nəticələnmişdi. Yapon və onlarla birgə işləyən alman mütəxəssisləri ölkə ərazisində SSRİ-nin maraqları üçün xidmət göstərən böyük bir casus şəbəkəsinin mövcudluğu barədə məlumatlı idilər. Casus şəbəkəsinin ifşa olunması və xəfiyyələrin saxlanılması üçün gizli işlər aparılırdı. Nəhayət, başladılan əməliyyat qısa zamanda öz nəticəsini göstərir və Zorgenin xəfiyyəsi Hotsumi Ozaki 1941-ci il oktyabrın 14-də həbs olunur. Həbsdən dərhal sonra Ozakinin dindirilməsi başlayır və bununla da Yaponiyada fəaliyyət göstərən böyük bir sovet casusluq şəbəkəsi ortaya çıxarılır. 4 gün sonra Rixard Zorge 1941-ci il oktyabrın 18-də Tokioda həbs edilir.

Zorgenin sovet casusu olduğu müəyyənləşəndən sonra Yaponiyada yerləşən alman səfirliyinin əməkdaşları və səfir başda olmaqla bir çox adam çaşqınlıq keçirir. Kəşfiyyatçı Zorge hər zaman özünü alovlu nasist kimi göstərmiş və Yaponiyada reyx üçün mühüm olan şəxslərin etimadını qazanmışdı.

Barəsində həbs qərarı çıxarılan Zorge Suqamo həbsxanasına göndərilir. Ağır işgəncələr altında o, xəfiyyə olduğunu etiraf etsə də, SSRİ üçün işlədiyini inkar edir. Həmin zaman Yaponiya SSRİ-yə müraciət göndərir: sovetlərin əllərində olan yapon casuslarını Zorge ilə dəyişməyə hazır olduqlarını bildirirlər. SSRİ tərəfindən verilən cavabda isə Rixard Zorge adlı birinin onlara məlum olmadığı göstərilir.

Beləliklə, 1943-cü il sentyabrın 29-da Tokio məhkəməsi Zorgeyə ölüm hökmü çıxarır. Edam qərarı 1944-cü il noyabrın 7-də icra olunur. Zorgenin xidmətləri yalnız 20 il sonra öz layiqli qiymətini alır. 1964-cü il noyabrın 5-də ona ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı verilir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# "Şuşada bitən yuxu" kitabının özbək dilində nəşrinin Daşkənddə təqdimatı keçirilib

**Azərbaycanın Özbəkistandakı səfirliyinin nəzdində fəaliyyət göstərən Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində yazıçı Könül Fazilqızının Qarabağ müharibəsi şəhidi Teymur Məcidzadəyə həsr olunmuş "Şuşada bitən yuxu" kitabının özbək dilində nəşrinin təqdimatı keçirilib.**




Mərkəzdən bildirilib ki, əvvəlcə şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Tədbirdə şəhidin anası Yasəmin Camalova, bacısı Vahida Nəcəfova, Özbəkistanın elmi və mədəni ictimaiyyətinin nümayəndələri, Daşkənd universitetlərinin professor-müəllim heyəti, tələbələr və Azərbaycan diasporunun üzvləri iştirak ediblər.

Kitab Özbəkistanın "Yoshlar matbuoti" nəşriyyatında Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə özbək dilinə tərcümə edilərək çap olunub və Azərbaycan ədəbiyyatının təbliği, həmçinin Vətən uğrunda canını fəda edən qəhrəmanların xatirəsinin yaşadılması istiqamətində həyata keçirilən layihələr silsiləsinə daxildir.

Təqdimatın moderatoru, Nizami adına Özbəkistan Milli Pedaqoji Universitetinin professoru, "Özbəkistan-Azərbaycan" Dostluq Cəmiyyətinin icraçı direktoru Erkin Nuriddinov bu kimi nəşrlərin iki qardaş xalq arasında mədəni və mənəvi əlaqələrin möhkəmlənməsində mühüm rol oynadığını vurğulayıb.

Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Akif Marifli qeyd edib ki, "Şuşada bitən yuxu" kitabı Azərbaycan xalqının poetik salnaməsidir - burada həm itkilərin ağrısı, həm də Şuşanın azad olunması ilə gələn böyük Zəfərin sevinci öz əksini tapıb. O bildirib ki, Teymur Məcidzadə obrazı yalnız bir qəhrəmanın deyil, bütöv bir xalqın iradəsini, mərdliyini və vətənpərvərliyini təcəssüm etdirir. Direktor əlavə edib ki, bu kimi ədəbi layihələr Azərbaycan və Özbəkistan xalqları arasında mədəni inteqrasiyanın daha da dərinləşməsinə, ortaq türk köklərinə və mənəvi dəyərlərin birliyinə xidmət edir.

Tədbirdə Mirzə Uluqbəy adına Özbəkistan Milli Universitetinin professoru Niqina Şermuhəmmədova, şair və tərcüməçi Şəhla Qasımova, dosent Rəna Qədirova və digər çıxışçılar əsər haqqında fikirlərini bölüşərək 44 günlük Vətən müharibəsi dövründə Özbəkistanın Azərbaycana göstərdiyi mənəvi dəstəyi yüksək qiymətləndiriblər.

Kitabın tərcüməçisi Xulkaroy Rəcəbova çıxışında əsərin tərcümə prosesindən danışaraq bildirib ki, bu iş onun üçün sadəcə bir peşəkar təcrübə deyil, həm də Azərbaycan xalqına mənəvi yaxınlıq və qardaşlıq hissinin ifadəsi olub.

Şəhidin bacısı Vahida Nəcəfova isə çıxışında qeyd edib ki, qardaşının xatirəsinə həsr olunmuş bu kitab onun ailəsi üçün böyük mənəvi təsəlli mənbəyidir. O bildirib ki, Teymur kimi qəhrəmanların adının ədəbiyyatda yaşadılması gələcək nəsillərə Vətən sevgisini, azadlıq ruhunu və qürur hissini aşılayır.

Şəhidin anası Yasəmin Camalova dərin kədər və qürurla oğlundan bəhs edərək deyib ki, Teymur Azərbaycanı həyatından çox sevirdi və qısa, lakin şərəfli bir ömür yaşadı.

Tədbirin bədii hissəsində Azərbaycan Mədəniyyət Mərkəzinin "Xarıbülbül" teatr qrupunun kitabın motivləri əsasında hazırladığı səhnə kompozisiyası və mərkəzin "Qarabağ zəfəri" rəqs ansamblının milli rəqslərimizdən ibarət çıxışı təqdim olunub.

# Maqsud İbrahimbəyovun alman dilinə tərcümə olunmuş povestlərindən ibarət kitab təqdim edilib




**Vyana Beynəlxalq Kitab Sərgisi ərəfəsində Azərbaycan Mədəniyyət Mərkəzində Azərbaycanın Xalq yazıçısı, Dövlət mükafatı laureatı Maqsud İbrahimbəyovun alman dilinə tərcümə olunmuş povestlərindən ibarət kitabın təqdimatı keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbiri giriş sözü ilə açan Azərbaycan Mədəniyyət Mərkəzinin rəhbəri Leyla Qasımova təqdim olunan kitabın Prezident İlham Əliyevin sərəncamına uyğun olaraq yazıçının 90 illik yubileyi ilə bağlı keçirilən silsilə tədbirlərin tərkib hissəsi olduğunu bildirib.

Maqsud İbrahimbəyovun həyat və yaradıcılığına nəzər salan L.Qasımova diqqətə çatdırıb ki, yazıçının əsərləri almandilli oxuculara hələ ötən əsrin 70-ci illərindən yaxşı tanışdır. Bu kitabda görkəmli yazıçının müxtəlif dövrlərdə çap olunmuş povestləri toplanıb və Mədəniyyət Mərkəzi tərəfindən çapa hazırlanıb. Kitabdakı "Ondan yaxşı qardaş yox idi", "Bayquş gəlmişdi", "Truskavetsə kim gedəcək", "Axırı yaxşı qurtaran əhvalat" povestlərinin xüsusiyyətlərindən bəhs edən L.Qasımova bildirib ki, sovet konyunkturasına xitab etməyən bu povestlərdə insan psixologiyası, onun iç dünyası, sevinc və kədəri bütün incəlik və çalarları ilə əks olunur, oxucunu öz cazibəsində saxlayır.

Qeyd edilib ki, nəşrlərində Azərbaycan haqqında kitablara geniş yer verən Hans-Yürqen Maurer nəşriyyatında çap olunan kitabı Amazon platforması vasitəsilə həm kitab şəklində, həm də elektron formatda əldə etmək mümkündür. Bu da kitabın geniş oxucu kütləsi arasında yayılmasına imkan yaradacaqdır.

Azərbaycan Respublikası mədəniyyət nazirinin müşaviri Oleq Əmirbəyov çıxışında bildirib ki, dramaturq, ssenarist, rejissor kimi fəaliyyət göstərmiş Maqsud İbrahimbəyovun yubileyi dövlət səviyyəsində həm Azərbaycanda, həm də ölkə hüdudlarından kənarda qeyd edilir. Dövlət başçısının sərəncamına uyğun olaraq, müəllifin əsərləri tamaşaya qoyulur, yeni kitablar nəşr olunur.

Maqsud İbrahimbəyov adına Yaradıcılıq Mərkəzinin direktoru Anna İbrahimbəyova yazıçının həyat və yaradıcılığına nəzər salıb, bu gün onun ədəbi irsinə dövlətimiz tərəfindən verilən yüksək qiyməti təqdir edib və Yaradıcılıq Mərkəzinin yaradıcı insanların bir araya gəldiyi, müxtəlif səpkili tədbirlərin keçirildiyi məkana çevrildiyini bildirib.

Sonra Maqsud İbrahimbəyov adına Yaradıcılıq Mərkəzinin fəaliyyətinə dair videoçarx və M.İbrahimbəyovun həyatının müxtəlif dövrlərini əks etdirən fotoların toplandığı albom nümayiş etdirilib.

Naşir Hans-Yürqen Maurer öz çıxışında Azərbaycanla bağlı mövzuların uzun illərdən bəri onu cəlb etdiyini və buna görə də bu kimi layihələrin reallaşdırılmasında gələcəkdə də maraqlı olduğunu ifadə edib. O, kitabın nəşrinin ona həvalə olunmasından məmnun olduğunu bildirib və göstərilən etimada görə təşəkkür edib.

Çıxışlardan sonra Maqsud İbrahimbəyovun əsərləri əsasında çəkilmiş ekran əsərlərindən parçalar nümayiş etdirilib, həmçinin bədii qiraətçi, aktyor Konstantin Tsander povestlərdən parçalar oxuyub.

Tədbir çərçivəsində Mədəniyyət Mərkəzində Maqsud İbrahimbəyovun əsərlərinin müxtəlif dillərdə nəşrləri nümayiş etdirilib.

# Şabranda keçirilən bilik yarışmasının iştirakçıları müəllimlər olublar



**"Çıraqqala-Şabran" Dövlət Tarix-Mədəniyyət Qoruğunun, Şabran Bələdiyyəsinin və Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı Şabran rayon komitəsinin birgə təşkilatçılığı ilə Şabran rayon Mədəniyyət Sarayında "Unudulmayan Mədəni İrsimiz və Qorunan Gələcəyimiz" adlı bilik yarışı təşkil olunub.**

Şabran şəhərinin ümumtəhsil məktəblərinin müəllimləri arasında keçirilən və yüksək marağa səbəb olan tədbirin məqsədi Azərbaycanın Zəfər tarixini, Vətən müharibəsində qazanılan qəhrəmanlıq ənənələrini, mədəni irsimizin qorunması və gələcək nəsillərə ötürülməsi ideyasını müəllimlər arasında təbliğ etmək, həmrəylik və bilik mübarizəsi mühitini formalaşdırmaq idi.

Tədbirin açılış mərasimində çıxış edən "Çıraqqala-Şabran" Dövlət Tarix-Mədəniyyət Qoruğunun direktoru Günel Pirquliyeva qeyd edib ki, Zəfər Günü xalqımızın milli birlik, qəhrəmanlıq və mübarizə ruhunun simvoludur: "Tariximizin qızıl səhifəsi olan 44 günlük müharibə 30 ilə yaxın işğal altında olan torpaqlarımızın azad edilməsi ilə nəticələndi. Bu cür bilik yarışlarının gənc nəslin və müəllimlərin vətənpərvərlik ruhunda tərbiyəsində mühüm rol oynayacaq".

Şabran Bələdiyyəsinin sədri Fidan Fərzəliyeva və Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı Şabran rayon komitəsinin sədri Seymur Qədəşov tədbirin əhəmiyyətindən, Azərbaycan xalqının böyük Zəfərinin hər bir vətəndaşın yaddaşında əbədi yaşayacağından söz açıblar.

Bilik yarışında Şabran şəhərinin 5 ümumtəhsil məktəbini təmsil edən müəllim komandaları iştirak ediblər. Komandalar Azərbaycan tarixi, mədəniyyəti, Zəfər Günü və Qarabağ mövzuları üzrə hazırlanan suallara cavab verərək bilik və məntiq bacarıqlarını nümayiş etdiriblər. Yarış boyunca iştirakçılar həm məlumatlılıq, həm çeviklik, həm də komandada işləmək bacarığı ilə fərqləniblər.

Müxtəlif qurumları təmsil edən münsiflər heyəti komandaların cavablarını obyektiv şəkildə qiymətləndirib və hər mərhələdə bilik, dəqiqlik və kreativ yanaşma meyarlarını əsas götürüb.

Yarışın fasiləsində müəllimlər və qonaqlar üçün vətənpərvərlik ruhunda musiqilər ifa olunub və "Qarabağ", "Vətən marşı", "Cənab leytenant" və digər vətənpərvərlik ruhunda mahnılar ifa edilib.

Gərgin və həyəcanlı anlarla yadda qalan yarışın nəticələrinə əsasən, Məmmədağa Nəzirov adına 4 nömrəli tam orta məktəb 1-ci, Tofiq Abbasov adına 1 nömrəli və Samir Zülfüqarov adına 3 nömrəli tam orta məktəblər isə müvafiq olaraq 2-ci və 3-cü yerləri bölüşüblər. Qalib komandalar fəxri fərman və xüsusi hədiyyələrlə təltif olunublar.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

## 13 Noyabr Beynəlxalq Gözdən Əlillər Günüdür

**Ətrafımızda elə insanlar var ki, onlar bu dünyanı gözləri ilə deyil, qəlbləri ilə görür, hiss edirlər. Biz onlarla eyni dünyada yaşasaq da, sanki ayrı aləmlərin sakinləriyik. Həyatı bizdən fərqli duyan bu insanlar qaranlıqda deyil, sadəcə fərqli bir işığın içində yaşayırlar. Əslində, onların özünəməxsus dünyası çox rəngarəngdir və həyatın mənasını bəzən çoxlarından daha dərindən duyurlar. Görmə məhdudiyyətli insanlardan danışırıq...**



# Qəlb gözü ilə dünyanı görənlər

Görmə məhdudiyyətli şəxslərin həyatlarındakı ən böyük şans isə onları anlayan, qayğı göstərən, düzgün yönləndirən insanlar, doğulduqları cəmiyyət və dövlətdir. Ölkəmizdə də görmə qabiliyyəti məhdud olanların həyat və məişət şəraitinin yaxşılaşdırılması üçün hər il bir sıra layihələr həyata keçirilir, zəruri tədbirlər görülür.

### "O an anladım fərqli olduğumu"

Öz daxili gücü, istedadı ilə qaranlıq dünyasını aydınladan əzmkar ruhlu insanlardan biri də Səbinə Əsgərovadır. Onun həyatı, yaradıcılığı zülmətə meydan oxuyan bir işıq, nur hekayəsidir.

1993-cü il dekabrın 17-də Rusiyanın Sankt-Peterburq şəhərində anadan olan Səbinə üç yaşında qlaukoma diaqnozu ilə görmə qabiliyyətini itirib. Uşaqlığı xəstəxanalarda, əməliyyatlarda keçib. Musiqiyə böyük marağı olan bu gənc xanımın uşaqlıqda ən sevdiyi məşğuliyyəti mahnılar oxuyub, onları maqnitofona yazmaq olub: "Musiqini həmişə çox sevmişəm. Mahnı oxumadığım bir günüm belə olmayıb. Altı yaşımda fortepianoda da ifa etməyə başlamışam. 2004-cü ildə Bakıya köçəndən sonra burada da piano dərslərinə davam eləmişəm. 15-16 yaşımda isə vokalla məşğul olmağa başladım. Vokal sirlərini mənə öyrədən müəllimim Esmira Hüseynova olub. Bu gün sənətimdə əmin addımlarla addımlayıramsa, bu, onun sayəsindədir".

Valideynlərimizi biz seçmirik. Düzgün yol göstərən, həyatın keşməkeşli yollarında övladına kompas olan hər bir ata-ana Allahın lütfüdür. Səbinə də bu sarıdan özünü həmişə şanslı sayıb. Atası 2020-ci ildə vəfat edən musiqiçinin anası bu gün də ən böyük dayağıdır.

Ailəsi heç vaxt bu məhdudiyyətin onun həyatına sərhəd çəkməsinə yol verməyib. Valideynləri onu daim cəmiyyət içində böyüdüb, teatrlara, tamaşalara aparıb, bacı və qardaşından fərqləndirməyiblər. Elə buna görə də Səbinə uşaqlıqda fiziki məhdudiyyətinin fərqində olmayıb, dünyanın elə onun "gördüyü", təsəvvür etdiyi kimi olduğunu düşünüb. Ta ki, o günə qədər...



"Bir dəfə anamla uşaq tamaşasına getmişdim. Valideynlər arxa, uşaqlar isə ön cərgələrdə oturmuşdular. Səhnədə kuklalar oynayır, biz balaca tamaşaçılar da həyəcanla, sevinclə əl çalırdıq. Birdən yenə alqış səsləri eşidildi. Mən də əl çalmağa başladım. Yanımda əyləşən bir qız "sən niyə əl çalırsan, görmürsən səhnədəki personajlar əl çalır, biz yox" dedi. O an fərqli olduğumu anladım. Düz deyirdi, görmürdüm...", - deyir Səbinə.

### Qaranlıqdan başlayan işıq

Orta təhsilini görmə məhdudiyyətlilər üçün olan xüsusi məktəbdə alan Səbinə 2012-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Estrada müğənniliyi fakültəsinə daxil olub. O zamandan etibarən professional olaraq vokalla məşğul olub.

Səbinənin həyatında dönüş nöqtəsi 2021-ci ildə olub. O, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinə müraciət edib, benefisiar olaraq fəaliyyətə başlayıb. Burada o, müxtəlif dövlət tədbirlərində çıxış edib, vokal dərsləri alıb. Mərkəzdə daha bir qabiliyyətini kəşf edib, zərb aləti ilə tanış olub. "Heç ağlıma gəlməzdi ki, təbildə ifa edə bilərəm", - deyir gənc musiqiçi: "Amma müəllimim Ayxan İsmayıllı ilə məşqlərə başlayandan sonra özümdə yeni bir güc kəşf etdim. Zərb alətində ifa etmək asan deyil. Əllər, qollar, beyin eyni anda işləyir. Diqqət bir yerdə cəmlənmir. Həm oxuyub, həm də zərb alətində ifa etmək mənimçün olduqca maraqlı, həyəcanverici hissdir".

Səbinənin səsi və istedadı dövlət səviyyəsində də diqqətdən kənarda qalmayıb. O, ötən il ölkəmizdə keçirilən COP29 kimi beynəlxalq tədbirdə "Sway" və "Səni axtarıram" mahnılarını ifa edib. Həmin tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva da iştirak ediblər. Onlar Səbinənin ifasını çox bəyənərək, ona xaricdə təcrübə qazanmaq imkanı təklif ediblər. Beləcə Heydər Əliyev Fondunun dəstəyi ilə istedadlı gənc müğənni bu ilin fevral-may aylarında İtaliya və İspaniyada vokal bacarıqlarını təkmilləşdirib.

### İradə, inam, əzm

Beş dildə danışan, fortepiano və zərb alətində ifa edən, ecazkar səsilə mahnılar oxuyan bu xanım həyatdakı çətinliklərin insan iradəsi qarşısında necə məğlub olduğunu sübut edir. Əsl motivasiya və uğur simvolu olan Səbinə öz gücümüzə inanmağın vacibliyini xatırladır.

"Görmə məhdudiyyətim ruhdan düşməyimə səbəb olmayıb. Həyatda heç vaxt özümü kiminləsə müqayisə etməmişəm. Həmişə özümdə istedadımın, bacarığımın yeni çalarlarını kəşf edib, daha yaxşı "Mən" olmağa çalışmışam. Çətinliklərin öhdəsindən gəlmək üçün qarşıma məqsədlər qoyuram. Özümü motivasiya edən səbəblər tapıram. Həyatda hər şeyin xeyir üçün olduğuna inanıram. Əgər insan özündə güc tapmasa, heç kim ona kömək edə bilməz. Bax, mən də qaranlıq dünyamı bu cür aydınladıram", - deyir Səbinə.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*

BEYNƏLXALQ HƏYAT

# Venesuela Prezidenti milli müdafiə komandanlıqları yaradır

**Venesuela Prezidenti Nikolas Maduro ABŞ-nin Karib dənizi və Sakit okean bölgələrində artan hərbi fəaliyyətinə cavab olaraq ölkədə milli müdafiə komandanlıqlarının yaradılmasını əmr edib.**



VTV dövlət televiziya kanalının məlumatına görə, Maduro bu açıqlamanı paytaxt Karakasdakı Miraflores Sarayında çıxışı zamanı verib. Dövlət başçısı qeyd edib ki, Venesuela ardıcıl 14 həftədir psixoloji müharibəyə məruz qalır. Maduro ABŞ-nin Venesuelaya mümkün hərbi müdaxiləsi zamanı milli müdafiə komandanlıqlarının xalq müqavimətinin və yerli müdafiənin təşkilində iştirak edəcəyini açıqladı.

Venesuela lideri milli müdafiə komandanlıqlarının Strateji Əməliyyatlar Komandanlığına (CEOFANB) hesabat verəcəyini bildirib və deyib: "Əgər bizə silahlı münaqişə tətbiq olunarsa, hər məhəllə, hər şəhərdə xalq müdafiəsi hazır olmalıdır. Gəlin həmişə müqəddəs irsimizi müdafiə etməyə, polad kimi fəth etməyə və qalib gəlməyə hazır olaq, vətənpərvərlik və azadlıq yolu ilə gedək".

Yerli medianın məlumatına görə, milli müdafiə komandanlıqlarının digər məqsədi hərbi əməliyyatları dəstəkləmək, eləcə də səfərbərlik elan edildikdən sonra vacib dövlət xidmətlərinin və kritik infrastrukturun fəaliyyətini təmin etməkdir.

Məlum olduğu kimi, bir müddət əvvəl ABŞ Prezidenti Donald Tramp "yerlərdə Latın Amerikası narkotik kartelləri ilə mübarizə" üçün Silahlı Qüvvələrin daha aktiv və effektiv istifadəsini tələb edən bir sərəncam imzalayıb. Bundan sonra avqustun sonlarında ABŞ Venesuela sularına sualtı qayıqlar və hərbi gəmilər yerləşdirib. ABŞ müdafiə naziri Pit Heqset bildirib ki, Amerika qoşunları rejim dəyişikliyi də daxil olmaqla, Venesueladakı əməliyyatlara hazırdır.

Cavab olaraq Venesuela Prezidenti Nikolas Maduro 4,5 milyon nəfər milisin səfərbər edildiyini və hər hansı bir hücumu dəf etməyə hazır olduqlarını bildirib.

*Rizvan CƏFƏROV, "Azərbaycan"*


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


AZƏRBAYCAN
ŞANLI ZƏFƏRİN 5-ci TƏNTƏNƏSİ
Bakıda Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi parad keçirilib

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.*



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti ASCO-nun struktur idarələrinə tələb olunan boyaların (3 aylıq tələbat üzrə) satın alınması məqsədilə açıq tender elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 19 noyabr 2025-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263**

***Tender komissiyası***



## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Ailələrin çətin həyat şəraitinə düşməsinin qarşısının alınması məqsədilə valideynlərin məsuliyyətli valideynlik bacarıqlarının artırılması mövzusunda maarifləndirmənin təşkili" adlı müsabiqə keçirir

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 21 noyabr 2025-ci il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır. Müsabiqə 24 noyabr 2025-ci il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

***Əlaqə telefonu: (012) 525-41-30 (daxili - 5036)***

***Müsabiqə komissiyası***





## Azərbaycanın qadın voleybol millisi İslamiadanın finalındadır

**Qadın voleybolçulardan ibarət Azərbaycan millisi Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyad şəhərində təşkil olunan VI İslam Həmrəyliyi Oyunlarında növbəti oyununu keçirib.**



AZƏRTAC xəbər verir ki, yığmamız Əfqanıstan kollektivi ilə qarşılaşıb. Rəqibinə 3:0 hesabı ilə qalib gələn komandamız finalda Türkiyə ilə qarşılaşacaq. Həlledici görüş noyabrın 13-də Bakı vaxtı ilə saat 16:00-da keçiriləcək.

## Ağırlıqqaldıranımız İslamiadada 2 gümüş medal qazanıb

**Azərbaycan ağırlıqqaldıranı Dadaş Dadaşbəyli (110 kiloqram) Səudiyyə Ərəbistanının payaxtı Ər-Riyad şəhərində keçirilən VI İslam Həmrəyliyi Oyunlarında 2 medal qazanıb.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan millisinin üzvü birdənqaldırmada 180 kiloqram ağırlığın öhdəsindən gələrək bu hərəkətdə ikinci yeri tutub. O, təkanla qaldırmada 211 kiloqram çəkini başı üzərinə qaldırıb.

D.Dadaşbəyli iki hərəkətin cəmində isə 391 kiloqram nəticə ilə fəxri kürsünün ikinci pilləsinə qalxıb.

Qeyd edək ki, bununla da ağırlıqqaldırma üzrə Azərbaycan millisinin İslamiadada qazandığı medalların sayı 11-ə çatıb. Daha əvvəl Nuray Əbilova (48 kiloqram) 3 bürünc, İsa Rüstəmov (71 kiloqram) 1 gümüş və 2 bürünc, Ravin Alməmmədov (79 kiloqram) isə 2 gümüş və 1 bürünc mükafat əldə ediblər.

## ALLAH RƏHMƏT ELƏSİN!

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi iş yoldaşları Məmməd Abbasbəyliyə əzizi

**GÜNƏŞTƏKİN ƏLİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi İlqar Musayevə atası

**Əli MUSAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin şəxsi heyəti xidmətin rəisi general-leytenant İlqar Musayevə atası

**ƏLİ MUSAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidmətinin rəhbərliyi Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi general-leytenant İlqar Musayevə atası

**ƏLİ MUSAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 4033
Sifariş 2319

Qiyməti 60 qəpik